RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 250 (9705) 14 noyabr 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# Azərbaycan kiçik ada dövlətlərinə birmənalı dəstəyini nümayiş etdirir

## Prezident İlham Əliyev COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitində iştirak edib

"Yeni Kaledoniya, Fransa Polineziyası, Mayot, Vallis və Futuna, Korsika, Reunion, Qvadelupa, Martinika, Fransa Qvianası, Sen-Pyer və Mikelon, Sent-Mert və Sent Varfolomey kimi Fransa müstəmləkələrinin xalqları, eləcə də Niderlandın Aruba, Kurasao, Sent-Maarten, Boneyr, Sent Yefstaxiy və Saba kimi müstəmləkələrinin xalqları, - gəlin, həmin ərazidəki xalqları alqışlayaq, - bu gün XXI əsrdə də müstəmləkə hakimiyyətindən əziyyət çəkirlər. Hazırda Fransa Polineziyası və Yeni Kaledoniya 1946-1947-ci illərdə BMT tərəfindən qeyri-özünü idarə edən ərazilər kimi tanınır. Bununla belə, onların dekolonizasiya prosesi hələ də yubanır.

1966-1996-cı illər ərzində Fransa Polineziyası Fransanın apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitin ciddi pozulması ilə üzləşib. Fransa orada torpaq və suyun kəskin dərəcədə zəhərlənməsi və radiasiyasına görə məsuliyyət daşıyır. Radiasiya səviyyəsi 4900 faizi keçib. Əgər buna Fransanın Əlcəzairdə illər boyu işğalı zamanı həyata keçirdiyi 17 nüvə sınağını əlavə etsək, biz həmin ölkə tərəfindən planetin ekosisteminə hansı zərərin vurulduğunu görərik. Fransanın dırnaqarası dəniz ərazilərində törətdiyi cinayətlər siyahısı rejimin bu yaxınlarda insan hüquqları pozulmalarını qeyd etməsək, tam olmazdı. Prezident Makronun rejimi Yeni Kaledoniyada kanakların builki legitim etiraz aksiyasında 13 nəfərin həyatına son qoymuş, 169 nəfəri yaralamışdır. 1700 insan həbs edilmişdir. Həmçinin bu il Martinika və Qvadelupada etirazlar zamanı 38 nəfər həbs olunub. Bütün bunlarla yanaşı, Fransa nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də ki, Avropa Şurasının Parlament Assambleyası tərəfindən pislənildi. Bu, siyasi riyakarlıqdır. Siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat - Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası günahsız insanların qətlinə görə Prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşür. Fransadakı bütün siyası məhbuslar dərhal azad olunmalıdır.

Əgər Avropanın əsas diplomatı Cozep Borel Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! Əgər biz cəngəllikiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kiçik ada dövlətlərinə dəstək verib, COP29-un sədri kimi onları dəstəkləyəcək və gələcəkdə dostlarımızı dəstəkləməkdə davam edəcək".

→ 2




# DÜNYANI SEVƏK, QORUYAQ

**Ən yüksəksəviyyəli tədbirin Azərbaycanda keçirilməsi düşmən üzərində möhtəşəm Zəfər qazanan ölkəmizin həm də mənəvi qələbəsidir!**

Təbiidir ki, COP29-un Azərbaycanda keçirilməsini istəməyən bədxahlar, uğurlarımıza qısqanclıqla yanaşanlar da var.

Lakin Azərbaycanın son dövrlər gördüyü işlər, bir sıra dövlətlərlə yaratdığı iqtisadi-siyasi əlaqələr, beynəlxalq qurumların işində fəal və səmərəli iştirakı, I Avropa Oyunlarını, "Eurovision" müsabiqəsini, IV İslam Həmrəyliyi Oyunlarını yüksək səviyyədə keçirməsi bizi istəməyənlərin arzusunu gözlərində qoydu.

**Azərbaycan bu "yarışma"da da üstün gələrək iqlim dəyişmələri və ekoloji problemlərin uğurlu həlli üzrə məsləhətləşmələr aparılması, təbii fəlakətlərin qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsi üçün, habelə vəsait toplanmasının təşkilatçısı qismində bir daha özünü ən əlverişli məkan kimi təsdiq etdi.**

Azərbaycanın həm də buna nüfuzu və imkanı çatır.

Əlbəttə, 80 minədək insanı qarşılamaq, yerləşdirmək, tədbirlərdə iştirakına şərait yaratmaq, istirahətini və təhlükəsizliyini təmin etmək o qədər də asan məsələ deyil.

Lakin nəhəng tədbirlərin keçirilməsi sahəsində ölkəmizdə zəngin təcrübə qazanılmış, bütün zəruri infrastruktur yaradılmışdır.

*Bu gün paytaxt Bakıda hər bir qonaq özünü evində olduğu kimi hiss edir.*

*Artıq 196 ölkənin dövlət rəhbəri - 80 prezident, vitse-prezident və baş nazir ölkəmizə gəlmiş, COP29-un açılış mərasimi keçirilmişdir.*

Dünya mətbuatı möhtəşəm tədbirin gedişatını geniş şəkildə işıqlandırır.

→ 11

# Azərbaycan, Qazaxıstan və Özbəkistan münasibətlərinin tarixində əlamətdar hadisə

Bu gün Azərbaycan, Qazaxıstan və Özbəkistan münasibətlərinin tarixində əlamətdar hadisədir. Üç qardaş ölkə bu gün öz əməkdaşlığını yeni səviyyəyə qaldırır. Sazişin imzalanması, deyərdim ki, tarixi hadisədir. Biz ölkələrimiz arasında qardaşlıq münasibətlərini daha da möhkəmləndiririk və "yaşıl enerji" sahəsində fəal əməkdaşlıq edəcəyik. Həmçinin deyərdim ki, imzaladığımız bugünkü saziş Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır. Mahiyyət etibarilə Mərkəzi Asiya və Qafqaz regionlarında inteqrasiya prosesləri, nəqliyyat, energetika, ticarətlə bağlı proseslər bu gün deməyə imkan verir ki, bu iki region bir çox məsələlərdə, o cümlədən "yaşıl enerji"nin inkişafı sahəsində sinxron fəaliyyət göstərir.

→ 3



# Özbək qardaşlarımız yenə birincidirlər

### Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə görüşündə Xankəndidə tikiş fabrikinin videobağlantı vasitəsilə açılışı olub




Bu fabrik birliyimizin daha bir rəmzidir. Mən qardaşım Şavkat Miromonoviçə minnətdarlığımı bildirirəm ki, bizim özbək dostlarımız qısa müddətdə Xankəndidə minlərlə insanın çalışacağı və təbii ki, mütləq əksəriyyəti qadınlardan ibarət gözəl müəssisənin yaradılmasına kömək göstərdilər. Bu, məşğulluqdur, bu, istehsaldır, bu, Qarabağın inkişafıdır. Özbək qardaşlarımız isə yenə burada birincidirlər. Füzulidə məktəb tikməkdə bizə ilk yardımçı oldular, işğaldan azad edilmiş ərazilərdə belə böyük bir müəssisə yaratmaqda bizə ilk köməyi göstərdilər.

Mən Şavkat Miromonoviçə, bütün özbək dostlarımıza və qardaşlarımıza belə qardaşlıq münasibətinə görə bir daha minnətdarlığımı bildirir və bu müəssisənin açılışı münasibətilə sizi təbrik edirəm.

→ 4

COP29
Baku
Azerbaijan

# Azərbaycan kiçik ada dövlətlərinə birmənalı dəstəyini nümayiş etdirir

## Prezident İlham Əliyev COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitində iştirak edib

**Noyabrın 13-də Bakıda COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) sammiti keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Sammitin moderatoru, Millətlər Birliyi Təşkilatının (Commonwealth) Baş katibi **Patrisia Skotlend** tədbiri açaraq dedi:

- Zati-aliləri, hörmətli qonaqlar, xanımlar və cənablar, sizi salamlayıram.

İqlim dəyişmələrinin mənfi təsirinə xüsusən məruz qalan inkişaf etməkdə olan kiçik ada dövlətlərinə həsr olunmuş bu cür mühüm müzakirədə hamınızı salamlamaqdan məmnunam. Biz iqlim dəyişmələrinin ən kəskin təsiri ilə üzləşən ölkələrin rəhbərlərini eşitmək şərəfinə nail olacağıq.

Bugünkü tədbiri Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev ilə açmaqdan şərəf hissi duyuram. Cənab Prezident Azərbaycan iqtisadiyyatının tam və yaddaqalan transformasiyasına nail olub. Biz onun iqlim fəaliyyətində rolunun artmasının, daha güclü beynəlxalq tərəfdaşlığın qurulmasının, xüsusən də BMT, Qoşulmama Hərəkatı və Millətlər Birliyi kimi təşkilatlar vasitəsilə əməkdaşlığı gücləndirdiyinin şahidiyik. Həmin təşkilatlarda Azərbaycan dayanıqlı iqtisadi artım və müqavimət gücünü təşviq edib.

Cənab Prezident, sözü Sizə verirəm.

❖ ❖ ❖

Dövlətimizin başçısı sammitdə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Baş katib.

Hörmətli dövlət və hökumət başçıları.

Xanımlar və cənablar, əziz dostlar.

Mən sammitin bütün iştirakçılarını salamlayıram. Azərbaycan COP29-a ev sahibi olduqdan sonra inkişaf edən kiçik ada dövlətləri ilə münasibətlərimiz yeni, daha yüksək səviyyəyə qalxıb. Kiçik ada dövlətlərinin səsi qlobal arenada eşidilməlidir. Mən inkişaf etmiş bütün ölkələrə, xüsusən də müstəmləkə keçmişi olan ölkələrə müraciət edirəm ki, kiçik ada dövlətlərinə maddi və texniki dəstək göstərsinlər ki, onlar ölkələrini iqlim dəyişmələrinin fəsadlarından qoruya bilsinlər. İqlim dəyişmələri hər bir ölkəyə, o cümlədən Azərbaycana təsir göstərir. Görürük ki, Xəzər dənizi ilbəil daha da dayazlaşır. Görürük ki, çaylarımızda daha az su, dağlarımızda daha az qar var. Əfsuslar ki, keçmişdə heç vaxt görmədiyimiz daşqınlar və kəskin yağışlar bu gün reallıqdır. Bir sözlə, hər bir ölkə təsirə məruz qalır, lakin kiçik ada dövlətləri üçün bu ekzistensial təhlükədir.

Azərbaycan kiçik ada dövlətlərinə özünün birmənalı dəstəyini nümayiş etdirir. Biz fəlakət qarşısında zəif olan bir sıra ölkələrə qasırğa, zəlzələ və daşqınların təsirini azaltmaq üçün yardım göstərmişik. Biz həmçinin su təchizatı, qida təhlükəsizliyi və mədəni irsin bərpası layihələrinə dəstək vermişik. Ondan çox kiçik ada dövləti Azərbaycan universitetlərində təhsil almaq üçün tələbə təqaüdü proqramımızdan yararlanıb. Qoşulmama Hərəkatında dördillik sədrliyimiz dövründə biz 80-dən artıq ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərmişik.

Həmin ölkələrin üzləşdiyi çağırışların aradan qaldırılması COP29-da Azərbaycanın göstərdiyi səylərin əsasını təşkil edir. Bu ilin mayında COP-la bağlı planlarını müzakirə etmək üçün Baham adalarının, Tonqanın və Tuvalunun rəhbərləri Azərbaycana səfər etdilər. Qəbul olunmuş Bakı Kommünikesində COP29-da mənalı nəticələrin əldə olunmasına çağırış edilir və əlçatan iqlim maliyyəsinin vacibliyi qeyd olunur. Bu ilin sentyabrında İtki və Zərərə Cavab Fondunun fəaliyyətə başlaması ilə bağlı Bakıda ciddi irəliləyiş əldə olunmuşdur. Hazırda proses ehtiyac duyan ölkələrə, xüsusən də kiçik ada dövlətlərinə maliyyənin verilməsi üçün tamamlanmalıdır. Bu yay Azərbaycan Tonqada Millətlər Birliyi ilə Birgə Bəyannamə imzaladı.

Biz Millətlər Birliyinin kiçik ada dövlətlərindəki birgə layihələrini dəstəkləmək üçün 10 milyon ABŞ dolları məbləğində vəsait ayırırıq. Ətraf mühitin monitorinqi və qiymətləndirilməsi üçün Azərbaycanın Kosmos Agentliyi - "Azərkosmos"dan peyk məlumatlarından istifadə etmək üçün Millətlər Birliyi ilə anlaşma memorandumu imzalanmışdır.

Hörmətli xanımlar və cənablar, fürsətdən istifadə edərək, mən beynəlxalq gündəlikdə mühüm məsələlərdən birini də qaldırmaq istəyirəm - neokolonializm və iqlim dəyişmələri. Fransa və Niderlandın, xüsusən də Karib dənizi və Sakit okean regionundakı dırnaqarası dəniz əraziləri iqlim dəyişmələrinin




ən ciddi təsirinə məruz qalanlar sırasındadır. Artan dəniz səviyyəsi, kəskin hava şəraiti və biomüxtəlifliyin pozulması həmin regionlara ciddi təhlükə yaradır. Həmin icmaların səsi bir çox hallarda onların metropoliyalarındakı rejimləri tərəfindən susdurulur.

Yeni Kaledoniya, Fransa Polineziyası, Mayot, Vallis və Futuna, Korsika, Reunion, Qvadelupa, Martinika, Fransa Qvianası, Sen-Pyer və Mikelon, Sent-Mert və Sent Varfolomey kimi Fransa müstəmləkələrinin xalqları, eləcə də Niderlandın Aruba, Kurasao, Sent-Maarten, Boneyr, Sent Yefstaxiy və Saba kimi müstəmləkələrinin xalqları, - gəlin, həmin ərazidəki xalqları alqışlayaq, - bu gün XXI əsrdə də müstəmləkə hakimiyyətindən əziyyət çəkirlər. Hazırda Fransa Polineziyası və Yeni Kaledoniya 1946-1947-ci illərdə BMT tərəfindən qeyri-özünü idarə edən ərazilər kimi tanınır. Bununla belə, onların dekolonizasiya prosesi hələ də yubanır.

1966-1996-cı illər ərzində Fransa Polineziyası Fransanın apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitin ciddi pozulması ilə üzləşib. Fransa orada torpaq və suyun kəskin dərəcədə zəhərlənməsi və radiasiyasına görə məsuliyyət daşıyır. Radiasiya səviyyəsi 4900 faizi keçib. Əgər buna Fransanın Əlcəzairdə illər boyu işğalı zamanı həyata keçirdiyi 17 nüvə sınağını əlavə etsək, biz həmin ölkə tərəfindən planetin ekosisteminə hansı zərərin vurulduğunu görərik. Fransanın dırnaqarası dəniz ərazilərində törətdiyi cinayətlər siyahısı rejimin bu yaxınlarda insan hüquqları pozulmalarını qeyd etməsək, tam olmazdı. Prezident Makronun rejimi Yeni Kaledoniyada kanakların builki legitim etiraz aksiyasında 13 nəfərin həyatına son qoymuş, 169 nəfəri yaralamışdır. 1700 insan həbs edilmişdir. Həmçinin bu il Martinika və Qvadelupada etirazlar zamanı 38 nəfər həbs olunub. Bütün bunlarla yanaşı, Fransa nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də ki, Avropa Şurasının Parlament Assambleyası tərəfindən pislənildi. Bu, siyasi riyakarlıqdır. Siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat - Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası günahsız insanların qətlinə görə Prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşür. Fransadakı bütün siyası məhbuslar dərhal azad olunmalıdır.

Əgər Avropanın əsas diplomatı Cozep Borel Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! Əgər biz cəngəllikiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kiçik ada dövlətlərinə dəstək verib, COP29-un sədri kimi onları dəstəkləyəcək və gələcəkdə dostlarımızı dəstəkləməkdə davam edəcək.

Çox sağ olun.

❖ ❖ ❖

Sammitdə çıxış edən BMT-nin Baş katibi **Antonio Quterreş** inkişaf etməkdə olan kiçik ada dövlətlərinin böyük ədalətsizliklərlə üzləşdiyini, iqlim dəyişmələrinin, artan qiymətlərin, COVID-19 pandemiyasının bu ölkələrə ciddi ziyan vurduğunu, onların hökumətlərinin çətin vəziyyətdə olduqlarını vurğulayaraq deyib: "Siz - kiçik ada dövlətləri nümayiş etdirirsiniz ki, iqlim ambisiyaları özünü necə büruzə verir. Siz cavab tədbirlərini görən ilk tərəfsiniz. Dünya sizi dəstəkləməli, ilk növbədə temperatur artımının 1,5 dərəcədə saxlanılması üçün yorulmadan çalışmalıdır. Bu, o deməkdir ki, 2030-cu ilə qədər qlobal atılmalar illik əsasla 9 faiz azalacaq. Həmçinin ənənəvi yanacaqdan istifadə sürətlə və ədalətli şəkildə azalacaq, COP28-in nəticəsi təmin ediləcək. Bu, həmçinin o deməkdir ki, hər ölkə 1,5 dərəcəyə uyğun olması üçün COP30-a qədər yeni, iqtisadiyyatı əhatə edən milli iqlim fəaliyyəti planlarını və ya milli səviyyədə müəyyən edilmiş töhfələr sənədini təqdim edəcək".

COP29-da dünya səviyyəli maliyyə arxitekturasının yaradılması istiqamətində mühüm addımların atıldığını qeyd edən Baş katib bildirib: "İş burada və indi başlayır. Bizə inkişaf etməkdə olan ölkələrin ehtiyac duyduğu trilyonlarla dollarlıq vəsaitləri toplayan yeni iqlim maliyyə məqsədi lazımdır və imtiyazlı dövlət vəsaitlərində xeyli artım olmalıdır".

Bu sahədə uğur qazanmaq üçün fəaliyyətin daha da gücləndirilməsinin zəruriliyini qeyd edən Antonio Quterreş deyib: "Bu COP çərçivəsində və ondan sonrakı dövrdə sizi fəaliyyəti tələb etmək üçün öz səlahiyyətlərinizdən istifadə etməyə çağırıram. Ədaləti tələb edin. Çünki yubanmaq olmaz".

❖ ❖ ❖

Millətlər Birliyi təşkilatının (Commonwealth) Baş katibi **Patrisia Skotlend** iqlim maliyyələşməsi işində uğurlu rəhbərliyə görə Prezident İlham Əliyevə və Baş katib Antonio Quterreşə minnətdarlıq edərək deyib: "Mən fürsətdən istifadə edərək həm Prezident Əliyevə, həm də Baş katib Antonio Quterreşə bu işlərə sadiqliyə, güclü rəhbərliyə və hərtərəfli dəstəyə görə təşəkkürümü bildirmək istəyirəm. Ümid edirik ki, maliyyə ilə bağlı bu yanaşma sayəsində COP29-da real nəticələrə nail olacağıq. Gəlin, onlara təşəkkürümüzü bildirək".

Millətlər Birliyinin 56 üzvündən 25-nin inkişaf etməkdə olan ada dövləti olduğunu və onların çox gözəl potensialının mövcudluğunu qeyd edən Patrisia Skotlend vurğulayıb: "Onlar böyük çağırışlarla üzləşir. Onlar iqlim dəyişmələrinin intensivləşməsinə yüksək dərəcədə həssasdırlar. Bu, fiziki baxımdan daha az ərazi deməkdir. Bununla belə qlobal maliyyə qaydaları onların işini daha da çətinləşdirir. Bütün bunlar onların müqavimət gücünü zəiflədir. Bu səbəbdən kiçik ada dövlətlərinə verilən prioritet birlik proqramımızın əsasını və beynəlxalq sistemdə fəaliyyətimizin özəyini təşkil edir".

Patrisia Skotlend COP29 çərçivəsində kiçik ada dövlətləri ilə bağlı xüsusi tədbirin təşkilinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirərək deyib: "COP29-a sədrlik edən tərəfin elan etdiyi iqlim maliyyələşməsinə dair fondun yaradılması təşəbbüsü mənə böyük təəssürat bağışladı. Resursların açılmasını və paylanmasını təmin etmək üçün icra mexanizmlərinin işlənilməsinə dəstək verməyə hazırıq. Mən bu təklifi ona görə verirəm ki, üzv dövlətlərimiz təcili şəkildə iqlim maliyyəsi ilə bağlı vədlərə ehtiyac duyur. Onlar buna Yaşıl İqlim Fondu, İtki və Zərərlər Fondu xətti ilə nail ola bilər".

❖ ❖ ❖

Sonra COP29-un prezidenti Muxtar Babayev və inkişaf etməkdə olan kiçik ada dövlətlərinin nümayəndə heyətlərinin rəhbərləri çıxış etdilər.








COP29 Baku Azerbaijan

# Azərbaycan, Qazaxıstan və Özbəkistan münasibətlərinin tarixində əlamətdar hadisə

## Üç qardaş ölkə qarşılıqlı əməkdaşlığı yeni səviyyəyə qaldırır

**Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin üçtərəfli görüşü olub.**












AZƏRTAC xəbər verir ki, sonra Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın dövlət başçıları "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"i imzalayıblar.

Daha sonra prezidentlər çıxış ediblər.

Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

- Hörmətli Kasım-Jomart Kemeleviç.

Hörmətli Şavkat Miromonoviç.

Əziz dostlar.

Bu gün Azərbaycan, Qazaxıstan və Özbəkistan münasibətlərinin tarixində əlamətdar hadisədir. Üç qardaş ölkə bu gün öz əməkdaşlığını yeni səviyyəyə qaldırır. Sazişin imzalanması, deyərdim ki, tarixi hadisədir. Biz ölkələrimiz arasında qardaşlıq münasibətlərini daha da möhkəmləndiririk və "yaşıl enerji" sahəsində fəal əməkdaşlıq edəcəyik. Həmçinin deyərdim ki, imzaladığımız bugünkü saziş Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır. Mahiyyət etibarilə Mərkəzi Asiya və Qafqaz regionlarında inteqrasiya prosesləri, nəqliyyat, energetika, ticarətlə bağlı proseslər bu gün deməyə imkan verir ki, bu iki region bir çox məsələlərdə, o cümlədən "yaşıl enerji"nin inkişafı sahəsində sinxron fəaliyyət göstərir.

Biz Özbəkistanda, Qazaxıstanda və Azərbaycanda bərpaolunan enerji mənbələrinin yaradılması üzrə artıq əldə edilmiş böyük planlar və nəticələr haqqında bilirik. Yəni biz, belə demək mümkünsə, paralel kursla gedirik və Xəzərin dibi ilə elektrik kabelinin çəkilməsi təkcə üç ölkəmiz arasında deyil, həm də daha geniş miqyasda əməkdaşlıqdır.

Dünən konfransdakı çıxışımda Azərbaycandan Qara dənizin dibi ilə Avropaya kabel xətti çəkməsi ilə bağlı ölkəmizin artıq həyata keçirilməkdə olan planlarından danışdım. Bu layihənin texniki-iqtisadi əsaslandırılması tamamlanmaq üzrədir və bununla da biz Mərkəzi Asiyanı, Qafqazı, Avropanı, Xəzər və Qara dənizləri vahid enerji dəhlizi ilə birləşdirəcəyik. Xüsusilə sevindirici haldır ki, bu saziş hər zaman bir-birinə yaxın olan üç qardaş ölkə arasında imzalanır. Özbəkistanla münasibətlərimiz bu il müttəfiqlik münasibətləri səviyyəsinə çatıb, müvafiq saziş imzalanıb. Qazaxıstanla artıq uzun müddətdir ki, strateji tərəfdaş kimi əməkdaşlıq edirik. Qarabağın bərpasında bizə ilk yardım edən ölkələr Özbəkistan və Qazaxıstandır. Füzulidə Mirzə Uluqbəy adına məktəb, Kurmanqazı adına yaradıcılıq mərkəzi bu gün qardaşlığımızın bariz sübutudur. Əminəm ki, biz gələcəkdə də həmişə bir yerdə olacağıq və bir-birimizi dəstəkləyəcəyik. Əziz dostlarım, qardaşlarım Şavkat Miromonoviç, Kasım-Jomart Kemeleviç COP29-da iştirak etdiklərinə və öz iştirakları və dəyərli fikirləri, mesajları ilə tədbirimizi zənginləşdirdiklərinə görə minnətdaram.

Əziz dostlarıma bir daha təşəkkür etmək istəyirəm. Həmçinin bu gün burada iştirak edən əziz dostumuz, Səudiyyə Ərəbistanının nazirinə və Səudiyyə Ərəbistanından olan bütün dostlarımıza minnətdarlığımı ifadə edirəm. Dünən haqqında danışdığım "ACWA Power" şirkəti bizim yaxşı tərəfdaşımız, investorumuzdur və həm Azərbaycanda, həm də Mərkəzi Asiyada fəaliyyət göstərir. Ona görə də bu gün bu mərasimdən sonra əməkdaşlığımızı genişləndirən daha bir mərasim olacaq. Bu, Yaxın Şərqi, Mərkəzi Asiyanı, Xəzər regionunu, Qafqazı, Qara dənizi və Avropanı əhatə edir.

Beləliklə, mən bizim hamımızı təbrik edirəm və arzum budur ki, bu layihənin tezliklə həyata keçirilməsinin şahidi olaq. Sağ olun.

❖ ❖ ❖

Qazaxıstan Prezidenti **Kasım-Jomart Tokayev** dedi:

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli Şavkat Miromonoviç.

Xanımlar və cənablar.

Bu gün biz davamlı inkişaf üçün ümumi səylərimizin tarixində yeni səhifə açırıq. Strateji tərəfdaşlıq sazişinin imzalanması Mərkəzi Asiya və Cənubi Qafqaz regionlarının inkişafı üzrə üçtərəfli əməkdaşlıqda mühüm mərhələdir. Sənəd dövlətlərimizin enerji sistemlərinin inteqrasiyası, habelə ekoloji cəhətdən təmiz enerjinin Avropaya və digər bazarlara çatdırılması üzrə etibarlı dəhlizlərin yaradılmasında yeni imkanlar açır. Qazaxıstan böyük tranzit ərazi kimi burada son dərəcə mühüm rol oynayır. Bu sazişin praktiki nəticələri Orta dəhlizin iqtisadiyyatlarımızı birləşdirən "yaşıl körpü" qismində inkişafına töhfə verəcək. Bu əsas sahədə sıx əməkdaşlıq üç dövlət arasında təcrübə və qabaqcıl texnologiyalar mübadiləsini gücləndirəcək və enerji təhlükəsizliyimizin gələcəkdə də möhkəmləndirilməsinə kömək edəcək.

"Yaşıl enerji" karbon neytrallığına doğru irəliləyən Qazaxıstan üçün prioritet istiqamətdir. Biz qazıntı resurslarından asılılığımızı azaltmaq, texnoloji yenilikləri inkişaf etdirmək və ekoloji davamlılığımızı dəstəkləyə biləcək infrastruktur yaratmaq üçün fəal işləyirik. Qazaxıstan xarici tərəfdaşlarla ümumi gücü 43 giqavat olan "yaşıl layihə"lərin həyata keçirilməsinə dair razılaşmalar əldə edib.

Mən burada Səudiyyə Ərəbistanının energetika nazirini, eləcə də tanınmış "ACWA Power" şirkətinin nümayəndələrini salamlamaq istərdim. Əməkdaşlığınıza görə sizə minnətdarıq.

Əziz dostlar, bugünkü saziş ortaq məsuliyyət, qarşılıqlı etimad və strateji tərəfdaşlığın dərk edilməsinin dünyanı yaxşılığa doğru necə dəyişdirdiyinin parlaq nümunəsi olacaqdır.

Yekun olaraq, İlham Heydər oğluna və Şavkat Miromonoviçə, həmçinin danışıqlar prosesinin bütün iştirakçılarına bu gün nəticələrini müşahidə edə biləcəyimiz səmərəli işə görə səmimi təşəkkürümü bildirmək istəyirəm.

Planlarımızın həyata keçirilməsində hamımıza uğurlar arzulayıram, onlar mahiyyət etibarilə çox perspektivli, hətta deyərdim ki, ideallıdır. Qoy bu strateji tərəfdaşlıq gələcək nailiyyətlərin bünövrəsinə çevrilsin və regionun, bütövlükdə dünyanın davamlı inkişafı üçün yeni imkanlar açsın. Diqqətinizə görə təşəkkür edirəm.

❖ ❖ ❖

Özbəkistan Prezidenti **Şavkat Mirziyoyev** dedi:

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli Kasım-Jomart Kemeleviç.

Sizi salamlayıram. Əvvəlcə, Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Sammitinin uğurla keçirilməsi münasibətilə hörmətli İlham Heydər oğlunu bir daha təbrik etmək istərdim. Biz hamımız gördük ki, bu, Azərbaycanın nüfuzunun tanınmasıdır. Regionumuzda ilk dəfədir ki, belə möhtəşəm tədbir keçirilir və bu, Azərbaycanın qlobal miqyasda ən yüksək nüfuzunun bariz göstəricisidir. Bu gün biz Avropaya birlikdə yeni "yaşıl enerji" dəhlizi yaradırıq. Bu da tarixi hadisədir. Mən də fürsətdən istifadə edərək, çox işlər görən və görməyə çalışan Səudiyyə Ərəbistanının energetika nazirini təbrik etmək istəyirəm. Biz üç ölkə çox mehriban əməkdaşlıq edirik, Səudiyyə Ərəbistanı və "ACWA Power" şirkəti Özbəkistanda da çox iş görür. Mən çox minnətdaram ki, onlar bunu məmnuniyyətlə həyata keçirirlər və regionumuzda çox fəal iştirak edirlər.

Bərpaolunan enerji təkcə iqtisadi məqsəd deyil. Bu, bizim gələcəyə verdiyimiz töhfədir, gələcək nəsillər qarşısında məsuliyyət hissimizin nəticəsidir. Mən bu layihənin ekoloji əhəmiyyətini xüsusilə qeyd etmək istərdim. Nəql ediləcək enerji külək və Günəş enerjisidir, iqlimə təsiri azaltmağa kömək edəcək bərpaolunan və təmiz mənbədir. Bununla biz Paris Sazişi çərçivəsində iqlimin qorunması üzrə birgə səyləri və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmağı dəstəkləyirik. Ölkələrimiz əhəmiyyətli dərəcədə bərpaolunan enerji resurslarına malikdir və qlobal enerji keçidinə mühüm töhfə verə bilər. Özbəkistanda bu istiqamətdə genişmiqyaslı işlər aparılır, "yaşıl enerji"nin inkişafı üçün böyük proqram qəbul edilib. Biz 2030-cu ilədək bərpaolunan enerji mənbələrinin payını 40 faizə çatdırmağı, həmçinin 4,2 giqavatlıq enerjisaxlama sistemləri yaratmağı planlaşdırırıq. Bundan başqa, ilin sonunadək biz əlavə olaraq 2,6 giqavat bərpaolunan enerji və 300 meqavat enerjisaxlama sistemlərini şəbəkəyə birləşdirəcəyik. Hər il təxminən 2 giqavat Günəş və külək enerjisi istehsal etmək gücünü işə salırıq.

Hörmətli tədbir iştirakçıları, bu layihənin həyata keçirilməsinin iqtisadi səmərəsini dövlətlərimizin hamısı hiss edəcək. Minlərlə iş yeri açılacaq, enerji infrastrukturu inkişaf etdiriləcək, texnoloji və biznes əlaqələri genişlənəcək və bunun əsas nəticəsi olaraq əhalimizin həyat səviyyəsi yüksələcək. Bu layihənin icrasını sürətləndirmək üçün qarşımızda bir sıra mühüm vəzifələr durur. Bu, çox böyük və iddialı layihədir, biz bu iddialı layihənin həyata keçirilməsini sürətləndirmək üçün hər şeyi edəcəyik. Bu, birgə müəssisənin yaradılması, texniki-iqtisadi əsaslandırmanın hazırlanması, maliyyələşdirmə mənbələrinin və tender prosedurlarının razılaşdırılmasıdır. Biz, bütün iştirakçılar bu prosesləri mümkün qədər sürətləndirməliyik. Mən bu mühüm regional layihənin birgə həyata keçirilməsinə sadiqliyimizi bir daha təsdiqləmək istərdim.

❖ ❖ ❖

Daha sonra Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentlərinin iştirakı ilə Azərbaycan, Qazaxıstan, Özbəkistan, Səudiyyə Ərəbistanı Krallığı arasında "Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində əməkdaşlıq üzrə Azərbaycan Respublikasının, Qazaxıstan Respublikasının, Özbəkistan Respublikasının və Səudiyyə Ərəbistanı Krallığının Energetika nazirlikləri arasında İcra Proqramı"nın imzalanması mərasimi olub.

İmzalanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin və Səudiyyə Ərəbistanının energetika naziri şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun görüşü keçirilib.

COP29 Baku Azerbaijan

# Özbək qardaşlarımız yenə birincidirlər

## Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə görüşündə Xankəndidə tikiş fabrikinin videobağlantı vasitəsilə açılışı olub











**Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Şavkat Mirziyoyev COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdıraraq, bu tədbirin çox yüksək səviyyədə təşkil olunduğunu vurğuladı. Qeyd etdi ki, Özbəkistan Azərbaycana dost, qardaş və müttəfiq ölkə olaraq buna sevinir. Ali qonaq dedi ki, Özbəkistanda Azərbaycana xüsusi münasibət var.

İkitərəfli münasibətlərimizin inkişafında tarixi bir dövrün olduğunu vurğulayan Özbəkistan Prezidenti ölkələrimiz arasında bu il imzalanan müttəfiqlik münasibətləri haqqında müqaviləni qeyd etdi. Şavkat Mirziyoyev nümayəndə heyətlərimizin yaxından işlədiyini, qarşıya qoyulan layihələrin uğurla icra edildiyini dedi.

Prezident İlham Əliyev ölkəmizə səfərə gələrək COP29-da iştirak etdiyinə görə Özbəkistan dövlətinin başçısına təşəkkürünü bildirdi.

İmzalanan sənədlərin önəminə toxunan Azərbaycan Prezidenti dedi ki, "yaşıl enerji"nin inkişafı və ötürülməsi layihələrinin həyata keçirilməsi əlaqələrimizin mahiyyətini göstərir.

Dövlətimizin başçısı Xankəndi şəhərində tikiş fabrikinin inşası ilə bağlı layihəyə görə minnətdarlığını bildirdi və burada xeyli sayda insanın işlə təmin olunacağının önəmini vurğuladı.

Söhbət zamanı Bakıda Özbəkistan Evi, Özbəkistanda isə Azərbaycan Evi layihələrinin icrasından məmnunluq bildirildi, ölkəmizin Özbəkistanda ticarət nümayəndəliyinin açılması, təhsil, maşınqayırma, inşaat, mədən, əczaçılıq, pambıqçılıq, turizm sahələrində layihələrlə bağlı fikir mübadiləsi aparıldı.

Sonra Azərbaycan və Özbəkistan prezidentlərinin iştirakı ilə Xankəndi şəhərində tikiş fabrikinin videobağlantı vasitəsilə açılış mərasimi oldu.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Prezident Şavkat Mirziyoyev:** Təbrik edirəm. Uğurlu başlanğıcdır.

**Prezident İlham Əliyev:** Burada həm Azərbaycan dilində, həm də özbək dilində yazılıb. Sözlər eynidir.

Bu fabrik birliyimizin daha bir rəmzidir. Mən qardaşım Şavkat Miromonoviçə minnətdarlığımı bildirirəm ki, bizim özbək dostlarımız qısa müddətdə Xankəndidə minlərlə insanın çalışacağı və təbii ki, mütləq əksəriyyəti qadınlardan ibarət gözəl müəssisənin yaradılmasına kömək göstərdilər. Bu, məşğulluqdur, bu, istehsaldır, bu, Qarabağın inkişafıdır. Özbək qardaşlarımız isə yenə burada birincidirlər. Füzulidə məktəb tikməkdə bizə ilk yardımçı oldular, işğaldan azad edilmiş ərazilərdə belə böyük bir müəssisə yaratmaqda bizə ilk köməyi göstərdilər.

Mən Şavkat Miromonoviçə, bütün özbək dostlarımıza və qardaşlarımıza belə qardaşlıq münasibətinə görə bir daha minnətdarlığımı bildirir və bu müəssisənin açılışı münasibətilə sizi təbrik edirəm.

❖ ❖ ❖

Qeyd edək ki, bu tikiş fabrikinin inşası Azərbaycan və Özbəkistan arasında iqtisadi və investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair iki ölkə prezidentlərinin tapşırıqlarına əsasən həyata keçirilib. Layihənin ümumi investisiya dəyəri 11 milyon manat təşkil edir. Fabrikin xammal tədarükü üçün birgə sənaye əməkdaşlığı həyata keçirilir. Müəssisə həm yerli, həm də Özbəkistan xammalı əsasında fəaliyyət göstərəcək. Regionda qeyri-neft ixracının artımına əhəmiyyətli töhfə verəcək fabrikdə istehsal olunacaq məhsulların 80 faizi müxtəlif ölkələrə ixrac ediləcək. Ərazisi 1,2 hektar olan fabrikdə ildə 3-5 milyon ədəd müxtəlif trikotaj məhsulları istehsal ediləcək. Ümumilikdə burada 800 iş yeri yaradılacaq. Layihənin ilkin mərhələsi üzrə peşəkar təlim almış 250 nəfər hazırda işlə təmin olunub. Müəssisədə əsasən işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşların məşğulluğuna xüsusi diqqət yetirilib. Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan tikiş fabriki iki ölkə arasında uğurlu əməkdaşlığın rəmzi olaraq ölkəmizdə yüngül sənayenin inkişafı üçün yeni imkanlar açır və ənənəvi dostluq, iqtisadi tərəfdaşlıq əlaqələrimizi möhkəmləndirir.

# Məhəmməd Şahbaz Şərif qardaş Azərbaycanda belə bir tədbirin keçirilməsinə görə çox sevinir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Məhəmməd Şahbaz Şərif Pakistan Prezidenti Asif Əli Zərdarinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Pakistan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

COP29-un yüksək səviyyədə təşkil olunması münasibətilə dövlətimizin başçısını təbrik edən Məhəmməd Şahbaz Şərif vurğuladı ki, qardaş Azərbaycanda belə bir tədbirin keçirilməsinə görə çox seviniblər. Pakistanın Baş naziri Azərbaycan Prezidentinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Liderlər Sammitinin açılış mərasimində çox məzmunlu çıxış etdiyini dedi.

Prezident İlham Əliyev Pakistanın Baş nazirinə COP29-da iştirak etdiyinə görə minnətdarlığını bildirdi və özünün Pakistana səfərini məmnunluqla xatırladı.

Söhbət zamanı dövlətimizin başçısının Pakistana səfəri zamanı aparılmış müzakirələrin və imzalanmış sənədlərin ikitərəfli əlaqələrimizin inkişafı baxımından əhəmiyyəti qeyd olundu, ölkələrimiz arasında sərmayələr, iqtisadiyyat, ticarət və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu. Nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin intensivləşməsi məmnunluqla qeyd edildi. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızdan məmnunluq ifadə olundu. Eyni zamanda Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli əməkdaşlığı çərçivəsində əlaqələrimizin əhəmiyyəti vurğulandı.

# İkitərəfli münasibətlərin müxtəlif aspektlərinə dair fikir mübadiləsi aparılıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də İran İslam Respublikasının vitse-prezidenti, İranın Ətraf Mühitin Mühafizəsi Təşkilatının sədri xanım Şina Ənsari ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, COP29-un ölkəmizdə keçirilməsi münasibətilə Azərbaycan Prezidentini təbrik edən Şina Ənsari İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Məsud Pezeşkianın prezident seçilməsindən sonra onunla telefon danışığını məmnunluqla xatırlayan dövlətimizin başçısı vurğuladı ki, Məsud Pezeşkianın dövlət başçısı seçilməsindən sonra Azərbaycan hökumətinin müxtəlif səviyyəli nümayəndə heyətləri İrana səfər ediblər.

İran ilə Azərbaycan arasında çox yaxşı münasibətlərin olduğunu deyən Şina Ənsari əlaqələrimizin tarixi xarakter daşıdığını vurğuladı.

Söhbət zamanı Araz çayı üzərində birgə layihələr, su-elektrik stansiyasının tikintisi və ətraf mühit sahəsində əməkdaşlığımız qeyd olundu, hökumətlərarası komissiyanın fəaliyyətinin önəmi vurğulandı.

"Şimal-Cənub" nəqliyyat dəhlizinə toxunuldu, bu xüsusda Azərbaycan, Rusiya və İran arasında birgə əməkdaşlıq qeyd edildi. Görüşdə Xəzər dənizinin ekoloji problemlərinin aradan qaldırılması və Xəzərdə hazırda suyun səviyyəsinin azalması probleminə toxunuldu, bu baxımdan sərhədyanı ölkələr arasında əməkdaşlığın vacibliyi vurğulandı.

Prezident İlham Əliyev Ermənistanın dağ-mədən sənayesinin tullantılarının Araz çayına axıdılması və bunun çayın ekoloji durumuna mənfi təsir etməsindən narahatlığını ifadə etdi.

Söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif aspektlərinə dair fikir mübadiləsi aparıldı.

COP29 Baku Azerbaijan

# Rusiya COP29-da yüksək səviyyədə təmsil olunub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Rusiya Federasiyası Hökumətinin Sədri Mixail Mişustin ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Rusiya Hökumətinin Sədrini salamlayan Prezident **İlham Əliyev** dedi:

- Sizi görməyimə şadam. Vaxt tapıb gəldiyiniz üçün sağ olun. Çox şadam ki, Rusiya bu konfransda yüksək səviyyədə təmsil olunub. Əminəm ki, Sizin müzakirələrdə şəxsən iştirakınız ona xüsusi əhəmiyyət verəcək.

Həmçinin konfransın Bakıda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsi ərəfəsində və COP29-a hazırlıq prosesində Azərbaycana göstərilən dəstəyə görə Rusiya Federasiyasına minnətdarlığımı bildirmək istərdim. Bizim üçün bu, təbii ki, müstəsna hadisədir. Azərbaycanda heç vaxt belə miqyasda tədbirlər keçirilməyib. Biz şadıq ki, dost ölkələr bu tədbirdə fəal iştirak edir və yüksək səviyyədə təmsil olunurlar.

Əlbəttə, həmişə olduğu kimi, ikitərəfli gündəliyi bir daha nəzərdən keçirmək üçün yaxşı fürsətdir. Son vaxtlar Vladimir Vladimiroviç ilə tez-tez görüşürük, amma bununla belə, münasibətlərimizin gündəliyi o qədər genişdir ki, sanki görülən bütün işləri mütəmadi olaraq yoxlamağa və gələcək inkişaf istiqamətlərini müəyyən etməyə ehtiyac var.

Beləliklə, bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

Rusiya Federasiyası Hökumətinin Sədri **Mixail Mişustin** dedi:

- Hörmətli İlham Heydər oğlu, sağ olun.

Bütün tədbirlərin, xüsusən belə genişmiqyaslı, yəqin ki, Birləşmiş Millətlər Təşkilatının iqlim məsələlərinə həsr olunmuş ən böyük konfransının təşkilinə görə Sizə təşəkkür etmək istəyirəm. Burada hamı ən yüksək təşkilatçılıq səviyyəsini qeyd edir.

Həmçinin bildirmək istəyirəm ki, Vladimir Vladimiroviç Putin mənim uçuşumdan əvvəl şəxsən Sizə çoxlu, ən səmimi arzularını çatdırdı və xahiş etdi ki, hazırkı tədbirin uğurla keçməsi münasibətilə Sizi təbrik edim. Artıq hamı bunu qeyd edir.

Ümumiyyətlə, belə bir konfrans ilk dəfədir Cənubi Qafqazda keçirilir və bu, bildiyimə görə, gündəliyin təşkili üçün çox iş görmüş Azərbaycanın müstəsna rolunu vurğulayır. Gündəlik mürəkkəbdir. Hər kəs müzakirələrin yüksək səviyyəsini, həmçinin hazırkı konfransın tarazlaşdırılmış, o cümlədən nəticələr verən sənədini qeyd edir.

İkitərəfli gündəliyimizə gəldikdə, Siz bu barədə danışdınız. Birgə əmtəə dövriyyəsi artır. Biz ikitərəfli gündəliyimizin bütün istiqamətləri üzrə əməkdaşlıq edirik. Bunlar həm sənaye, energetika, həm kənd təsərrüfatı, həm də mədəni-humanitar, rəqəmsallaşma sahələridir. Biz Əli Hidayət oğlu ilə - hökumətdəki həmkarlarımızla bu gün bütün gündəlik üzrə iş apardıq.

Qonaqpərvərliyə görə Sizə bir daha çox təşəkkür edirəm.

Prezident **İlham Əliyev:** Sağ olun. Mənim də ən xoş arzularımı və salamlarımı Vladimir Vladimiroviçə çatdırın.

**Mixail Mişustin:** Sağ olun.

Prezident **İlham Əliyev:** Təşəkkür edirəm.

# Azərbaycanla Çin arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Çin Xalq Respublikası Baş nazirinin müavini Din Süesən ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Din Süesən Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi.

Qonaq qeyd etdi ki, COP29-da dövlətimizin başçısının çıxışı çox dolğun və məzmunlu idi. COP29-un yüksək səviyyədə təşkil edildiyini və bundan məmnun olduqlarını deyən Çin Xalq Respublikası Baş nazirinin müavini dedi ki, bu, bir daha onu göstərir ki, dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın çox yüksək təşkilatçılıq potensialı var. Prezident İlham Əliyev tərəfindən verilmiş tapşırıqların yüksək səviyyədə yerinə yetirildiyini vurğulayan Din Süesən qısa müddət ərzində Azərbaycanın belə miqyasda iş həyata keçirdiyini vurğuladı.

Çin Xalq Respublikası Baş nazirinin müavini bildirdi ki, Azərbaycanla Çin arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır və "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin qəbulu əməkdaşlığımızı keyfiyyətcə yeni səviyyəyə qaldırıb.

Dövlətimizin başçısı da iki ölkə arasındakı münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyərək bununla da əlaqələrimizin məzmunca daha da zənginləşdiyini vurğuladı.

Söhbət zamanı COP-un hazırlığı prosesində Azərbaycanın Çinin BYD şirkəti ilə əməkdaşlığı, bu şirkətin elektrik avtobuslarının ölkəmizə idxalı qeyd edildi, COP çərçivəsində hazırda onlardan istifadə olunduğu bildirildi. BYD şirkətinin elektrik nəqliyyat vasitələrinin Azərbaycanda istehsalı ilə əlaqədar razılığın əldə olunduğu diqqətə çatdırıldı.

Ölkələrimizin çoxtərəfli diplomatiyaya və xalqlararası dialoqa böyük önəm verdiyi vurğulandı.

"Bir kəmər, bir yol" layihəsi çərçivəsində əməkdaşlığa toxunuldu, Azərbaycanın bu layihəni dəstəklədiyi bildirildi və son dövrlərdə yükdaşımalarda artım müsbət amil kimi qeyd olundu. Azərbaycanın nəqliyyat infrastrukturunun və Bakı limanının potensialının artırılmasının gələcək yükdaşımalar üçün daha geniş imkanlar yaratdığı bildirildi.

Çinlə Azərbaycan arasında mədəni-humanitar əlaqələrin inkişafından, yüksəksəviyyəli qarşılıqlı səfərlərin intensivliyindən və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızdan məmnunluq ifadə olundu.

# Əməkdaşlığın müxtəlif sahələrinə dair fikir mübadiləsi aparılıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Yunanıstan Respublikasının Baş naziri Kiriakos Mitsotakis ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Yunanıstanın Baş naziri COP29-un qısa müddət ərzində yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı. Beynəlxalq təşkilatlar çərçivəsində əlaqələr, mədəniyyət və turizm sahələrində əməkdaşlıq, Bakı ilə Afina arasında birbaşa uçuşların təşkili məsələləri qeyd edildi.



# Beynəlxalq Valyuta Fondu ilə sıx əməkdaşlığın davam etdirilməsi önəmlidir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Beynəlxalq Valyuta Fondunun (BVF) sərəncamçı direktoru Kristalina Georgiyeva ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev COP29-da iştirakına görə Kristalina Georgiyevaya minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı Azərbaycan ilə BVF arasında əməkdaşlığın səviyyəsindən razılığını ifadə etdi, əməkdaşlığımızın böyük hissəsinin iqtisadi və maliyyə siyasəti üzrə məsləhətləşmələrdən ibarət olduğunu vurğuladı.

Beynəlxalq Valyuta Fondu ilə sıx əməkdaşlığın davam etdirilməsinin önəmini bildirən dövlətimizin başçısı xüsusən də Azərbaycanın COP29-a sədrliyi dövründə inkişaf etməkdə olan ölkələrə əlavə maliyyə təminatı üçün fəal şəkildə iş aparılacağını dedi.

COP29-a dəvətə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Kristalina Georgiyeva bu tədbirin Azərbaycanda ən yüksək səviyyədə təşkil edilməsi ilə bağlı təbriklərini çatdırdı və onun uğurla başa çatacağına əminliyini bildirdi.

Kristalina Georgiyeva Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında maliyyə sahəsində əməkdaşlığın genişləndirilməsi üçün əlavə potensialın olduğunu qeyd etdi və ölkəmizi BVF vasitəsilə inkişaf etməkdə olan ölkələrə iqlim çağırışları ilə bağlı yardım proqramlarında iştiraka dəvət etdi.

Prezident İlham Əliyev bu istiqamətdə BVF ilə əməkdaşlıq təklifini müsbət qiymətləndirdi, qısa zamanda bunun üçün Azərbaycan tərəfindən zəruri addımların atılacağını dedi. Söhbət zamanı ölkəmizlə BVF arasında əməkdaşlığa dair fikir mübadiləsi aparıldı, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

# Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığımızda çox mühüm bir səhifə açılır

**Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) prezidenti Odil Reno-Basso ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Prezident İlham Əliyev və Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Odil Reno-Bassonun iştirakı ilə "Gəncə şəhərində su təchizatı və kanalizasiya sistemlərinin, yağış sularının idarəetmə sisteminin yenidən qurulması və tullantı sularının təmizlənməsi qurğusunun tikintisi üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Anlaşma Memorandumu"nun imzalanması mərasimi oldu.

Görüşdə dövlətimizin başçısı imzalanan memorandumun əhəmiyyətinə toxundu, bununla da əməkdaşlığımızın gündəliyində çox mühüm bir səhifənin açıldığını dedi və bu sənədin imzalanmasını əməkdaşlığımızda növbəti önəmli mərhələ kimi dəyərləndirdi.

Prezident İlham Əliyev Odil Reno-Bassonun COP29-da iştirakına görə təşəkkürünü bildirdi. Tədbirin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı burada artıq çox səmərəli nəticələrin əldə olunduğunu qeyd etdi.



Qonaqpərvərliyə və yüksək təşkilatçılığa görə minnətdarlığını bildirən Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti COP29-un çox əhəmiyyətli bir tədbir olduğunu dedi. Qonaq imzalanan sənədi əməkdaşlığımızda önəmli hadisə kimi qiymətləndirdi.

Söhbət zamanı Azərbaycanla Avropa Yenidənqurma və İnkişaf Bankı arasında perspektiv layihələr və əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.




COP29 Baku Azerbaijan

# Azərbaycan və Bolqarıstan prezidentlərinin iştirakı ilə "SOCAR və "Asarel Energy" arasında Birgə İnkişaf Sazişi" imzalanıb





**Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan və Bolqarıstan prezidentlərinin iştirakı ilə "SOCAR və "Asarel Energy" arasında Birgə İnkişaf Sazişi" imzalanıb.

Görüşdə Prezident İlham Əliyev imzalanan sənədin əhəmiyyətini vurğuladı, bunun əməkdaşlığımızın möhkəmlənməsi işinə verdiyi töhfəyə toxundu.

Dövlətimizin başçısı COP29-da iştirak etdiyinə görə Bolqarıstan Prezidentinə minnətdarlığını bildirdi. Azərbaycan Prezidenti bu tədbirin artıq səmərəli nəticələr verdiyini deyərək vurğuladı ki, Paris Sazişinin karbon ticarəti üzrə 6-cı maddəsi ilə bağlı 10 ildən




çoxdur müzakirələrin aparılmasına və indiyədək irəliləyişlərin əldə edilməməsinə baxmayaraq, məhz COP29-da bununla əlaqədar müvafiq irəliləyişlərə nail olunub.

COP29-un əhəmiyyətinə toxunan Bolqarıstan Prezidenti bu tədbirin mükəmməl səviyyədə təşkil olunduğunu vurğuladı. Qeyd etdi ki, burada əldə edilən nəticələr gələcək üçün böyük əhəmiyyət daşıyacaq.

Rumen Radev ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini məmnunluqla vurğuladı.

Görüşdə bərpaolunan enerji sahəsində yeni əməkdaşlıq layihələri müzakirə olundu, COP29 çərçivəsində beynəlxalq maliyyə və bank təşkilatlarının yeni maliyyə hədəfi ilə bağlı verdiyi açıqlamaların ciddi ümidlər vəd etdiyi bildirildi.

# Azərbaycan Afrika ölkələri ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Toqo Respublikasının Prezidenti For Essozimna Qna ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı COP29 tədbirində iştirak etdiyi üçün Toqo Prezidentinə təşəkkürünü bildirdi.

For Essozimna Qna COP29-a dəvətə görə minnətdarlığını ifadə edərək bu tədbirin çox yüksək səviyyədə təşkil olunduğunu vurğuladı.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Afrika ölkələri, o cümlədən Toqo ilə münasibətlərə böyük əhəmiyyət verir.

Söhbət zamanı ikitərəfli əməkdaşlıq məsələlərinə toxunuldu, təhsil, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.



# Azərbaycan Prezidenti İlham Əliyev Qabonun vitse-prezidenti ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Qabon Respublikasının vitse-prezidenti Cozef Ovondault Berre ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Qabonun vitse-prezidenti COP29-a dəvətə görə dövlətimizin başçısına təşəkkür etdi, bu tədbirin ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan Afrika ölkələri ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verir.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi üçün nümayəndə heyətlərinin səfərləri məsələsinə toxunuldu.



# Konqo Prezidenti İlham Əliyevi ölkəsinə rəsmi səfərə dəvət etdi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, COP29-un yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əliyevi təbrik edən Deni Sassu-Nqesso ölkəmizə rəsmi səfərini məmnunluqla xatırladı.

Ali qonaq Azərbaycan Prezidentini ölkəsinə rəsmi səfərə dəvət etdi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrə dair fikir mübadiləsi aparıldı. Azərbaycanın müxtəlif nazirliklərinin ekspertlərindən ibarət nümayəndə heyətinin tezliklə Konqoya səfərinin təşkil edilməsi, iqtisadiyyat, ticarət, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıq imkanlarına baxılması məsələsi qeyd olundu. Konqodan olan tələbələrin ölkəmizdə təhsil almalarına yaradılan şəraitə görə minnətdarlıq ifadə edildi. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu.

Dövlətimizin başçısı COP29-da substantiv məsələlər üzrə də yaxşı nəticələrin əldə olunduğunu qeyd etdi. Bununla belə, prosesin bundan sonra da, yəni tədbirin sonuna qədər davam etdiriləcəyi vurğulandı. Bu xüsusda Paris Sazişinin 6-cı bəndi üzrə əldə edilmiş ilkin razılaşmalar müsbət qiymətləndirildi. Həmçinin İtki və Zərərə Cavab Fondunun fəaliyyətə başlaması və ona əlavə maliyyə töhfələrinin verilməsi məsələsinə toxunuldu. Görüşdə beynəlxalq maliyyə və bank təsisatları tərəfindən yeni maliyyə hədəfi ilə əlaqədar bəyan edilən mövqenin bu istiqamətdə müsbət addım olduğu qeyd edildi.

# Ruanda Prezidenti Azərbaycanla əməkdaşlığı daha da gücləndirmək niyyətindədir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Ruanda Respublikasının Prezidenti Pol Kaqame ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, COP29-a dəvətə, bu tədbirin yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə təşəkkürünü bildirən Ruanda Prezidenti qeyd etdi ki, dövlətimizin başçısının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Liderlər Sammitinin açılış mərasimində çıxışı çox dolğun və məzmunlu idi.

Prezident İlham Əliyev dəvəti qəbul edib COP29 tədbirində iştirakına görə Pol Kaqameyə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, COP sədrliyini öz üzərinə götürəndən etibarən Azərbaycana qarşı haqsız və ədalətsiz hücumlar olmuş, beynəlxalq mediada müxtəlif kampaniyalar təşkil edilmişdir ki, bunlar da qəbuledilməzdir. Azərbaycan Prezidenti dedi ki, belə təəssürat yaradılır ki, sanki dünyanı çirkləndirən inkişaf etməkdə olan dövlətlərdir.

Ruanda Prezidenti "Commonwealth" təşkilatı çərçivəsində də Azərbaycanla əməkdaşlıq məsələlərini qeyd etdi.

Dövlətimizin başçısı "Commonwealth" xətti ilə ölkəmizin kiçik ada dövlətlərinə maliyyə yardımı göstərdiyini və Azərbaycanın peyk imkanlarından istifadə edərək həmin ölkələrin iqlim dəyişikliyi nəticəsində qarşılaşdıqları məsələlərlə bağlı məlumat bazasının hazırlanacağını da bildirdi, Azərbaycanın praktiki baxımdan faydalı əməkdaşlığı daim dəstəklədiyini dedi.

Görüşdə Azərbaycanla Ruanda arasında ikitərəfli münasibətlər müzakirə olundu.

Ruanda Prezidenti Azərbaycanın "ASAN xidmət" təcrübəsinin çox maraqla qarşılandığını qeyd etdi. Bu təcrübənin Ruandada da tətbiq olunması istiqamətində birgə əməkdaşlıq məsələləri müzakirə olundu.

ASAN və DOST xidmətləri haqqında məlumat verən dövlətimizin başçısı burada göstərilən xidmətlərin keyfiyyətinin vətəndaşlar tərəfindən maksimum şəkildə müsbət qarşılandığını bildirdi.

Görüşdə iqtisadi-ticari əlaqələr, sərmayələr sahəsində əməkdaşlıq, insanlararası təmasların daha da genişləndirilməsi məsələləri müzakirə olundu, birgə işçi qrupunun yaradılması razılaşdırıldı.

Ruanda Prezidenti qeyd etdi ki, Azərbaycanla əməkdaşlığı daha da gücləndirmək niyyətindədir.

Pol Kaqame Prezident İlham Əliyevi ölkəsinə rəsmi səfərə dəvət etdi. Dövlətimizin başçısı da öz növbəsində Ruanda Prezidentini Azərbaycana rəsmi səfərə dəvət etdi.

COP29 Baku Azerbaijan

# Azərbaycan ilə Rusiya arasında qarşılıqlı ticarət dövriyyəsində yeni rekord həcm proqnozlaşdırılır

**Noyabrın 13-də Bakıda Azərbaycanın Baş naziri Əli Əsədov ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Hökumətinin Sədri Mixail Mişustinlə görüşüb.**





AZƏRTAC xəbər verir ki, görüşdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) əhəmiyyəti qeyd edilib, konfransın iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq səylərə mühüm töhfə verəcəyinə əminlik ifadə olunub.

Tərəflər iki ölkə prezidentlərinin birgə səyləri və sıx təmasları sayəsində Azərbaycan-Rusiya strateji tərəfdaşlığının inkişafının yüksək dinamikasının qorunub saxlanıldığını qeyd ediblər. Rusiya Prezidenti Vladimir Putinin cari ilin avqustunda Azərbaycana dövlət səfəri zamanı, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının iclasında və BRICS Sammitində iştirakı çərçivəsində oktyabrda Moskva və Kazanda ali səviyyədə dialoqun davam etdirilməsinin ikitərəfli münasibətlərə yaxşı təkan verdiyini vurğulayıblar.

Qeyd edilib ki, belə sıx təmaslar prezidentlərə öz tapşırıqlarının icrasını nəzarətdə saxlamağa, həmçinin əməkdaşlığın yeni istiqamətlərini müəyyən etməyə imkan verir. Bu baxımdan dövlət başçılarının tapşırıqlarının icrası üzrə hökumət xətti ilə sıx işin davam etdirilməsinə qarşılıqlı hazırlıq ifadə olunub. Tərəflər ticarət-iqtisadi əməkdaşlığın ardıcıl inkişafından məmnunluqlarını bildiriblər. Cari ildə 9 ay ərzində 3,5 milyard dollar təşkil edən ticarət dövriyyəsinin artım dinamikasını nəzərə alaraq, ilin yekunlarına görə qarşılıqlı ticarətin yeni rekord həcmi proqnozlaşdırılıb.

Nəqliyyat-tranzit sahəsi əməkdaşlığın əsas istiqamətlərindən biri kimi qiymətləndirilib. İkitərəfli yükdaşımalarının sabit artımı qeyd edilib. Tərəflər "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinə xüsusi diqqət ayırıb, dəhlizin infrastrukturunun inkişafı üzrə səylərin artırılmasını alqışlayıblar.

Hökumət başçıları ikitərəfli layihələrin geniş siyahısını əhatə edən sənaye əməkdaşlığının səviyyəsini yüksək qiymətləndiriblər. Tərəflərin bir sıra yeni qarşılıqlı faydalı təşəbbüsləri nəzərdən keçirdiyi vurğulanıb. Aqrar-sənaye kompleksində əməkdaşlığın inkişaf tempindən məmnunluq ifadə olunub. Azərbaycan kənd təsərrüfatı məhsullarının, o cümlədən meyvə-tərəvəzin Rusiyaya tədarükünün davamlı artımı qeyd edilib. Həmçinin Rusiyanın Azərbaycanın buğda və gübrə tədarükü üzrə etibarlı tərəfdaşı kimi rolu vurğulanıb.

Tərəflər Azərbaycan və Rusiyanın iqlim gündəliyinə, xüsusilə Xəzər dənizinin dayazlaşması probleminə böyük diqqət yetirdiyini alqışlayıblar. Prezidentlərin tapşırığı ilə ikitərəfli işçi qrupu yaradılıb və onun qarşısında dəniz səviyyəsinin azalmasına təsir edən səbəbləri araşdırmaq və sonrakı dayazlaşmaya şərait yaradan amillərin yumşaldılması üzrə tədbirlər hazırlamaq vəzifəsi qoyulub.

Hökumət başçıları humanitar qarşılıqlı fəaliyyətin və regionlararası əməkdaşlığın ənənəvi yüksək səviyyəsindən məmnunluqlarını bildirib, mədəni, elm, gənclər mübadiləsinin, həmçinin qarşılıqlı turist axınının artmasını alqışlayıblar.

Əli Əsədov və Mixail Mişustin qarşılıqlı faydalı əməkdaşlığın daha da artırılması perspektivlərini müzakirə edib, ikitərəfli gündəliyin bütün spektri üzrə konstruktiv işin davam etdirilməsinə hazır olduqlarını təsdiqləyiblər.

# Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev Tokionun qubernatorunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb

**Noyabrın 13-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, COP29 üzrə Təşkilat Komitəsinin sədri Samir Nuriyev tədbirdə iştirak edən Tokionun qubernatoru Yuriko Koikenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasındakı münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə olunub və münasibətlərin daha da inkişaf etdirilməsi üçün geniş potensialın mövcud olduğu bildirilib.

Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə COP29-a hazırlıq işlərinin müvəffəqiyyətlə həyata keçirildiyi, sədrliyimiz çərçivəsində iqlim gündəliyi üzrə bütün tərəflər arasında konsensusa nail olunması istiqamətində nəticəyönümlü səylər göstərildiyi vurğulanıb.

Öz növbəsində Y.Koike COP29-un uğurla təşkil edilməsi münasibətilə təbriklərini çatdırıb və COP29 sədrliyində ölkəmizə uğurlar arzulayıb.

Görüşdə həmçinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri barədə məlumat verilib, dövlətimizin başçısı tərəfindən "yaşıl enerji" zonası elan edilmiş bu ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının tətbiq olunduğu vurğulanıb, Yaponiya ilə bu xüsusda əməkdaşlıq imkanları müzakirə edilib.

Söhbət zamanı Bakı və Tokio şəhərləri arasında əlaqələrin genişləndirilməsi perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda Yuriko Koikenə "Qarabağ işğaldan əvvəl və sonra" kitabı təqdim edilib.



# Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlıq memorandumu imzalanıb

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çin Kommunist Partiyasının (ÇKP) dəvəti ilə Çin Xalq Respublikasında səfərdədir.**

Səfər çərçivəsində noyabrın 13-də YAP nümayəndə heyəti ilə ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Cyançao arasında görüş keçirilib.

Nümayəndə heyətini salamlayan və ölkəsində görməkdən məmnunluğunu ifadə edən Lyu Cyançao Azərbaycan-Çin münasibətlərinin yüksələn xətt üzrə inkişafının təqdirəlayiq olduğunu vurğulayıb. Bir-birinin maraqlarına hörmət edən, ərazi bütövlüyü və suverenliyini dəstəkləyən iki ölkə arasında əlaqələrin siyasi, iqtisadi, mədəni, humanitar, nəqliyyyat-logistika və digər sahələri əhatə etməklə çoxşaxəli xarakter daşıdığını bildirən L.Cyançao Çinin Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu diqqətə çatdırıb.

2024-cü ilin iyul ayında Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpinin görüşünə diqqəti cəlb edən L.Cyançao iki dövlət arasında strateji tərəfdaşlığın qurulması haqqında birgə bəyannamənin imzalanmasının işbirliyinin dərinləşdirilməsi baxımından önəmini qeyd edib. O, Azərbaycan ilə Çin arasında qlobal arenada, xüsusilə də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın hər iki ölkənin maraqlarının qorunması üçün müstəsna əhəmiyyət daşıdığını bildirib. L.Cyançao Çinin Azərbaycanın müxtəlif platformalarda, o cümlədən BRICS çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığı inkişaf etdirməsinə dəstək verdiyini qeyd edib.

Çinin Azərbaycanın beynəlxalq əhəmiyyətli təşəbbüslərini təqdir etdiyini söyləyən Lyu Cyançao ölkəmizin qlobal iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizədə əhəmiyyətli rolunu və dəyərli töhfələrini xüsusi vurğulayıb. O, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırıb və ölkəsinin də bu tədbirdə geniş nümayəndə heyəti ilə yüksək səviyyədə təmsil olunduğunu ifadə edib.

Qarşılıqlı səfərlərin səmərəli fikir və təcrübə mübadiləsi baxımından önəminə diqqəti cəlb edən L.Cyançao dövlətlər və partiyalar arasında hər bir təmasın əməkdaşlığın genişlənməsinə xidmət etdiyini vurğulayıb. O, Çin Kommunist Partiyasının geniş beynəlxalq əlaqələrə malik olduğunu və Yeni Azərbaycan Partiyası ilə münasibətlərin inkişafına böyük önəm verdiyini bildirib. Ötən il YAP nümayəndə heyətinin Çinə səfərini məmnunluqla xatırlayan Lyu Cyançao səfər çərçivəsində kifayət qədər əhəmiyyətli və məhsuldar görüşlərin keçirildiyini vurğulayaraq "Əminəm ki, YAP nümayəndə heyətinin ölkəmizə budəfəki səfəri də hərtərəfli əməkdaşlığa stimul verəcək. Xüsusilə də partiyalarımız arasında əməkdaşlıq memorandumunun imzalanması yeni imkanlar və perspektivlər yaradır. Memorandumdan irəli gələn vəzifələrin yerinə yetirilməsi dostluq və tərəfdaşlıq münasibətlərinin inkişafına, prioritetlərin reallaşdırılmasına - ortaq hədəflərin gerçəkləşməsinə xidmət edəcək", - deyib.



Lyu Cyançao YAP nümayəndə heyətinin İkinci Qlobal Cənub Beyin Mərkəzləri Dialoqunda iştirakının ortaq hədəflər naminə səmərəli müzakirələrin aparılması və gələcək əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından böyük önəm kəsb etdiyini bildirib.

Dəvətə, yüksək qonaqpərvərliyə və səmimi qəbula görə rəhbərlik etdiyi nümayəndə heyəti adından minnətdarlıq ifadə edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov dostluğa, qarşılıqlı faydalı əməkdaşlığa və strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Çin münasibətlərinin hər iki ölkənin liderlərinin siyasi iradəsi sayəsində dinamik inkişafa malik olduğunu və mühüm perspektivlər vəd etdiyini söyləyib.

O, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında birgə bəyannamənin qəbulunun tarixi əhəmiyyətə malik olduğunu vurğulayaraq hazırda müxtəlif sahələri əhatə edən çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi üçün əlverişli şəraitin olduğunu diqqətə çatdırıb: "Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Çin Xalq Respublikası və Azərbaycan Respublikasının rəsmi olaraq strateji tərəfdaşlara çevrilməsi böyük nailiyyət və yüksək məsuliyyətdir".

Tahir Budaqov iki ölkənin beynəlxalq müstəvidə əməkdaşlığının əhəmiyyətinə diqqəti cəlb edərək Çinin ölkəmizin BRICS platformasında təmsilçiliyinə və Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrinin inkişafına dəstəyinin dostluq və etibarlı strateji tərəfdaşlıq nümunəsi olduğunu söyləyib.

Bütün sahələrdə, xüsusilə də innovativ texnologiyalar, "yaşıl iqtisadiyyat"a keçid və nəqliyyat-logistika sahəsində işbirliyinin dərinləşdirilməsi üçün geniş imkanlara diqqəti cəlb edən Tahir Budaqov Azərbaycanın Çinin "Bir kəmər, bir yol" layihəsinə ilk dəstək verən ölkələrdən biri kimi bu layihə və Orta dəhliz çərçivəsində əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu vurğulayıb. O, Azərbaycanın təşəbbüsü olan Zəngəzur dəhlizinin reallaşdırılmasının bir çox dövlətlərin mənafeyinə xidmət edən qlobal xarakterli yeni əməkdaşlıq platformasının formalaşması baxımından əhəmiyyətini vurğulayıb.

Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi nəticəsində yeni geostrateji reallıqların yarandığını söyləyən YAP Sədrinin müavini hazırda regionda mövcud olan vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri barədə ətraflı məlumat verib. O, Azərbaycanın beynəlxalq hüququn təməlində dayanan suverenlik və ərazi bütövlüyü prinsiplərinə böyük önəm verdiyini, beynəlxalq münasibətlər sisteminin subyekti olan ölkələrin, o cümlədən Çinin ərazi bütövlüyünə, eləcə də Vahid Çin prinsipinə dəstəyini daim ifadə etdiyini nəzərə çatdırıb. YAP Sədrinin müavini Çinin Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsini də minnətdarlıqla vurğulayıb.

Azərbaycanın bəşəriyyəti narahat edən qlobal problemlərin həllində yaxından iştirak etdiyini, o cümlədən iqlim dəyişmələrinə qarşı fəal mübarizə mövqeyi sərgilədiyini söyləyən Tahir Budaqov Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunduğunu və ölkəmizin hazırda COP29-a uğurla evsahibliyi etdiyini diqqətə çatdırıb. O, belə bir mötəbər tədbirin Azərbaycanda keçirilməsinin respublikamıza beynəlxalq müstəvidə böyük etimadın daha bir bariz nümunəsi olduğunu vurğulayaraq Çinin bu məsələdə ölkəmizə dəstəyinə görə minnətdarlıq ifadə edib.

Azərbaycan-Çin münasibətlərinin inkişafında iki ölkənin hakim partiyalarının əməkdaşlıq əlaqələrinin rolundan bəhs edən Tahir Budaqov qeyd edib ki, ölkələrimiz arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamədə əksini tapan başlıca məsələlərdən biri də partiyalararası əlaqələrin gücləndirilməsidir. O bildirib ki, qarşılıqlı səfərlər partiyalararası münasibətlərin bütün istiqamətlərdə inkişafına təkan verir. Son illərdə hakim partiyalar arasında təmasların artması və dialoqun güclənməsinin önəmini qeyd edən YAP Sədrinin müavini "Sizin də qeyd etdiyiniz kimi, ötən il YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində istər Azərbaycan-Çin münasibətləri, istərsə də Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında çoxşaxəli əməkdaşlığa dair ətraflı fikir mübadiləsi aparıldı. Həmin səfər ikitərəfli əlaqələrin inkişafında mühüm bir amil kimi xüsusi əhəmiyyətə malikdir. Bu işbirliyinin davamı kimi bu gün Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlıq memorandumunun imzalanması isə əlamətdar hadisə kimi müstəsna önəm daşıyır. Memorandum qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlığın siyasi və hüquqi əsaslarını möhkəmləndirməklə partiyalar arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsini təmin edəcək. Əminik ki, birlikdə görəcəyimiz işlər həm partiyalar, həm də ölkələrarası əlaqələrin inkişafına təkan verəcək",- deyə bildirib.

Görüş zamanı bir sıra Qərb ölkələrinin müstəqil siyasət yürüdən dövlətlərə qarşı ikili standartlara əsaslanan, beynəlxalq hüquq normalarına zidd qərəzli siyasətinin beynəlxalq təhlükəsizlik və əməkdaşlığa təhdid yaratdığı qeyd olunaraq bu hallara qarşı qətiyyətli mübarizənin önəmi vurğulanıb, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

Sonra Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlıq memorandumunun imzalanması mərasimi olub. Memorandumu YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Cyançao imzalayıblar.

Noyabrın 13-də YAP nümayəndə heyəti, həmçinin İkinci Qlobal Cənub Beyin Mərkəzləri Dialoqu iştirakçılarının şərəfinə verilən ziyafətə qatılıb.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinə partiyanın İdarə Heyətinin üzvləri, millət vəkilləri Hikmət Məmmədov, Pərvin Kərimzadə, Elnarə Akimova, Ülviyyə Həmzəyeva, Azər Badamov, YAP Təftiş Komissiyasının sədri, millət vəkili Sevinc Hüseynova, Təftiş Komissiyasının üzvləri, millət vəkilləri Elman Nəsirov, Vüqar İskəndərov, Naqif Həmzəyev, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, YAP Gənclər Birliyinin üzvü, millət vəkili Səbinə Xasayeva, partiyanın Mərkəzi Aparatının şöbə müdirləri və yerli təşkilat sədrləri daxildir.

*Ü.XASPOLADOVA,*
*"Azərbaycan"*

COP29 Baku Azerbaijan

# Şahin Mustafayev Çin Xalq Respublikası Dövlət Şurasının Baş nazirinin müavini Din Süesyan ilə görüşüb

**Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev noyabrın 13-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun Daimi Komitəsinin üzvü, Çin Xalq Respublikası Dövlət Şurasının Baş nazirinin müavini Din Süesyan ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Çin dostluq və əməkdaşlıq əlaqələrinin siyasi, ticari-iqtisadi, qarşılıqlı investisiyalar, nəqliyyat-logistika, energetika, kənd təsərrüfatı, humanitar və bütün digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib və cari ilin iyul ayında ölkə rəhbərləri tərəfindən qəbul edilmiş strateji tərəfdaşlığın qurulması haqqında birgə bəyannamə xüsusilə qeyd olunub.

COP29 çərçivəsində Dünya Liderlərinin İqlim Fəaliyyəti üzrə Sammitində Çin Xalq Respublikasının xüsusi nümayəndəsi qismində iştirak məqsədilə ölkəmizdə səfərdə olan Din Süesyan ilə görüş zamanı qlobal "yaşıl gündəliy"in təşviqi istiqamətində beynəlxalq səylərin əhəmiyyəti vurğulanaraq Azərbaycanın "yaşıl enerji" imkanlarının inkişaf etdirilməsi məqsədilə potensial layihələr müzakirə olunub.

Görüşdə həmçinin geniş gündəliyə malik əməkdaşlığımızın bir çox sahələrdə dərinləşməsi və yeni məzmunla zənginləşdirilməsi məqsədilə səylərin gücləndirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

# Ceyhun Bayramov Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru ilə görüşüb



**Noyabrın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu sessiyasının (COP29) Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammiti çərçivəsində Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Emi Poup ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və Beynəlxalq Miqrasiya Təşkilatı arasında müxtəlif istiqamətlər üzrə əməkdaşlıq perspektivləri, habelə COP29 sədrliyimiz çərçivəsində tərəfdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov ölkəmizin COP29 sədrliyi, aparılan danışıqlar prosesi barədə ətraflı məlumat verib, sədrliyin təhvil alınması, habelə sessiyaya hazırlıq işləri çərçivəsində BMT, onun ixtisaslaşmış qurumları ilə yaxından əməkdaşlıq etdiyimizi diqqətə çatdırıb. Ölkəmiz tərəfindən edilən bu seçimin iqlim dəyişikliyi ilə mübarizə səylərinin əlaqələndirilməsi və davamlılığının təmini baxımından əhəmiyyəti vurğulanıb.

İqlim dəyişikliyinin təsirlərinə məruz qalan bir ölkə kimi Azərbaycanın hələ COP29 sədrliyimizdən çox öncə ətraf mühitin qorunması məsələlərini milli inkişaf strategiyamızın mərkəzinə gətirdiyi, sədrliyimiz çərçivəsində isə bu istiqamətdə qlobal səylərə töhfə vermək niyyətində olduğumuz bildirilib.

Baş direktor Emi Poup COP29 sədrliyini təhvil alması münasibətilə ölkəmizə təbriklərini çatdırıb, sədrlik dövründə fəaliyyətlərində uğurlar arzu edib.

İqlim dəyişikliyi nəticəsində bir çox insanın miqrasiya etdiyini nəzərə alaraq, bu baxımdan təşkilatın əsas fokusunun həmin insanların uyğunlaşması, onlara dəyən zərərlərin aradan qaldırılmasına dəstək olduğu qeyd edilib. Bu baxımdan sədrliyimizin iqlim maliyyəsi prioritetini irəli sürməsinin bu kimi məsələlərin həllini tapmasına töhfə baxımından əhəmiyyəti qeyd olunub.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan-BMT əməkdaşlığı, habelə ölkəmizin COP29 sədrliyindən irəli gələn məsələlər müzakirə olunub

**Noyabrın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu sessiyasının (COP29) Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammiti çərçivəsində BMT Baş Assambleyasının 79-cu sessiyasının prezidenti Filemon Yanq ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-BMT əməkdaşlığı, habelə ölkəmizin COP29 sədrliyindən irəli gələn məsələlər müzakirə olunub.

İqlim dəyişikliyinin fəsadlarının bölgəmizə, dünyamıza təsirinin ölkəmiz tərəfindən də yaxından müşahidə olunduğu, bu xüsusda tərəfimizdən milli səviyyədə "yaşıl enerji"yə keçid yanaşmasının tətbiq edildiyi, habelə regional və qlobal səviyyədə mövcud çağırışlarla mübarizədə çoxtərəfliliyin təşviq olunduğu qeyd edilib.

Ölkəmiz tərəfindən həyata keçirilən bir sıra regional və beynəlxalq layihə və təşəbbüslərdən bəhs olunub, COP29 çərçivəsində bu gün "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalandığı diqqətə çatdırılıb.

COP29 sədrliyimiz və aparılan danışıqlar prosesindən ətraflı bəhs edən nazir Ceyhun Bayramov iqlim maliyyəsi mövzusunun irəlilədilməsi məqsədilə tərəfimizdən aparılan aktiv fəaliyyət nəticəsində beynəlxalq maliyyə təşkilatlarının iştirakı ilə yeni maliyyə strukturuna keçiddə vacib irəliləyişlərin əldə olunduğunu bildirib.

Prezident Filemon Yanq ölkəmizi COP29 sədrliyi münasibətilə təbrik edib, sessiyanın yüksək səviyyədə təşkilatçılığına görə təşəkkür edib. BMT-nin iqlim dəyişikliyi ilə mübarizə istiqamətinə xüsusi önəm verdiyi və bu sahədə səyləri dəstəkləməyə hər zaman hazır olduğu qeyd edilib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# COP29 çərçivəsində Heydər Əliyev Fondunun "Azərbaycan. Təbiətin sehrində" nəşri təqdim edilib

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva təqdimatda iştirak edib


























**Bakıda keçirilən COP29 çərçivəsində noyabrın 13-də Heydər Əliyev Fondunun Azərbaycana həsr olunan yeni nəşri təqdim edilib.**

"Azərbaycan. Təbiətin sehrində" (Azerbaijan. Inspired by Nature) kitabı Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihə çərçivəsində nəşr olunub.

Layihənin ideya müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, layihə rəhbəri Prezidentin köməkçisi Anar Ələkbərovdur.

AZƏRTAC xəbər verir ki, təqdimat mərasimində Prezidentin köməkçisi Anar Ələkbərov, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd Əl-Malik, İşa Xeyriyyə Fondunun təsisçisi, məşhur hindistanlı yoqin Sadhquru (Caqqi Vasudev) və başqaları iştirak ediblər.

Tədbirdə bildirilib ki, nəşrin COP29 günlərində təqdimatı təsadüfi deyil. Burada Azərbaycanın füsunkar təbiəti, flora və faunasına dair fotoşəkillər, müvafiq məlumatlar yer alıb. Kitab oxucuları Azərbaycanın ecazkar təbiəti ilə tanış etməklə yanaşı, bu zənginliyin əhəmiyyətini, onun qorunub saxlanılmasının vacibliyini gündəmə gətirir.

2020-ci ildən start götürən genişmiqyaslı layihə çərçivəsində çəkilən yüzlərlə foto arasında unikal kadrlarla yanaşı, nadir heyvan, quş və bitki növlərini də görmək olar. Layihə Azərbaycan təbiətinin müxtəlifliyini təsvir edərək ölkənin bütün regionlarını, milli parklar və qoruqlarını əhatə edib. Layihə üzrə videoçəkilişlər aparılıb, videoçarxlar və sənədli film hazırlanıb. Təqdimat zamanı sənədli filmin treyleri nümayiş olunub.

Tədbirdə çıxış edən Leyla Əliyeva kitabın hər kəsi təbiəti sevməyə və onu qorumağa səslədiyini bildirərək deyib: "Dünyada təbiət qədər dəyərli heç nə yoxdur. Biz hava ilə nəfəs alırıq. Susuz üç gün də yaşaya bilmərik. Torpaqdan, ağaclardan enerji alırıq, onunla qidalanırıq. Təəssüf ki, gün ərzində insan bunun haqqında çox az düşünür. İnanıram ki, bu kitabda toplanmış şəkillər Azərbaycanın gözəlliklərini təqdim edəcək, insanlara təbiəti sevməyi və qorumağı bir daha xatırladacaq. Atalarımız demişkən: "Gəzməzsən, bilməzsən". Hamıya Vətənimizi gəzməyə daha çox vaxt ayırmağı arzu edirəm. Mən bu möhtəşəm iş üçün bütün komandaya təşəkkürümü bildirmək istəyirəm və Lerikdə birlikdə keçirdiyimiz günləri heç zaman unutmayacağam. Bu kitab bizi təbiəti sevməyə və qorumağa çağırır. Təbiət bizə həyat bəxş edir, biz də onu sevməyi öyrənək".

Layihənin fotoqraflarından biri Aleksey Lyokin çəkilişlər zamanı fotoqraflar qrupunun ölkəmizin bütün guşələrinə səfər etdiyini, çəkilişlər apardığını, bütün rayonların nadir təbiəti ilə tanış olduğunu bildirib. Qeyd olunub ki, çəkilişlər təbiətin bütün gözəlliyini maksimum dərəcədə göstərmək üçün ilin bütün fəsillərində aparılıb.

"Layihə zamanı heyvanların həyatı, kiçik dostlarımızın ehtiyac duyduğu xoş münasibət haqqında daha ətraflı məlumat əldə etdik. Məsələn, Şirvan Milli Parkının ərazisində yaşayan ceyranlar dəniz suyu içməyə uyğunlaşıblar. Bunu izləmək, sadəcə, təəccüb doğurdu. Biz bütün ilboyu Azərbaycanda flaminqo çəkmək imkanını əldə etmişik. Miqrasiya yolu ölkə ərazisindən keçdiyi üçün onları Abşeron, Şirvan, Qızılağac və Ağgöl milli parklarında müşahidə etmək olar. Biz Azərbaycan ərazisindən, xüsusən Beşbarmaq dağının yerləşdiyi yerdən uçan çox sayda quşlar müşahidə edə bildik.

İşğaldan azad olunmuş ərazilərdə - Qarabağda və Şərqi Zəngəzurda çəkilişlər zamanı qeyri-adi hisslər yaşadıq. Qarabağ və Şərqi Zəngəzurun gözəlliyi göz oxşayır. Kəlbəcərdə yerləşən İstisu bulağı və Şuşadakı Çətir şəlaləsi möhtəşəmdir. Kəlbəcərdəki bazalt qayaları diqqəti cəlb edir", - deyən A.Lyokin ən qədim yaşayış məskənlərindən biri sayılan Azıx mağarasında aparılan çəkilişləri də vurğulayıb. Bu yerlərdə sözlə ifadə edə bilməyəcəyimiz qədər inanılmaz duyğular yaşadıqlarını, bütün bu duyğuların filmdə əksini tapdığını deyib.

İşa Xeyriyyə Fondunun təsisçisi, məşhur hindistanlı yoqin Sadhquru (Caqqi Vasudev) təbiət və onun elementlərinin sıx əlaqəsindən, iqlim dəyişmələri nəticəsində baş verən dəyişikliklərdən danışıb. O, bəşər övladının evi olan təbiətin ayrı-ayrı komponentlərinin bir-biri ilə vəhdətindən bəhs edərək onları qorumağın vacibliyini vurğulayıb.

Sonra Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "Azərbaycan. Təbiətin sehrində" nəşrinin ilk nümunələrini ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd Əl-Malik və İşa Xeyriyyə Fondunun təsisçisi, məşhur hindistanlı yoqin Sadhquruya (Caqqi Vasudev) təqdim edib.

Qonaqlar nəşrdən zövq aldıqlarını qeyd ediblər.

Sonda xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, ötən müddətdə layihə həm də sosial şəbəkədə geniş işıqlandırılıb, bu platforma üzərindən müxtəlif maarifləndirici rubrikalar, müsabiqələr təşkil olunub. Bu isə daha geniş ictimaiyyətin layihə barədə məlumatlanmasına imkan verib.

Kitab Azərbaycan və ingilis dillərində hazırlanıb. Tezliklə həmçinin nəşrə daxil olan fotolardan ibarət sərgi və lentə alınan sənədli filmin təqdimatı keçiriləcək.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bu gün həmçinin COP29-un "yaşıl zona"sında yaradılmış yerli və xarici pavilyonları ziyarət edib.

COP29 Baku Azerbaijan

# QUTERREŞ: "Kiçik ada dövlətlərinə yaranmasında heç bir rol oynamadıqları böhranın öhdəsindən gəlmək üçün dəstək göstərilməlidir"












**Noyabrın 13-də Bakıda COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) sammiti keçirilib.**

AZƏRTAC xəbər verir ki, sammitdə çıxış edən BMT-nin Baş katibi Antonio Quterreş G20 ölkələrinin dünyada hava çirkləndiricilərinin 80 faizinin yaranmasına cavabdeh olduğunu deyib. "Sizin qəzəbli olmağa tam haqqınız çatır, mən də qəzəbliyəm. Çünki baş verən bu ədalətsizlik, dənizlərin səviyyəsinin yüksəlməsi sizin adaların gələcəyini təhlükə altına alır, sakinlər təbii fəlakətlərdən əziyyət çəkir, iqtisadiyyata böyük zərbə dəyir. Bu ədalətsizliyə son qoyulmalıdır".

Baş katib diqqətə çatdırıb ki, yaranmasında heç bir rol oynamadıqları böhranın öhdəsindən gəlmək üçün kiçik ada dövlətlərinə dəstək göstərilməlidir. Bu məqsədlə də iqlim maliyyələşməsinin uğurla razılaşdırılması tələb olunur.

COP29-un prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev qeyd edib ki, son aylarda Antiqua və Barbudadan Barbados və Tonqaya qədər çoxlu səfərlər edib və kiçik ada dövlətlərinin qarşılaşdığı çətinlikləri dərindən öyrənib. Bildirib ki, razılıq əldə etmək üçün tərəflər dəfələrlə bir araya gətirilib və artıq bir sıra məsələlərdə irəliləyiş var. Qeyd olunub ki, beynəlxalq maliyyə institutlarının rəhbərləri ilə əlçatanlığın təmin olunması istiqamətində də işlər davam etdiriləcək.

Nazir həmçinin deyib: "Yardım göstərmək üçün çox çalışırıq, davamlılıq yaratmaq üçün hərtərəfli yanaşmalara ehtiyacımız var. İnanıram ki, COP29 səsimizi ən yüksək səviyyələrə qaldıran konfransa çevriləcək. Biz COP29-dan sonrakı dövrdə həqiqi tərəfdaşlıq qurmağı səbirsizliklə gözləyirik".

Samoanın təbii sərvətlər, ətraf mühit və torpaqlar naziri Toeolesulusulu Cedric Pose Salesa Schuster isə kiçik ada dövlətlərinin iqlim dəyişikliyi səbəbindən üzləşdiyi böyük çətinliklərin, onların həssaslığının və xüsusi iqlim maliyyələşdirməsinə təcili ehtiyacının ön plana çıxarılmasının əhəmiyyətinə toxunub: "Paris Sazişini həyata keçirməyə dəstək olmaq üçün SIDS-in yeni iqlim maliyyələşdirməsi əhəmiyyətlidir. Konkret tədbirlər arasında SIDS üçün minimum illik 39 milyon dollar və digər inkişaf etməkdə olan ölkələr üçün 220 milyard dollar ayrılması yer alır".

O, uyğunlaşma üçün maliyyənin ikiqat artırılmasının, qrant əsaslı maliyyələşmənin tətbiqinin vacibliyini vurğulayıb.

Toeolesulusulu Cedric Pose Salesa Schuster iqlim öhdəliklərinin yerinə yetirilməsi və İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelin (IPCC) hesabatlarına uyğunlaşma üçün siyasi iradə göstərilməsinə çağırıb.

Tonqa Krallığının Baş naziri Siaosi Ofakivahafolau Sovaleni bildirib ki, dənizlərin səviyyəsinin yüksəlməsi ilə yaranan mövcud təhlükəni aradan qaldırmaq və qlobal temperatur artımını 1,5°C-də saxlamaq zəruridir. O qeyd edib ki, Tonqa dəniz səviyyəsinin yüksəlməsinə dair 2023-cü il Bəyannaməsi və 2021-ci il Dəniz Zonasına dair Bəyannamə də daxil olmaqla proaktiv addımlar atıb.

Baş nazir iqlim mobilliyi və dayanıqlı inkişaf üzrə Sakit Okean Regional Çərçivəsini də xatırladıb. O, COP29-da qlobal temperaturun artımını 1,5°C-də saxlamaq da daxil olmaqla, kiçik ada dövlətlərinin maraqlarını prioritet etmək üçün həmrəyliyə və liderliyə çağırıb.

Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyev iqlim dəyişmələrindən ən çox əziyyət çəkənlərin ada dövlətlərinin olduğunu bildirib. Əlavə edib ki, qlobal temperaturun 1,5 dərəcədə saxlanması ada dövlətləri üçün olduqca vacibdir: "Azərbaycan ada dövlətlərinin tərəfindədir. Onlara həmrəyliyimizi göstərərək Dayanıqlı İnkişaf Məqsədlərinin tam şəkildə icrasında birgə tədbirlərdə iştirak edəcəyik. Biz ümumi səylərlə kiçik ada dövlətlərinin üzləşdikləri çətinliklərin, iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılmasına nail ola biləcəyik".

Qeyd edək ki, SIDS iqlim dəyişmələrinin mənfi təsirlərinə məruz qalan həssas ölkələr kateqoriyasında yer almaqdadır. Adalardan ibarət və sahil ölkələrini öz sıralarında birləşdirən alyans dəniz səviyyəsinin artmasını və qlobal istiləşmənin digər fəsadlarını beynəlxalq müzakirələr gündəliyinə çıxarır. Alyansa 39 dövlət və beş müşahidəçi ölkə daxildir.

# COP29: Orta dəhlizin Yaşıl Transformasiyasına dair Əməkdaşlıq Bəyannaməsi imzalanıb

**Noyabrın 13-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "PSA International" stendində Orta dəhlizin Yaşıl dəhlizə çevrilməsinə dair konfrans keçirilib.**




AZƏRTAC xəbər verir ki, konfransda "PSA International" (PSA), "Qlobal DTC" (GDTC) və "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Assosiasiyasının (TİTR) rəhbərləri Orta dəhlizin əhəmiyyəti və vacibliyi haqqında məlumat veriblər.

Konfransdan sonra "PSA International", "Qlobal DTC" və "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Orta dəhlizi ekoloji cəhətdən məsuliyyətli və səmərəli nəqliyyat marşrutu kimi təşviq etmək üçün Əməkdaşlıq Bəyannaməsi imzalayıblar.

Əməkdaşlıq Orta dəhlizi rəqəmsal inteqrasiya etməyi nəzərdə tutur. Tərəflər əməliyyatları optimallaşdırmaq və ətraf mühitə təsirləri azaltmaq üçün rəqəmsal texnologiyalardan istifadəyə, Orta dəhlizi Yaşıl dəhlizə çevirmək məqsədi daşıyan bir neçə əsas təşəbbüsə dair təqdimat ediblər. Bildiriblər ki, bu əməkdaşlıq dayanıqlı Yaşıl dəhliz yaratmaq məqsədilə Orta dəhliz boyunca əsas maraqlı tərəfləri bir araya gətirəcək.

TİTR öz üzvlərini Yaşıl dəhlizin inkişafına töhfə verməyə və bu təşəbbüsün uğurla həyata keçirilməsini təmin etmək üçün GDTC ilə onun üzvləri arasında koordinasiyaya töhfə verəcək.

Vurğulanıb ki, yeni əməkdaşlıq Orta dəhlizin dayanıqlı qlobal nəqliyyat şəbəkəsinə çevrilməsi yolunda irəliyə doğru atılmış mühüm addımdır. Beynəlxalq ekoloji standartlara riayət etməklə və tullantıların azaldılmasına davamlı öhdəliyini nümayiş etdirərək, tərəfdaşlar Orta dəhlizi beynəlxalq ticarət və tranzit üçün yüksək dayanıqlı seçim kimi təqdim edirlər.

# COP29 çərçivəsində "COP sədrlikləri üçlüyünün yüksəksəviyyəli dialoqu: Ortaq rifahın gələcəyinə doğru Missiya 1,5 üçün Yol Xəritəmiz" adlı tədbir keçirilib









**Noyabrın 13-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "COP sədrlikləri üçlüyünün yüksəksəviyyəli dialoqu: Ortaq rifahın gələcəyinə doğru Missiya 1,5 üçün Yol Xəritəmiz" adlı tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən COP29-un baş danışıqçısı Yalçın Rəfiyev Birləşmiş Ərəb Əmirliklərinə və Braziliyaya COP29 çərçivəsində apardıqları ardıcıl əməkdaşlığa görə təşəkkürünü bildirib.

O qeyd edib ki, üçlük il ərzində ambisiyaların irəliləməsi, siyasi impulsun artırılması və problemlərin həlli istiqamətində aydın bir trayektoriya izləyərək səylə çalışıb: "Bu il Kopenhagendə "Troyka"nın rəsmi təqdimatı oldu və biz bütün tərəfləri iqlim fəaliyyətinin bütün sütunlarını, xüsusən də təsirlərin yumşaldılması və ədalətli keçid, uyğunlaşmaya inandırdıq. Müəyyənləşdirilmiş Milli Töhfələrə güclü diqqət ayrıldı. Ümumiyyətlə, "Troyka" qlobal iqlim gündəmlərində sinerji yaratmaq, həm ambisiya, həm də maliyyə mexanizmlərini irəli aparmaq, eyni zamanda kritik icra problemlərini həll etmək və inkişaf etməkdə olan ölkələrin iqlimə davamlılığını artırmaq üçün fəaliyyət həyata keçirir. Əminəm ki, "Troyka" nəticəsində biz möhkəm, davamlı və hamı üçün ədalətli gələcək qura biləcəyik və gələcək COP tədbirləri üçün möhkəm gündəlik təmin edəcəyik", - deyə Yalçın Rəfiyev bildirib.

Daha sonra COP29-un prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin tədbir iştirakçılarına müraciəti oxunub. Müraciəti COP29-un baş danışıqçısı Yalçın Rəfiyev səsləndirib.

Müraciətdə Muxtar Babayev güclü tərəfdaşlığa görə Birləşmiş Ərəb Əmirliklərinə və Braziliyaya minnətdarlığını bildirib.

"COP28, COP29 və COP30 liderləri iqlim dəyişikliyinin çağırışına qlobal reaksiyaya rəhbərlik etmək öhdəliyində sadiqdirlər.

COP29-a sədrliyi qəbul etmək Azərbaycan üçün həm imkan, həm də məsuliyyətdir. Biz 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etmişik və bu, qlobal çağırışların yalnız kollektiv səy və qarşılıqlı dəstək nəticəsində aradan qaldırıla biləcəyinə inamımızı göstərir.

Bizim əsas strateji fəaliyyətlərimizdən biri Müəyyənləşdirilmiş Milli Töhfələrin (MMT) icrasını sürətləndirməkdir. Öz MMT-lərinin işlənib hazırlanmasında və həyata keçirilməsində xüsusən də imkanları məhdud olan ölkələrə dəstək vermək çox vacibdir. Məqsədimiz qlobal istiləşmənin 1,5 dərəcə Selsi ilə məhdudlaşdırılması hədəfinə nail olmaqdır", - deyə COP29 prezidenti bildirib.

Nazir bildirib ki, Azərbaycan Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan bölgələrini "yaşıl enerji" zonaları müəyyən edib və bu ərazilər bərpaolunan enerji, o cümlədən günəş və su enerjisi üçün əhəmiyyətli potensiala malikdir. "Bu bölgələrdəki səylərimiz təkcə Azərbaycanın emissiyaların azaldılması məqsədlərinə töhfə verməklə kifayətlənmir, həm də bizi təmiz enerji gələcəyinə keçiddə regional lider kimi mövqeləndirir. Biz bu layihələrə böyük sərmayə qoyuruq, əhəmiyyətli beynəlxalq marağı və əməkdaşlığı cəlb edirik. Ancaq təkcə ambisiya kifayət deyil. İqlim maliyyəsində əhəmiyyətli artımlar olmasa, Paris Sazişinin məqsədləri bir çox dövlətlər üçün əlçatmaz qalacaq. Qlobal birlik ambisiya ilə icra arasındakı uçurumu daha da genişləndirməyə imkan verə bilməz. Bu kontekstdə "Troyka"nın rolu həlledicidir", - deyə müraciətdə qeyd olunub.

Tədbirdə çıxış edən Braziliyanın ətraf mühit və iqlim dəyişmələri naziri Marina Silva 400 milyon tondan çox karbon emissiyasının qarşısını aldıqlarını bildirib və qeyd edib ki, bu da bir çox ölkələrin illik emissiyasından daha böyükdür. "Məqsədimiz birlikdə həll yollarını müəyyən etmək və COP30-a doğru fəaliyyətimizi gücləndirməkdir. Mən bu prosesdə konstruktiv iştirakınıza görə hamınıza təşəkkür edirəm. Əminəm ki, bu proses nəticəsində biz geri addım atmayacağıq və COP28-də müəyyən edilmiş 1,5 hədəfinə çatmaq üçün çalışacağıq", - deyə M.Silva diqqətə çatdırıb.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi Saymon Stil çıxışında Dubaydan BƏƏ konsensusunda öz əksini tapmış Qlobal Baxışa dair çox aydın təlimatla ayrıldığını bildirib.

Onun sözlərinə görə, bütün tərəflərin Qlobal Baxışı MMT-də əks etdirmək baxımından tələbləri yerinə yetirməsi üçün investisiya olmalıdır. "Troyka"nın işi bu onilliyin qalan hissəsində və qarşıda duran gələcək üçün necə irəliləyəcəyimizi müəyyənləşdirəcək", - deyə o əlavə edib.

COP28-in baş icraçı direktoru Adnan Amin çıxışında gözləntilərinin Paris məqsədlərinə uyğunlaşmaq üçün 2030-cu ilə qədər emissiyaları 43 faiz azaltmaq olduğunu qeyd edib. O bildirib ki, uyğunlaşma və dayanıqlılıq üzrə ardıcıl tədbirlər görülməlidir və bu, maliyyə ilə dəstəklənməlidir: "Dubayda ilk dəfə qəbul etdiyimiz BƏƏ konsensusu təsirlərin yumşaldılması üzrə konkret, hədəfyönümlü nəticəni özündə əks etdirib. COP29 Dubayda razılaşdırdığımız məqsədlərə çatmağa imkan verən çərçivəni, maliyyələşdirməni və həyata keçirmə vasitələrini həll edəcək. "Troyka" olaraq bizim üç sədrliyimiz əsas məsələləri müzakirə etmək üçün aktiv səy göstərirlər", - deyə COP28-in baş icraçı direktoru əlavə edib. O vurğulayıb ki, BƏƏ konsensusunda yer alan hədəflərə çatmaq mümkün olsa bu, dünyanı onilliyin sonuna qədər tələb edilən yumşaldılmanın üçdə ikisinə çatdıracaq. Adnan Amin bunun üçün maliyyənin tələb olunduğunu deyib: "Biz maliyyəni daha əlçatan etməyə kömək edən İqlim Maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədinə sahib olmalıyıq. Biz eyni şəkildə yumşaldılma tələblərimizi həll etmək və BƏƏ-nin Müəyyənləşdirilmiş Milli Töhfələrinə uyğunlaşdırılmış ambisiya səviyyəsini sürətli şəkildə artırmaq üzərində işləyirik. Mən bilirəm ki, bir çox tərəfdaş, xüsusən də Azərbaycan buna necə töhfə verə biləcəyini nəzərdən keçirir. Buna görə də biz nümunə olmaq istəyirik".

ABŞ Prezidentinin beynəlxalq iqlim siyasəti üzrə elçisinin müavini Sue Biniaz çıxışında Braziliyaya 28-ci və 33-cü bəndlərə istinad edərək Qlobal Baxışın nəticəsini faydalı şəkildə təsdiq etdiyinə görə təşəkkür edib və qeyd edib ki, COP29-da həmin müddəalar daha da işlək vəziyyətə salınmalıdır: "Tərəflər 39-cu maddədə göstərilən Qlobal Baxışın tələblərini yerinə yetirməli və istixana qazları və 1,5 hədəfinə dair tələbləri əks etdirən Müəyyənləşdirilmiş Milli Töhfələri (MMT) təqdim etməlidir. 1,5 hədəfini saxlamaqdan daha vacib heç nə yoxdur. Biz həmçinin inkişaf etməkdə olan ölkələrə və onların MMT-lərinin tərtibatına dəstək olmaq üçün tərəfdaşlığı yüksək qiymətləndiririk. Paris razılaşması hər şeyi edə bilməz. Hədəflər yalnız bir razılaşma ilə müqayisədə çox böyükdür. Onun digər beynəlxalq institutların, təşkilatların və təşəbbüslərin köməyinə ehtiyacı var. Biz təkcə beynəlxalq təşkilatlar kimi milli səviyyədən yuxarı səviyyəyə deyil, ondan aşağı səviyyəyə, o cümlədən özəl sektora baxmalıyıq. Bu tərəflər 1,5-in əlçatan olmasında mühüm rol oynaya bilər və oynamalıdırlar".

Tədbirdə çıxış edən Macarıstanın İqlim Siyasəti üzrə Dövlət Katibinin müavini Daniyella Deli və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının administratoru Achim Steyner də çıxışlarında 1,5 hədəfinə nail olmaq üçün görüləcək işlərdən, Müəyyənləşdirilmiş Milli Töhfələrin icrasından, "Troyka" sədrliyinin bu istiqamətdə aktiv səylərindən bəhs ediblər.

Qeyd edək ki, "Troyka" ölkələrinə Birləşmiş Ərəb Əmirlikləri (COP28), Azərbaycan Respublikası (COP29) və Braziliya (COP30) aiddir.

COP29
Baku
Azerbaijan

# Prezident Yakov MİLATOVİÇ: "Monteneqro və Azərbaycan arasında güclü siyasi dialoq dərin iqtisadi əməkdaşlıq üçün möhkəm təməl yaradır"

**Monteneqro Respublikasının Prezidenti Yakov Milatoviç BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək üçün Azərbaycan Respublikasında səfərdədir və burada dünya liderləri ilə iqlim dəyişikliyi və dayanıqlı inkişaf məsələlərini müzakirə edir.**



Prezident Yakov Milatoviç AZƏRTAC-a müsahibəsində Monteneqro ilə Azərbaycan arasında, xüsusilə iqtisadi inkişaf və "yaşıl iqtisadiyyat"a keçid sahələrində güclənən əməkdaşlığı vurğulayıb. Onun səfəri Monteneqronun qlobal iqlim tədbirlərinə sadiqliyini və Azərbaycanla ikitərəfli əlaqələri dərinləşdirmək istəyini əks etdirir. Prezident Yakov Milatoviçin müsahibəsini təqdim edirik.

*- Cənab Milatoviç, Azərbaycan hazırda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi mötəbər tədbirə evsahibliyi edir. COP29-dan gözləntiləriniz barədə fikirləriniz maraqlı olardı.*

- İlk növbədə qeyd etmək istəyirəm ki, COP29-da iştirak etməkdən ötrü Azərbaycanda olmaqdan çox məmnunuq. Azərbaycanı bu il COP-u təşkil etməsi münasibətilə təbrik etmək istəyirəm; tədbir çox yaxşı təşkil olunub. Bu zirvə görüşü xüsusilə kritik dövrə təsadüf edir. Son vaxtlar BMT-nin qurumları qlobal temperaturun artdığını və 2024-cü ilin rekord dərəcədə ən isti il olmağa doğru irəlilədiyini göstərən məlumatlar yayımlayıb. Bu məlumatlar, bildiyiniz kimi, qlobal istiləşmə kontekstində, xüsusən karbon emissiyaları ilə bağlı olduqca narahatedicidir. Qlobal icma olaraq hamımız birlikdə hərəkət etməli, xüsusilə 2015-ci il Paris Sazişinə əməl etmək üçün bütün səylərimizi birləşdirməli və iqlim dəyişikliyinə qarşı mübarizə aparmalıyıq.

İqlim dəyişikliyi bəlkə də bu gün dünya qarşısında duran ən böyük çağırışlardan biridir və həqiqətən də yalnız kollektiv səylərlə həll edilə biləcək qlobal məsələdir. Bu səbəbdən dünya liderlərini hər il bir araya gətirmək və ortaq öhdəliklərimizi bir daha təsdiqləmək vacibdir. Bildiyimiz kimi, dünyanın ən böyük ölkələri həm də ən böyük karbon emissiyaçılarıdır. Hər bir ölkə, o cümlədən Monteneqro və Azərbaycan bu məsələdə öz öhdəliyini nümayiş etdirir. Hər il təkcə əldə etdiklərimizi bölüşmək üçün deyil, həm də dünyanın ən təcili problemini həll etmək üçün birgə gündəmimizi yeniləmək və gücləndirmək üçün toplaşırıq.

Bu ilin zirvə görüşündə verilən digər vacib mesaj isə sülhə çağırış oldu. Dünyanın bir çox yerində münaqişələrin davam etdiyinin və dünya üzrə son onilliklərin ən yüksək səviyyəsində olduğunun fərqindəyik. Sülhə sadiqlik olmadan davamlı inkişafa əsl sadiqlik ola bilməz. Bir çox liderin çıxışlarında sülh çağırışları etdiyini eşitdim. Bu sülh çağırışı həm də Monteneqronun dünyaya çağırışıdır.

*- Artıq məlum olduğu kimi, COP29 iqlim maliyyələşdirilməsi mövzusuna həsr olunub. Sizin fikrinizcə, COP29 və Azərbaycan bu məsələyə necə töhfə verə bilər?*

- Hamımız, xüsusilə uyğunlaşma üçün maliyyələşmənin təmin olunmasının vacibliyini qəbul edirik. Bu isə xüsusilə zəruri resurslara malik olmayan inkişaf etməkdə olan ölkələr üçün həyati əhəmiyyət daşıyır. Hər bir COP-un, o cümlədən Bakıda keçirilən COP29-un diqqət mərkəzində dayanan əsas məsələ maliyyə vəsaitlərinin zəngin ölkələrdən resursları az olan ölkələrə ötürülməsi üçün effektiv mexanizmlərin yaradılmasıdır. COP29-un keçirilməsi, xüsusilə iqlim səylərimizdə belə mühüm bir məqamda bu qlobal toplantının əhəmiyyətini vurğulayır. Bu, iqlim problemlərinin həllinə olan öhdəliyimizi yenidən təsdiqləmək və ən həssas ölkələrə onların uyğunlaşma və azaldılma səylərini dəstəkləmək üçün zəruri maliyyə resurslarının ayrılmasını təmin etmək baxımından bir fürsətdir.

Bu kontekstdə Monteneqroda həyata keçirdiyimiz bəzi təşəbbüsləri vurğulamaq istərdim. Biz iki dövlət fondu - Eko Fondu və İnnovasiya Fondunu təsis etmişik ki, bu fondlar müxtəlif inkişaf gündəmləri üçün innovativ maliyyələşməni dəstəkləyir. Keçən il həmçinin xüsusilə Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) irəliləyişinə və "yaşıl iqtisadiyyat"ın təşviqinə yönəlmiş üçüncü fondu - Monteneqro DİM Sürətləndirmə Fondunu işə saldıq. Bu fond Dayanıqlı İnkişaf Məqsədləri və "yaşıl iqtisadiyyat"a dair hədəflərimizə nail olmağı sürətləndirməyə imkan verən unikal bir alətdir. Monteneqro bu cür mexanizmlərdən istifadə etmək baxımından bir çox istiqamətlərdə qabaqcıldır. COP çərçivəsində müzakirələrim zamanı bu təşəbbüsü bölüşdüm, çünki Monteneqronun təcrübəsinin iqlim uyğunlaşma siyasətlərini maliyyələşdirmək üçün innovativ həll yolları axtaran digər ölkələrə faydalı ola biləcəyinə inanıram.

*- COP29 ölkələrin "yaşıl iqtisadiyyat"a keçidinə töhfə verəcək. Ölkələrimiz "yaşıl enerji" sahəsində necə əməkdaşlıq edə bilər?*

- Azərbaycan Prezidenti İlham Əliyevin COP29 Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitinin açılış nitqində qeyd etdiyi kimi, Azərbaycan öz təbii sərvətləri ilə tanınır, lakin həm də "yaşıl siyasət"ə doğru mühüm addımlar ataraq bu sahədə də lider kimi önə çıxır. Monteneqro neft və ya qaz ehtiyatlarına malik ölkə olmasa da, kömür kimi fosil yanacaqlardan uzaqlaşaraq "yaşıl iqtisadiyyat"a keçidi fəal şəkildə dəstəkləyir və davamlı siyasətini inkişaf etdirir. Azərbaycan və digər təcrübəli tərəfdaşlarla birgə biz bərpaolunan enerji sektorunu genişləndirmək, külək və günəş enerjisi infrastrukturu qurmaq və enerji səmərəliliyinə yönəlmiş siyasəti irəli aparmaq üçün əməkdaşlıq edirik.

Dünya liderləri ilə müzakirələrimdə Monteneqronun enerji səmərəliliyi sahəsində təşəbbüslərini, xüsusilə Avropa İttifaqından əldə etdiyimiz əhəmiyyətli maliyyə dəstəyi ilə ictimai binalarda və fərdi ev təsərrüfatlarında səmərəliliyin artırılmasına yönəlmiş son təşəbbüslərimizi bölüşdüm. Azərbaycan kimi biz də bərpaolunan infrastrukturun enerji səmərəliliyi ilə uyğunlaşdırılmasının vacibliyini qəbul edirik.

Digər oxşar sahə enerji təhlükəsizliyidir. Azərbaycan bir çox Avropa dövlətləri üçün əsas enerji təchizatçısıdır və Monteneqro daha kiçik miqyasda olsa da, dənizaltı kabel vasitəsilə İtaliyanın elektrik şəbəkəsinə qoşulan yeganə Balkan ölkəsi olmaqla Balkan regionunu İtaliyanın elektrik enerjisi bazarı ilə əlaqələndirir. Ümumilikdə Monteneqro və Azərbaycan dostluq münasibətlərindən bəhrələnir və güclü siyasi dialoq iqtisadi əməkdaşlığı daha da dərinləşdirmək üçün möhkəm təməl yaradır.

*- Cənab Milatoviç, Sizin bir neçə ay öncə cənab Prezident İlham Əliyevə ünvanladığınız məktubda da vurğuladığınız kimi, Monteneqro ilə Azərbaycan arasında bir sıra sahələrdə çox yaxşı ikitərəfli münasibətlər və konstruktiv əməkdaşlıq mövcuddur. İki ölkə arasında da potensial əməkdaşlıq imkanları barədə də danışmağınızı xahiş edirik. Ölkələr arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsi üçün hansı sahələri prioritet hesab edirsiniz?*

- Monteneqro uzun müddətdir ki, Azərbaycan üçün əsas turizm məkanıdır və biz ölkəmizi qürurla "Aralıq dənizinin incisi" adlandırırıq. Azərbaycanın Monteneqroya yatırdığı əsas investisiyalardan biri olan Portonovi layihəsi turizm sahəsində mühüm bir inkişafdır və bu layihə ilə çox qürurlanırıq. Bu sərmayənin Azərbaycandan gəlməsi bizi çox sevindirir, çünki bu, ölkələrimiz arasında güclü əlaqə qurur və turizm sektorunda gələcək əməkdaşlıq potensialını göstərir. Bu, təkcə bizim turizm imkanlarımızı genişləndirmir, həm də iqtisadi əlaqələrimizin möhkəmliyini nümayiş etdirir.

Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşdə Monteneqronun Azərbaycanla iqtisadi əlaqələri daha da gücləndirməyə sadiq olduğunu bir daha vurğulamağı planlaşdırıram. Monteneqronun Azərbaycan üçün təklif edə biləcəyi çox imkanların olduğuna, həmçinin Azərbaycanın Monteneqroya fayda verə biləcəyinə inanıram, xüsusilə bərpaolunan enerji, infrastruktur və texnologiya sahələrində. Ölkələrimiz arasında güclü siyasi dialoq dərin iqtisadi əməkdaşlıq üçün möhkəm təməl yaradır.

Hökumətlərimiz arasında iqtisadi əlaqələrin inkişafı üçün Azərbaycan Hökuməti və Monteneqro Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın fəaliyyəti ilə iqtisadi sessiyaların yenidən başlamasından məmnunam. Qeyd etmək istərdim ki, Azərbaycanın fəxri konsulu Vüqar Əliyev uzun illər ərzində əlaqələrin gücləndirilməsinə böyük töhfə verib. Ölkələrimiz arasında birbaşa aviareyslərin olması da çox önəmlidir. Bu birbaşa əlaqə yalnız turizmi təşviq etmir, eyni zamanda ticarət, biznes və mədəni mübadilələr üçün daha böyük imkanlar yaradır.

Azərbaycanda COP-a qatılmağım ölkələrimiz arasında davamlı dostluğa olan sadiqliyin daha bir aydın göstəricisidir. Bu, qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlığımızı prioritetləşdirdiyimizi və əlaqələrimizi gücləndirməyə yönəlmiş ortaq bir baxışa sahib olduğumuzu göstərən açıq siqnaldır.

*- Məlumdur ki, Azərbaycan Monteneqronun əsas xarici investorlarından biridir. Ölkənizin Azərbaycana investisiyaları barədə fikirləriniz maraqlıdır. Azərbaycan iqtisadiyyatının hansı sektorları Monteneqro investorlarını maraqlandıra bilər?*

- Bir neçə il sonra, yenidən 2024-cü ildə Azərbaycan Respublikası Hökuməti və Monteneqro Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın iclasını keçirdik və bu, çox səmərəli oldu. Bu iclasda əməkdaşlığımızı daha da dərinləşdirə biləcəyimiz sahələri müəyyən etdik. Mən inanıram ki, bu komissiya iqtisadi əlaqələrin inkişafında mühüm rol oynayacaq.

Məhz buna görə iki ölkə arasında iqtisadi əməkdaşlığı təşviq etməyin vacibliyini vurğulamaq istəyirəm. Daha əvvəl də qeyd etdiyim kimi, son illərdə Azərbaycanda baş verən diqqətəlayiq inkişaf çoxsaylı iqtisadi imkanlar yaradıb və bunlar nəzərdən qaçırılmamalıdır. Düşünürəm ki, hələ də daha çox Monteneqro vətəndaşının Azərbaycanı kəşf etməsinə ehtiyac var. Necə ki, son illərdə Azərbaycan vətəndaşları Monteneqronu daha çox kəşf ediblər. Mənim Azərbaycana bugünkü səfərim bu istiqamətdə atılmış doğru bir addımdır və inanıram ki, Azərbaycana gələcəkdə daha çox səfər edəcəyəm. Bu, yalnız güclü siyasi dialoqu davam etdirməyə deyil, həm də iqtisadi əlaqələrimizi dərinləşdirməyə və genişləndirməyə olan sadiqliyimizi nümayiş etdirir.

# COP29:

## Bakı Təşəbbüs Qrupu müstəmləkəçi güclərin vurduğu ekoloji ziyana dair beynəlxalq konfrans təşkil edib




**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycan Milli QHT Forumu Pavilyonunda Bakı Təşəbbüs Qrupu (BTQ) tərəfindən "Ekomüstəmləkə: müstəmləkə və neokolonial istismarın ətraf mühit mirası" adlı beynəlxalq konfrans təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, tədbiri açan BTQ-nin icraçı direktoru Abbas Abbasov beynəlxalq konfransın məqsədinin müstəmləkəçi güclərin vurduğu ekoloji ziyanı araşdırmaq və müstəmləkə altında olan xalqlara xüsusi diqqət yetirmək olduğunu bildirib. O, BTQ-nin müstəmləkəçiliyin ləğvi ilə bağlı fəaliyyəti haqqında məlumat verib.

Beynəlxalq konfransda hələ də müstəmləkə idarəçiliyi altında olan xalqlar, müstəmləkəçi dövlətlər tərəfindən təbii resursların istismarı, meşələrin qırılması, xlordekonla torpağın çirklənməsi və məcburi kənd təsərrüfatı monokulturası kimi tarixi müstəmləkəçilik təcrübələrindən söz açılıb. Bu xalqların üzləşdiyi iqlim böhranları, onların uzunmüddətli mənfi ekoloji nəticələri ilə bağlı fikirlər səsləndirilib.

Konfrans müstəmləkə idarəçiliyi nəticəsində ətraf mühitə dəyən zərərlərin aradan qaldırılması üçün mühüm platforma rolu oynayıb. Tədbirdə ekspertlər, siyasətçilər və fəallar müstəmləkəçiliyin təsirinə məruz qalan xalqlarda ekoloji ədalət çağırışının gücləndirilməsi, davamlı iqlim istiqamətində qlobal səylər göstərilməsi barədə fikirlərini bölüşüblər.

Tədbirdə Fransanın və Niderlandın müstəmləkəsi altında olan xalqların nümayəndələri ölkələrindəki ətraf mühitin acınacaqlı vəziyyətindən danışıblar. Bu baxımdan Fransa hökumətinin fransız Polineziyasında, Qvadelupada, Martinikada, Mayotda, Yeni Kaledoniyada həyata keçirdiyi nüvə sınaqları, istifadə etdiyi zəhərli pestisidlərin ağır nəticələri müzakirə olunub.

Qeyd edilib ki, Fransanın müstəmləkəsi altında olduğu üçün müstəqil qərar qəbul edə bilməyən Qvadelupada kənd təsərrüfatı sahələrinin əksəriyyəti çox təhlükəli olan xlordekon pestisidi ilə zəhərlənib və bu, biomüxtəlifliyi məhv edib. Vurğulanıb ki, dünyada xlordekon pestisidinin ləğv edilməsinə baxmayaraq, Fransa hökuməti Qvadelupada və Martinikada bu pestisiddən istifadəyə yol verərək, müstəmləkə altında saxladığı xalqlara müstəqil qərar qəbul etmək imkanı yaratmır. Nəticədə həmin ərazilərdə kənd təsərrüfatının inkişafı mümkün deyil. Diqqətə çatdırılıb ki, xlordekon insanlar üçün son dərəcə zəhərli bir maddədir. Heyvanlar üzərində aparılan toksikoloji tədqiqatlar nəticəsində həmin maddənin sinir sisteminə, hormonal sistemə və bəzi orqanların (qaraciyər, böyrək, ürək və s.) fəaliyyətinə zərərli təsir göstərdiyi təsdiqlənib.

Çıxışlarda həmçinin Fransız Polineziyasında Fransa tərəfindən həyata keçirilən nüvə sınaqlarının ekoloji fəsadlarının yaratdığı dəhşətli vəziyyət, radiasiyaya məruz qalmış əhaliyə Fransa tərəfindən kompensasiyanın hələ də ödənilməməsi, Yeni Kaledoniyada nikel yataqlarının istismarı, eləcə də Mayotun istismarı nəticəsində müxtəlif xəstəliklərin yayılması diqqətə çatdırılıb.

Qvineya nümayəndəsi avropalıların onların ərazisinə yerləşdirilməsi ilə yerli xalqa qarşı törədilmiş soyqırımın faciəli tarixini xatırladaraq, müstəmləkəçiliyin onların mədəniyyətlərinin məhvinə, əvəzolunmaz ekoloji biliklərin itirilməsinə səbəb olduğunu bildirib. Vurğulanıb ki, müstəmləkəçi dövlət onların meşələrini və biomüxtəlifliyini məhv edib. Eyni zamanda gələcəklə bağlı müzakirələrdə onların səsini boğur.

Konfransın spikerləri dənizaşırı ərazilərdə müstəmləkəçilik idarəetməsinin iqlim dəyişikliklərinə mənfi təsirlərindən söz açaraq, Fransa və Niderlanddan yerli xalqların tələblərinə əməl etməyi tələb ediblər.

# Azərbaycanın və Anqolanın XİN-ləri arasında siyasi məsləhətləşmələr mexanizmi yaradılır

**Noyabrın 12-də Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayev və Anqolanın Xarici Əlaqələr Nazirliyinin Dövlət katibi Esmeralda Mendonza arasında görüş keçirilib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib.

Azərbaycan Respublikası və Anqola Respublikası arasında siyasi məsləhətləşmələr üzrə mexanizmin yaradılmasının ikitərəfli və çoxtərəfli platformalarda əməkdaşlığın əlaqələndirilməsinə və inkişafına xidmət edəcəyi vurğulanıb.

Görüşün sonunda Azərbaycan Xarici İşlər Nazirliyi ilə Anqola Xarici Əlaqələr Nazirliyi arasında siyasi məsləhətləşmələr mexanizminin yaradılması haqqında anlaşma memorandumu imzalanıb.

COP29 Baku Azerbaijan




# DÜNYANI SEVƏK, QORUYAQ

*Dünya böyükdür!*

Ucu-bucağı görünməz!

Bir başından o başına getmək üçün günlərlə vaxt gərək olur.

*Dünya böyükdür!*

8 milyarddan çox insanı öz qoynunda yerləşdirib.

Sonsuz okeanlar, dənizlər, göllər, çaylar, meşələr dünyanın təbiət mənzərəsidir.

*Dünya yeraltı, yerüstü sərvətləri ilə zəngindir.*

İnsanlar neftdən, təbii qazdan tutmuş gümüşə, qızıla, uranacan əldə edib müxtəlif məqsədlərlə istifadə edirlər.

**Dünyanın qayğıları, problemləri də böyükdür.**

İrqindən, cinsindən, dinindən, dilindən asılı olmayaraq, ona sığınan insanları yedirməli, geyindirməli, rahat həyatlarını təmin etməli, təhlükələrdən qorumalıdır!

**Dünyanın dərdi də böyükdür.**

Əsrlər boyu üzərində yaşayan, onun nemətlərindən bəhrələnən insanlar heç də həmişə dünyaya xeyirxah münasibət bəsləmirlər, ondan aldıqlarının qədrini bilmir, sərvətlərindən düzgün istifadə etmir, hərdən dünyanın özü, deməli, həm də özləri üçün ciddi problemlər, çətinliklər yaradırlar.

Bəzən müharibələr, dağıntılar, ekoloji cinayətlər törədərək bu gen dünyaya qarşı nankorluqlar da törədirlər.

**Dünya həm də çox kiçik dünyadır!**

Hərdən haradasa yatmış bir vulkan yenidən püskürəndə, ətrafa tüstü-duman yayanda, təyyarələr havaya qalxa bilmir, dövlətlər arasındakı hava nəqliyyatı əlaqələri müvəqqəti də olsa, kəsilir.

Hansısa ölkələrin sənayeçiləri havaya normadan artıq karbon qazı atanda, dünyanın iqlim tarazlığı pozulur, təbiət belə qayğısızlıqdan "inciyərək" əvəzini çıxmağa başlayır.

Leysan yağışları, dağıdıcı küləklər, qasırğalar, meşə yanğınları, zəlzələlər sanki insanlara qulaqburması verir, ciddi xəbərdarlıq edir.

İnsanlar sel sularına qərq olur, kəndlər, qəsəbələr su altında qalır, torpaq sürüşmələri baş verir, şose və dəmir yolları dağılır, ciddi tələfatlar yaşanır.

**Dünya "intiqam" almağı bacarır!**

Odur ki, onu incitmək, tarazlığını pozmaq yox, qorumaq, verdiyi nemətlərin əvəzində minnətdar olmağı bacarmaq gərəkdir.

❖ ❖ ❖

*Azərbaycan dünyanın kiçik dövlətlərindəndir.*

Əhalisi 10 milyon, ərazisi isə 100 min kvadratkilometrə belə çatmır.

Müstəqillik yaşı 30-dan bir qədər çoxdur.

Bu dövrdə iki müharibə görüb, çox çətin və ağır sınaqlardan çıxıb.

*Həm də Tanrının sevdiyi məkandır.*

* Allah-Taala onu iki qitənin qovşağında "yerləşdirib", vacib və gərəkli coğrafiya sahibi edib.

* Neft və qaz kimi təbii sərvətlər verib.

* Dünyanın ən böyük gölünün - Xəzərin kənarında yaşamağı qismət edib.

* Yer üzündəki 11 iqlimdən 9-nu ona bağışlayıb.

* Zəngin yeraltı sərvətləri, meşələri, dağları, çayları ondan əsirgəməyib.

* Ən əsası vətənpərvər, qəlbi geniş, rəftarı tolerant, mehriban insanlar bəxş edib.

*Azərbaycan həm də dünyanın böyük dövlətlərindəndir.*

*Gördüyü işlər, həyata keçirdiyi möhtəşəm layihələr sayəsində!*

Nədir onu böyük və əzəmətli edən?

* Azərbaycan düz yolla, düz istiqamətdə, Heydər Əliyev siyasi kursu ilə irəliləyir!

* Azərbaycan tarixinin ən qüdrətli dövlətini yarada bilib!

* Azərbaycanın daxilində möhkəm və dönməz sabitlik, milli birlik var!

* Azərbaycan dünyaya böyük faydalar gətirəcək nəhəng transmilli layihələri öz imkanları hesabına reallaşdırıb:

* Bakı-Tbilisi-Ceyhan Azərbaycan neftini qeyri-ənənəvi marşrutla dünya bazarına çıxarır.

* "Cənub qaz dəhlizi" Avropanın 10-dək ölkəsini təbii qazla təmin edir.

* Bakı-Tbilisi-Qars dəmir yolu yükdaşımaların sürətini xeyli artırıb.

* Orta dəhliz Mərkəzi Asiyanı Avropa ilə birləşdirən ən qısa yoldur.

*Azərbaycan özünün ən böyük problemini ən qısa zamanda və öz gücü ilə həll etdi:*

* 44 gündə 30 illik işğala son qoydu.

* XXI əsrin müharibələr tarixində yeni səhifə açdı.

* Qalib dövlət olsa da, sülh təşəbbüsü ilə çıxış etdi.

* Ərazi bütövlüyünü, dövlət suverenliyini təmin etməklə ərazisindəki separatizmin kökünü birdəfəlik kəsdi.

* Bu gün isə Cənubi Qafqazın sülh və əməkdaşlıq bölgəsinə çevrilməsi üçün əlindən gələni edir.

Azərbaycan həm də türk dövlətlərinin birliyinin ən fəal tərəfdaşlarından və *yaradıcılarından biridir.*

**Azərbaycanın müdrik və uzaqgörən rəhbəri, dünya liderləri sırasına yüksələn İlham Əliyev kimi Prezidenti var.**

**Üçillik rəhbərliyi dövründə Qoşulmama Hərəkatına yeni nəfəs verən cənab İlham Əliyev dünyanın ən aktual problemlərindən biri olan iqlim dəyişmələrinə də öz dəyərli töhfəsini verməkdədir.**

*Məhz Azərbaycan rəhbərinin təşəbbüsü və yüksək nüfuzu, dünya dövlətlərinin dəstəyi sayəsində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ölkəmizdə keçirilir.*

❖ ❖ ❖

**Ən yüksəksəviyyəli tədbirin Azərbaycanda keçirilməsi düşmən üzərində möhtəşəm Zəfər qazanan ölkəmizin həm də mənəvi qələbəsidir!**

Təbiidir ki, COP29-un Azərbaycanda keçirilməsini istəməyən bədxahlar, uğurlarımıza qısqanclıqla yanaşanlar da var.

Lakin Azərbaycanın son dövrlər gördüyü işlər, bir sıra dövlətlərlə yaratdığı iqtisadi-siyasi əlaqələr, beynəlxalq qurumların işində fəal və səmərəli iştirakı, I Avropa Oyunlarını, "Eurovision" müsabiqəsini, IV İslam Həmrəyliyi Oyunlarını yüksək səviyyədə keçirməsi bizi istəməyənlərin arzusunu gözlərində qoydu.

**Azərbaycan bu "yarışma"da da üstün gələrək iqlim dəyişmələri və ekoloji problemlərin uğurlu həlli üzrə məsləhətləşmələr aparılması, təbii fəlakətlərin qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsi üçün, habelə vəsait toplanmasının təşkilatçısı qismində bir daha özünü ən əlverişli məkan kimi təsdiq etdi.**

Azərbaycanın həm də buna nüfuzu və imkanı çatır.

Əlbəttə, 80 minədək insanı qarşılamaq, yerləşdirmək, tədbirlərdə iştirakına şərait yaratmaq, istirahətini və təhlükəsizliyini təmin etmək o qədər də asan məsələ deyil.

Lakin nəhəng tədbirlərin keçirilməsi sahəsində ölkəmizdə zəngin təcrübə qazanılmış, bütün zəruri infrastruktur yaradılmışdır.

*Bu gün paytaxt Bakıda hər bir qonaq özünü evində olduğu kimi hiss edir.*

*Artıq 196 ölkənin dövlət rəhbəri - 80 prezident, vitse-prezident və baş nazir ölkəmizə gəlmiş, COP29-un açılış mərasimi keçirilmişdir.*

Dünya mətbuatı möhtəşəm tədbirin gedişatını geniş şəkildə işıqlandırır.

❖ ❖ ❖

Dünyanın bir neçə nöqtəsində davam edən müharibələr, öz maraqlarını güdərək hamımızın dünyasına vurulan sağalmaz zərbələr sonda özümüzə qayıdır.

*Dünya həm də qisas almağın üsulunu da bilir.*

O, dəfələrlə şəhərləri sular altında qoymuş, dağıdıcı zəlzələləri ilə böyük yaşayış məntəqələrini yerlə yeksan etmişdir.

**Olanlardan nəticə çıxarmaq vacibdir, çünki dünyanın səbrini sınağa çəkmək olmaz!**

*Azərbaycan bu məqamda da sinəsini qabağa verərək müdriklik göstərir, təbii sərvətləri talanaraq ekologiyası pozulan, fəlakətlərin içində boğulan yoxsul ölkələrin xilasına çalışır.*

Sonda müdriklik və xeyirxahlıq qalib gəlir!

**İnanırıq ki, Azərbaycan Prezidentinin müdrik addımları, xoş və xeyirxah niyyətləri faydalı olacaq, dünya dövlətləri ağıllı hərəkətləri ilə iqlim dəyişmələrinin zərərli təsirlərinin qarşısının alınmasına gərəkli töhfələrini verəcəklər.**

Azərbaycan isə daha bir tarixi xeyirxahlığına öz imzasını atacaqdır!

**Bəxtiyar SADIQOV**

# Səudiyyə Ərəbistanı ilə "yaşıl enerji" tərəfdaşlığını genişləndirən sənədlər imzalanıb






**COP29 tədbiri çərçivəsində "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi layihəsi"ndə Səudiyyə Ərəbistanı Krallığının iştirakını təmin edən və Azərbaycanla "yaşıl enerji" əməkdaşlığını genişləndirən bir neçə sənəd imzalanıb.**

Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentlərinin iştirakı ilə Azərbaycanın energetika naziri Pərviz Şahbazov, Qazaxıstanın energetika naziri Almasadam Satkaliyev, Özbəkistanın energetika naziri Jurabek Mirzamahmudov və Səudiyyə Ərəbistanı Krallığının energetika naziri Şahzadə Əbdüləziz bin Salman Əl Səud tərəfindən "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Özbəkistan Respublikası və Səudiyyə Ərəbistanı Krallığının energetika nazirlikləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində İcra Proqramı" imzalanıb.

İmzalanan digər sənədlər "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının Energetika Nazirliyi arasında Enerji Əməkdaşlığı üzrə Yol Xəritəsi" və "Səudiyyə Elektrik Şirkəti (SEC) ilə "Azərenerji" ASC arasında elektrik enerjisi sahəsində bilik və təcrübə mübadiləsi üzrə anlaşma memorandumu"dur.

# Medianın İnkişafı Agentliyi və Albaniya Media və İnformasiya Agentliyi arasında anlaşma memorandumu imzalanıb

**Noyabrın 13-də Medianın İnkişafı Agentliyində Albaniya Respublikasının Media və İnformasiya Agentliyinin baş direktoru Alteo Husi ilə görüş keçirilib, tərəflər arasında anlaşma memorandumu imzalanıb.**



MEDİA-dan AZƏRTAC-a bildiriblər ki, görüşdə Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov media sahəsinə məsul qurumlar və media subyektləri arasında təcrübə mübadiləsinin aparılmasının və birgə layihələrin həyata keçirilməsinin, ümumilikdə uzunmüddətli qarşılıqlı səmərəli əməkdaşlığın qurulmasının önəmini diqqətə çatdırıb, dezinformasiyaya qarşı mübarizə və media savadlılığının artırılması istiqamətində səylərin gücləndirilməsinin vacibliyini vurğulayıb.

Albaniya Respublikasının Media və İnformasiya Agentliyinin baş direktoru Alteo Husi görüşün təşkilinə görə təşəkkürünü bildirib, səmərəli və faydalı tərəfdaşlıq münasibətlərinin qurulmasının informasiya sahəsində mövcud çağırışlara uyğun birgə tədbirlərin görülməsinə və yeni media formatlarının tətbiqinə imkan yaradacağını vurğulayıb, bu sahədə effektiv təcrübələrin paylaşılmasının zəruriliyi məsələlərinə toxunub.

Daha sonra Azərbaycan Respublikasının Albaniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri Anar Hüseynovun iştirakı ilə Medianın İnkişafı Agentliyi və Albaniya Respublikasının Media və İnformasiya Agentliyi arasında media və kommunikasiya sahəsində ən yaxşı praktikaların bölüşülməsi, məlumat və təcrübə mübadiləsi, qarşılıqlı fayda və maraq kəsb edən təşəbbüs və layihələr üzrə tərəfdaşlığın genişləndirilməsi, müvafiq sahəyə məsul rəsmi şəxslərin və ekspertlərin qarşılıqlı səfərlərinin təşviqi kimi əməkdaşlıq formalarını nəzərdə tutan anlaşma memorandumu imzalanıb.

COP29 Baku Azerbaijan

# COP29 çərçivəsində "Əməkdaşlığın gücü: xalis sıfır üçün birgə səylər" mövzusunda yüksəksəviyyəli sessiya təşkil olunub










**COP29 çərçivəsində İqtisadiyyat Nazirliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO və Dünya İqtisadi Forumunun təşkilatçılığı ilə "Əməkdaşlığın gücü: xalis sıfır üçün birgə səylər" mövzusunda Dünya İqtisadi Forumu ilə yüksəksəviyyəli sessiya keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov iqlim dəyişikliyinə qarşı birgə mübarizə səylərini ehtiva edən prinsiplər, bu sahədə yürüdülən qlobal siyasət və özəl sektorun töhfələri barədə fikirlərini bildirib.

Qeyd olunub ki, bu məsələdə müsbət dəyişikliklərin təmin olunması üçün inklüziv tədbirlərin davamlılığı və dayanıqlı inkişafa nail olmaq önəmlidir. Qlobal müstəvidə iqlim məsələləri kontekstində bütün xalqları ehtiva edən ədalətli yanaşma da mühüm məsələdir. Azərbaycanın davamlı artım və "yaşıl iqtisadiyyat" sahəsində hədəfləri və görülən işlər barədə məlumat verilib. Ölkəmizdə "yaşıl enerji" məqsədlərinə çatmaq üçün qabaqcıl texnologiyaların və innovativ həllərin hazırlanması yönündə məqsədyönlü tədbirlərə diqqət çəkilib, bu sahədə beynəlxalq əməkdaşlığın vacibliyi vurğulanıb.

Ümumdünya Ticarət Təşkilatının baş direktoru Nqozi Okonjo-İveala isə qlobal ticarət siyasətlərinin iqlim dəyişikliyinə uyğunlaşdırılması və bu kontekstdə inkişaf etməkdə olan ölkələrin dəstəklənməsinin vacibliyi barədə fikirlərini bildirib.

Özbəkistanın investisiya, sənaye və ticarət naziri Ləziz Kudratov qlobal iqlim dəyişikliklərinə qarşı beynəlxalq əməkdaşlıq, region ölkələrinin bu yöndə təşəbbüsləri, bərpaolunan enerji sahəsində birgə layihələrin reallaşdırılmasının önəmi barədə fikirlərini bildirib.

Dünya İqtisadi Forumunun icraçı direktoru və sessiyanın moderatoru Cim Huay Neo sıfır karbon emissiyasına keçid prosesinin iqtisadi artım və iş yerlərinin yaradılması üçün böyük imkanlar yaratdığını, həmçinin faydaların və xərclərin ədalətli şəkildə bölüşdürülməsini təmin etmək üçün birgə və hərtərəfli yanaşmanın əhəmiyyətini vurğulayıb.

"Boston Konsaltinq Qrup"un qlobal sədri və CEO İqlim Liderləri Alyansının həmsədri Riç Lesser 2019-2022-ci illər arasında ümumi emissiya səviyyəsini 10 faiz azaltmağa, eyni zamanda ümumi gəlirlərini 18 faiz artırmağa nail olduqlarını qeyd edib, iqlim fəaliyyətinə özəl sektorun daha çox cəlb edilməsi üçün dövlətlərlə daha sıx əməkdaşlığın vacibliyini vurğulayıb. Bildirilib ki, bu sahədə aydın siyasət və güclü tərəfdaşlıq mexanizmləri müsbət dəyişikliklər üçün həlledici əhəmiyyət daşıyır.

"Fortescue" şirkətinin icraçı sədri Endryu Forrest iqlim dəyişikliyi ilə mübarizədə enerjinin yaşıl mənbələrdən əldə edilməsinin əhəmiyyətini vurğulayıb. Bildirilib ki, bərpaolunan enerji sektoruna sərmayələrin artırılması və texnoloji yeniliklərin təşviqi sayəsində qlobal iqlim hədəflərinə çatmaq mümkündür.

Tərəflər iqlim böhranının həlli üçün qlobal səviyyədə birgə tədbirlərin zəruriliyini vurğulayıblar. Bütün dövlət, şirkət və vətəndaş cəmiyyəti qurumları ortaq məsuliyyəti qəbul etməyə və konkret fəaliyyət planları ilə iqlim dəyişikliklərinə qarşı mübarizəyə qoşulmağa çağırılıb.

# Baş Prokuror BMT-nin Baş katibinin müavini, Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru və Vyana ofisinin rəhbəri Qada Vali ilə görüşüb

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək məqsədilə ölkəmizə səfərə gələn beynəlxalq təşkilat və xarici dövlətlərin nümayəndə heyətləri ilə silsilə görüşlər keçirilir.**

Noyabrın 13-də baş prokuror Kamran Əliyev BMT-nin Baş katibinin müavini, Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru və Vyana ofisinin rəhbəri Qada Valinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ən yüksək səviyyədə təşkil olunduğunu bildirib.



Görüşdə COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən noyabrın 15-də keçiriləcək "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksəksəviyyəli sessiyası barədə danışan tərəflər birgə əməkdaşlığın əhəmiyyəti, ikitərəfli münasibətlərin möhkəmləndirilməsini qeyd ediblər.

Qada Vali səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkəmizdə keçirilən ən böyük iqlim konfransının - COP29-un Azərbaycanın sədrliyi ilə yüksək səviyyədə təşkil edildiyini vurğulayaraq istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığın genişlənəcəyinə əminliyini ifadə edib.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

# Azərbaycan 2024-2026-cı illər üçün ATACH-ın həmtəsisçisi seçilib

**COP29 çərçivəsində iqlim dəyişikliyinin sağlamlığa təsirinə dair panel müzakirələri aparılıb.**

Səhiyyə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə çıxış edən Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti **Muxtar Babayev** Tərəflər Konfransının iqlim həmrəyliyinin yaranmasına töhfə verəcəyini vurğulayıb, COP29-un bütün iştirakçı ölkələrini iqlim dəyişikliyinin mənfi hallarının aradan qaldırılmasına yönəlmiş səyləri daha da gücləndirməyə çağırıb.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru **Tedros Adhanom Gebreyesus** COP29-un qlobal ictimaiyyət üçün bir araya gələrək, praktik həlləri müəyyən etmək üçün mühüm fürsət olduğunu deyib.



Panel sessiyada çıxış edən Azərbaycanın səhiyyə naziri **Teymur Musayev** vurğulayıb ki, iqlim dəyişikliyinin vətəndaşların sağlamlığına və ölkələrin iqtisadiyyatına təsiri çoxşaxəlidir və getdikcə daha çox narahatlıq doğurur. Nazir bildirib ki, son onilliklər ərzində daşqın və quraqlıqlar kimi ekstremal təbiət hadisələrinin tezliyi artıb: "İstiliklə bağlı ölümlərin təxminən üçdəbiri artıq iqlim dəyişikliyi ilə bağlıdır. Eyni zamanda iqlim dəyişikliyi nəticəsində baş verən ekstremal hava fəlakətlərinin sayı son 50 ildə beş dəfə artıb".

Ekstremal hava hadisələrinin yoluxucu xəstəliklərin yayılması üçün ideal şərait yaratdığını qeyd edən nazir bildirib ki, iqlim dəyişikliyinin risk və mümkün təsirlərini minimuma endirən milli siyasətin qəbulu sağlamlığa təsirləri və onların iqtisadi nəticələrini məhdudlaşdırmağa kömək edə bilər.

"Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurla bağlı müəyyən etdiyi iqtisadi inkişaf kursunda bu ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi əsas istiqamətlərdən biri hesab olunur. Məqsəd həmin ərazilərdə yüksək potensiala malik bərpaolunan enerjidən istifadə etməklə həmin əraziləri ekoloji cəhətdən təmiz "yaşıl enerji" ilə təmin etmək və "yaşıl texnologiya"ların tətbiqi perspektivlərini araşdıraraq təkliflər formalaşdırmaqdır", - deyə səhiyyə naziri bildirib.

Sonra İqlim və Sağlamlığın Qorunması Naminə Transformasiya Alyansının (ATACH) yeni həmtəsisçisi seçilib. Azərbaycan yekdilliklə 2024-2026-cı illər üçün ATACH-ın həmtəsisçisi elan olunub.

Tədbirdə çıxış edən Tedros Adhanom Gebreyesus və səhiyyə naziri Teymur Musayev bildiriblər ki, Azərbaycan COP29-un sədri kimi ATACH-a qoşulur və 2024-2026-cı illərdə alyansın həmtəşkilatçısı kimi çıxış edəcək.

COP26 səhiyyə gündəliyi, COP27, COP28, COP29 və 77-ci Ümumdünya Səhiyyə Assambleyası tərəfindən qlobal iqlim və sağlamlıq təşəbbüslərinə əsaslanaraq, ATACH iqlim dəyişikliyi və sağlamlıqla bağlı tədbirləri gücləndirmək üçün mühüm qlobal əməkdaşlıq mexanizmi təqdim edir. Eyni zamanda alyans iqlim dəyişmələrinə davamlı və aşağıkarbonlu səhiyyə sistemlərinin qurulmasını hədəfləyir.

Azərbaycan alyansa qoşulmaqla dəyişən iqlim şəraitində ictimai sağlamlığın qorunması və təşviqi üçün mühüm əhəmiyyət kəsb edəcək iqlim dəyişikliklərinə davamlı səhiyyə sistemi istiqamətində addımların atılması öhdəliyini üzərinə götürüb.

Həmtəşkilatçılar kimi Ümumdünya Səhiyyə Təşkilatı və Azərbaycan Respublikası ATACH vasitəsilə iqlim və sağlamlıqla bağlı fəaliyyət üçün qlobal təkan yaratmaq məqsədilə keçmiş və gələcək COP prezidentləri, eləcə də bütün ATACH üzvləri ilə birgə işləməyə sadiqdirlər.

# Milli Məclisdə İtaliya parlamentinin nümayəndə heyəti ilə görüş olub

**Noyabrın 13-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvləri ölkəmizdə səfərdə olan İtaliya Respublikasının parlament nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov qonaqları salamlayaraq onların Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçirilən 29-cu sessiyasında (COP29) iştirakını yüksək qiymətləndirib. O, hazırda ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edərək Azərbaycan-İtaliya tərəfdaşlığının inkişafında hər iki ölkənin dövlət başçılarının mühüm rolundan söz açıb, əməkdaşlığımızın daha da möhkəmləndirilməsinin ölkələrimizin maraqlarına cavab verdiyini vurğulayıb.

İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Bakıda keçirilməsindən bəhs edən komitə sədri Azərbaycanın ətraf mühit problemlərinə həssaslıqla yanaşdığını diqqətə çatdırıb, ölkəmizin həyata keçirdiyi "yaşıl enerji" və "yaşıl texnologiya" layihələri barədə qonaqlara məlumat verib, Azərbaycanın Avropaya "yaşıl enerji" tədarükü ilə bağlı niyyətlərindən danışıb.



İtaliya Respublikası Deputatlar Palatasının Ekologiya komitəsinin sədri Mauro Rotelli səmimi qəbul üçün təşəkkür edib, COP29 kimi mötəbər tədbirin yüksək səviyyədə təşkili üçün Azərbaycana minnətdarlığını bildirib, tədbirin yekunlarının hər kəs üçün faydalı olacağını söyləyib.

Sonra Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavini Fatma Yıldırım, komitə üzvləri Eyvaz Qurbanov, Asif Əsgərov, İtaliya Respublikası Senatının üzvü Nikola İrto, Deputatlar Palatasının üzvü Marko Simiani ölkələrimiz arasındakı ikitərəfli və parlamentlərarası əlaqələrin inkişafı barədə fikirlərini bölüşüblər.

Görüş iqlim dəyişiklikləri ilə mübarizə və "yaşıl enerji"yə keçid kimi sahələrdə parlamentlərarası əməkdaşlıq məsələlərinin müzakirəsi ilə davam etdirilib.

Görüşdən sonra qonaqlar parlamentin plenar iclas zalı və Milli Məclisin foyesində yaradılmış Zəfər Guşəsi ilə tanış olublar.

Sonda görüş iştirakçıları xatirə şəkli çəkdiriblər.

*"Azərbaycan"*

COP29 Baku Azerbaijan

# Dünya Bakıda birləşir





## Azərbaycan COP29-a nümunəvi hazırlaşıb

**Azərbaycanın evsahibliyi ilə BMT-nin İqlim Dəyişmələri Üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı davam edir. Digər beynəlxalq əhəmiyyətli tədbirlərə uğurla evsahibliyi etmiş Bakı bu dəfə də qonaqları layiqincə qarşılayır, konfransın keçirilməsində özünəməxsus nümunə yaradır.**



Milli Məclisin deputatı Vüqar Bayramov qeyd edib ki, Azərbaycanın COP29-a hazırlığı nümunəvidir. Yalnız yerli deyil, beynəlxalq qiymətləndirmə də göstərir ki, Azərbaycan həm sistemli, həm ünvanlı şəkildə konfransa hazırlıq həyata keçirib. Konfrans iqlim dəyişiklikləri ilə bağlı olsa da, ölkəmiz üçün bir sıra iqtisadi dividendlər gətirəcək. COP29 həm iştirakçılıq səviyyəsinə, həm də statusuna görə dünyanın ikinci ən böyük tədbiri hesab olunur. İştirakçılıq səviyyəsinə görə qlobal baxımdan ciddi rəqabət aparıla bilinəcək tədbirdir. Nəzərə alsaq ki, 70 mindən artıq iştirakçı olur, bu da ondan xəbər verir ki, tədbirin keçirildiyi günlər ərzində kifayət qədər nümayəndə heyəti ölkəyə səfər edəcək", - deyə o bildirib.

Deputat vurğulayıb ki, bu, turizm və xidmət sektorunun inkişafı baxımından da vacibdir. Turizm üçün bu müddət yalnız gəlirlərin artması deyil, həm də potensial olaraq gəlirin yüksəlməsinə xidmət edir. Çünki tədbir növbəti mərhələdə də ölkəyə daha çox turistin gəlməsinə təkan verəcək. COP29, eyni zamanda Azərbaycanın potensialının təqdim olunması baxımından da əhəmiyyətlidir.

V.Bayramov bildirib ki, COP29 sayəsində Azərbaycana daha çox sərmayələr cəlb olunacaq: "Xüsusən cənab Prezident tərəfindən yeni dövrün yeni tələblərinə uyğun olaraq qeyri-neft sektoruna xarici investisiyanın cəlb olunması prioritetlərdən biri kimi müəyyənləşdirilib. Bu baxımdan COP29 enerjidən kənar sektorlara sərmayənin cəlb edilməsinə töhfə verəcək. Digər vacib məqamlardan biri də COP29-dan sonra qarşılıqlı və birtərəfli müqavilələrin, anlaşmaların və birgə layihələrin həyata keçirilməsi ilə bağlıdır. Nəticə etibarilə konfrans fərqli ölkələr və şirkətlərlə daha çox layihələrin reallaşmasına və investisiya layihələrinin birgə fəaliyyətinin həyata keçirilməsinə zəmin yaradacaq. Ona görə də COP29 Azərbaycan üçün həm də iqtisadi dividendlərə malik tədbirdir".

Deputat qeyd edib ki, COP bütövlükdə qeyri-neft sektorunun inkişafını stimullaşdıran tədbir hesab olunur.

***Ə.QABİLQIZI,***
***"Azərbaycan"***

# Azərbaycan həqiqətlərinin təntənəsi

**"Elm və texnikanın inkişafı, həmçinin Yer kürəsinin əhalisinin sayının sürətlə artması fonunda bu gün dünyanı narahat edən və insanlığı təhdid qarşısında qoyan əsas problem, şübhəsiz ki, iqlim dəyişiklikləridir. Ötən dövrün statistikası da narahatlıq üçün kifayət qədər əsaslar olduğunu nümayiş etdirməkdədir".**

**Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib.**



O bildirib ki, XVIII əsrdən başlayan sənayeləşmə, xüsusən XX əsrin ortalarından sonra planetin iqlim sisteminə mənfi təsirləri artıq insan həyatında açıq formada hiss edilməkdə, bu çərçivədə digər atmosfer tullantıları ilə yanaşı, istixana effekti yaradan qazların sürətli artımı yaşanmaqdadır. Nəticədə son bir əsrdə planetin orta temperatur göstəriciləri 0,8 dərəcə artıb ki, bu da bir qayda olaraq istilik effekti yaradan qazların təsiri ilə baş verib. "Beləliklə, son 200 ildə atmosferdə karbon qazının ümumi miqdarı 30 faizə, metanın miqdarı isə 60 faizə yaxın artıb ki, bu da real təhlükə deməkdir. Təbii ki, qlobal iqlim dəyişikliklərinin səbəb olduğu problemlər Azərbaycandan da yan keçməyib, nəticə etibarilə son bir əsr ərzində ölkəmizdə orta illik temperatur 1,3 dərəcəyə qədər yüksəlib. Bu da çoxsaylı ekoloji problemlərə yol açmaqda, şoranlaşma, deqradasiya, səhralaşma, yağıntıların və su ehtiyatlarının azalması kimi çoxsaylı təsirlər əhalinin sosial rifahına da təhdid yaratmaqdadır", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, Azərbaycan da bu reallıqları rəhbər tutaraq beynəlxalq birliyin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişikliklərinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini vermək üçün müxtəlif istiqamətlərdə kompleks tədbirlərə start verib. Xüsusən Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə effektiv fəaliyyət gündəliyi başlayıb. Belə ki, 1995-ci ildə Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivəsi Konvensiyasını ratifikasiya edib, həmçinin bu mexanizmin qarşısında istilik effekti yaradan qaz tullantılarının kadastrının hazırlanması, müntəzəm olaraq yenilənməsi, həmçinin bu sahədə milli məlumatların hazırlanması kimi çox önəmli öhdəliklər götürüb və bunlar sistemli şəkildə yerinə yetirilib. 2000-ci ildə Azərbaycan İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Kioto protokolunu təsdiq edib və bu sənəd üzrə öhdəliklərin yerinə yetirilməsinin ikinci dövrü üçün qəbul edilmiş Doha əlavəsini ratifikasiya edib. Həmçinin 2015-ci ilin sentyabr ayında BMT-nin Sammitində 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində gündəliyin qəbul olunması ilə qlobal subyektlərin 15 il ərzində heç kəsi kənar qoymamaq prinsipini rəhbər tutaraq digər məsələlərlə yanaşı, iqlim dəyişikliklərinə qarşı mübarizənin vacibliyi və bu istiqamətdə dünya ictimaiyyətinin səfərbər olunması ilə bağlı iradi ifadəsindən sonra Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının katibliyinə Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr adlı sənədini təqdim edərək iqlim dəyişikliklərinin qlobal miqyasda qarşısının alınmasında təşəbbüslərinə töhfə olaraq baza ili, yəni 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana effekti yaradan qaz emissiyalarının 35 faiz həcmində azaldılması ilə bağlı hədəflərini bəyan etmişdi.

B.Məhərrəmov xatırladıb ki, Azərbaycan 2016-cı ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına əlavə olan Paris Sazişini imzalayıb: "Üç il əvvəl isə Qlazqo şəhərində keçirilmiş BMT-nin İqlim Dəyişmələri Üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 26-cı sessiyasında, yəni COP26-da ölkəmiz rəsmi olaraq iqlim dəyişikliklərinin təsirini azaltmaq məqsədilə təşəbbüslərə töhfə olaraq 2050-ci ilə qədərki dövrdə istixana effekti yaradan qaz emissiyalarını 40 faizə qədər azaldılmasını hədəf kimi müəyyən edib.

Nəzərə almalıyıq ki, Azərbaycan yalnız öhdəliklər götürməklə kifayətlənmir, bu istiqamətdə effektiv nəticələrə nail olmaqdadır. Məsələn, 1990-2022-ci illər üzrə istilik effekti yaradan qaz emissiyalarının inventarlaşmasına əsasən, Azərbaycan ötən 32 illik dövrdə 34,2 faiz azalmaya nail olmaqla ölkədə həyata keçirilən ekoloji siyasətin doğru istiqamətdə davam etdirildiyini göstərib. Azərbaycan 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair 5 milli prioritetindən biri kimi təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi olmağı müəyyən etməklə, buna uyğun olaraq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi, tükənməyən enerji mənbələrindən istifadənin genişləndirilməsi, istilik-elektrik stansiyalarında mazutdan istifadənin dayandırılaraq daha təmiz yanacaq olan təbii qaza keçilməsi ilə bağlı proseslərin, demək olar ki, yekunlaşması, məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsi, müasir avtomobil yollarının çəkilməsi, müasir aqroparkların yaradılması, yeni meşə massivlərinin salınması, bərpaolunan enerji tullantılarının effektiv idarə edilməsi texnologiyalarının tətbiq olunması və sairə kimi ciddi addımlar ataraq bu istiqamətdə iradi ifadəsini ortaya qoyub".

Deputat qeyd edib ki, Ermənistanın 30 ildən artıq həyata keçirdiyi işğalçılıq siyasəti nəticəsində Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgəsi, bütövlükdə Livan ölçüdə ərazi ciddi ekoloji böhranla üz-üzə qalıb, bu ərazidə törədilən ekosid bütövlükdə dünya tarixində misli görünməyən nəticələrə gətirib çıxarıb. Təəssüflə qeyd etməliyik ki, Ermənistanın dövlət siyasəti çərçivəsində törətdiyi ekoloji cinayətlərin çoxunun nəticələrinin aradan qaldırılması ya mümkün deyil, ya da bu istiqamətdə Azərbaycana uzun bir dövr lazım olacaq. Məhz bu situasiyanı rəhbər tutaraq Prezident İlham Əliyevin iradəsi ilə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan edilib. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ekoloji prinsiplər prioritet olaraq müəyyən edilib. Təsadüfi deyil ki, həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq etmək və ekoloji mühit dostu konfiqurasiya formalaşdırmaqla Azərbaycan ekoloji problemlərin tüğyan etdiyi bir bölgəni tamamilə yeni simaya çatdırılması istiqamətində fəaliyyətə start verib. Sirr deyil ki, Azərbaycan tarixən qazıntı yanacağı ölkəsi olub, dövlətin və xalqın sosial-iqtisadi inkişafının bir çox aspektləri məhz neft-qaz sənayesi ilə bağlı olub. Lakin Prezident ciddi iradə ortaya qoyaraq "yaşıl enerji" növlərinin yaradılması və dünya bazarlarına nəqli istiqamətində Azərbaycanın enerji siyasətinin yeni prioritetlərini müəyyən etməklə tamamilə yeni bir dövr başladıb. Ölkəmiz elektrik enerji istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payını yaxın 5 il ərzində 30 faizə çatdırılmasını hədəfləyir və bu istiqamətdə artıq real addımlar atılmaqdadır. Bu isə o deməkdir ki, Azərbaycanı qazıntı yanacağına sahib ölkə olmaqda günahlandıran dövlətlərdən fərqli olaraq ölkəmiz "yaşıl dünya" naminə həmrəylikdə səmimidir və hələ də kömür və digər yanacaq növlərindən üstünlük verən bir çox Avropa dövlətlərindən fərqli olaraq artıq "yaşıl enerji"yə keçid üçün önəmli bazis formalaşdıra bilib. Bu mənada BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası kimi mötəbər tədbirin Azərbaycanda keçirilməsi ölkəmizin bu istiqamətdə ortaya qoyduğu effektiv səylər fonunda qiymətləndirilməlidir. "Daha konkret desək, bu gün dünya birliyinin qərəzsiz və ikili standartlardan uzaq düşünən hər bir subyekti tam şəkildə Azərbaycanın qlobal iqlim dəyişmələri üzrə beynəlxalq səyləri birləşdirmək cəhdinə səmimi şəkildə inanır və bu istiqamətdə dövlətimizin töhfə verəcəyinə əmindir. Ötən dövr ərzində Azərbaycanın Qoşulmama Hərəkatının sədri qismində bir sıra problemlər, o cümlədən COVID-19-la mübarizədə, həmçinin vaksin millətçiliyinin aradan qaldırılması istiqamətində beynəlxalq səyləri uğurla birləşdirməsi, habelə Fransa və oxşar beynəlxalq subyektlərin müstəmləkə siyasətinə qarşı beynəlxalq təşəbbüsləri ələ alması fonunda iqlim dəyişiklikləri ilə mübarizədə də Azərbaycanın uğurlu liderlik nümunəsi ortaya qoyacağına şübhə yoxdur. COP29-a Azərbaycanın evsahibliyi etməsinin həm də ciddi siyasi əhəmiyyəti var. İlk növbədə məlumdur ki, Azərbaycan beynəlxalq hüququn aliliyini rəhbər tutaraq özünün beynəlxalq hüquqla tanınan ərazilərində işğala və təcavüzə, habelə separatizmə son qoymasının ardınca bir sıra qərəzli və təcavüzkar mahiyyətə malik dövlətlərin qarayaxma, böhtan və ikili standartlara əsaslanan hücumlarına məruz qalıb", - deyə o əlavə edib.

Deputat bildirib ki, Azərbaycanın separatizmə son qoyaraq suveren haqlarını bərpa etməsindən sonra başlanan çoxsaylı hücumlar fonunda COP29 kimi mötəbər tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə böyük hörmət və etimadı, həmçinin Azərbaycanın milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişikliklərinin qarşısının alınması işində töhfəsinin təqdir olunmasının bariz nümunəsidir. Azərbaycanın yaratdığı yeni reallıqlar fonunda COP29 kimi mötəbər tədbirə evsahibliyinin verilməsi ölkəmizin yaratdığı yeni geosiyasi reallığı dəstəkləyərək anti-Azərbaycan mövqe tutmuş və özünü "beynəlxalq ictimaiyyət" kimi təqdim edən ayrı-ayrı güclərə real beynəlxalq ictimaiyyətin kim olduğunu və Azərbaycana əsl münasibətini göstərdi. Bu da ölkəmizin ciddi siyasi, diplomatik qələbəsi hesab olunmalıdır. Bu gün beynəlxalq ictimaiyyət cənab İlham Əliyevin liderliyində qlobal iqlim dəyişmələri ilə mübarizədə Azərbaycanın səylərinin effektivliyinə inanır və COP29-un substantiv nəticələrə gətirib çıxaran formatda yekunlar ortaya qoyacağına ümid edir. Lakin bir sıra dövlətlərin COP29 Sammitində iştirak etməmək barədə qərarı bir daha göstərir ki, beynəlxalq ictimaiyyətin bəzi üzvləri cılız niyyətlərlə yaşayır və bəşəriyyət qarşısında məsuliyyətini dərk etmir.

Siyasətçi qeyd edib ki, Azərbaycanda COP29 tədbirində iştirak etməmək barədə verilən istənilən qərar, əslində, beynəlxalq subyektlərin əsl mahiyyətinin ifşa edilməsidir. Çünki qlobal iqlim dəyişiklikləri ilə mübarizə istiqamətində Çərçivə Konvensiyasının iştirakçılarının əsas məqsədi iqlim dəyişiklikləri ilə mübarizə qismində bəşəri niyyətlər naminə səylərini birləşdirmək, bu sahədə mümkün töhfələrin verilməsi üçün bərabərsizliklər, qarşılıqlı anlaşılmazlıqlar başda olmaqla, çoxsaylı maneələri aradan qaldırmaqdır. Lakin bəzi subyektlərin COP29 Sammitinə qatılmayacağı barədə qərar verməsi və gətirilən bəhanələrin ümumbəşəri niyyətlər qarşısında cılızlığı onu deməyə əsas verir ki, əslində, bu subyektləri iqlim dəyişiklikləri də daxil olmaqla, qlobal təhlükəsizlik və insan amili maraqlandırmır. Aydındır ki, qlobal iqlim dəyişiklikləri ilə mübarizə istiqamətində Çərçivə Konvensiyasının iştirakçılarının əsas məqsədi iqlim dəyişiklikləri ilə mübarizə qismində bəşəri niyyətlər naminə səylərini birləşdirmək, bu sahədə mümkün töhfələrin verilməsi üçün bərabərsizliklər, qarşılıqlı anlaşılmazlıqlar başda olmaqla, çoxsaylı maneələri aradan qaldırmaqdır. Görünən odur ki, bu subyektlər Azərbaycanın Vətən müharibəsi və antiterror tədbirləri ilə beynəlxalq hüququn aliliyini təmin edərək suverenliyini və ərazi bütövlüyünü bərqərar etməsini Qərb imperializminin rakursundan qiymətləndirərək heç bir formada həzm etmək istəmir və verilən qərarlar da onu göstərir ki, həmin qüvvələr ölkəmiz əleyhinə başlanan qarayaxma kampaniyasının iştirakçılarıdır.

B.Məhərrəmov bildirib ki, iqlim dəyişiklikləri ilə mübarizə ayrıca heç bir dövlətin, o cümlədən, Azərbaycanın daxili məsələsi deyil: "Yəni ümumbəşəri məsələ olan iqlim dəyişiklikləri ilə mübarizədə hər hansı dövlətin belə bir tədbirdə iştirakdan imtina etməsi Qərb imperializmi üçün ümumbəşəri məsələlərdən daha öndə təcavüzkar niyyətlərin və qeyri-proporsional maraqların dayandığını göstərir. Əslində, COP29-da iştirakdan cılız bəhanələrlə imtina planetin əsas çirkləndirici subyekti rolunda çıxış edənlərin öz məsuliyyətindən yayınması bəşəri dəyərləri cılız məqsədlərə qurban verməsi, iqlim dəyişiklikləri ilə mübarizə çərçivəsində bu subyektlərin yeni iqlim maliyyəsi formatından məsuliyyətsizliklə boyun qaçırmasıdır. Öz sərhədlərindən min kilometrlərlə kənarda münaqişə ocaqlarının qızışdırılması və ya yeni münaqişələrin formalaşdırılması, bu məqsədlə revanşist kəsimə dəstək verilməsi, separatizmin təşviq olunması üçün milyonlarla vəsait xərcləyənlər ümumbəşəri təhdid olan qlobal istiləşməyə qarşı maliyyə dəstəyi ayırmaq əvəzinə, yaxud bu istiqamətdə ən azı özlərinin vurduğu zərərin təsirlərinin azaldılması istiqamətində sosial məsuliyyət nümunəsi ortaya qoymaqdansa, müxtəlif bəhanələrlə qlobal iqlim dəyişiklikləri ilə mübarizə sahəsində əsas olan və dünyanın nəbzinin döyündüyü tədbirdən yayınmaqla öz kürsülərindən bu istiqamətdə səslənən bəlağətli nitqlərin puç olduğunu, əslində, bu qurumların iqlim dəyişikliyinə töhfə vermək iradə və niyyətində olmadığını nümayiş etdirir".

Deputat vurğulayıb ki, bu subyektlərin COP29-la bağlı mövqeyi Azərbaycanın liderliyində bu istiqamətdə həyata keçiriləcək tədbirlərin realizəsi qarşısında əngəl kimi çıxış etmir, əksinə, siyasi məqsədlərin alətinə çevrilən bu subyektlərin özlərini çətin duruma salır. Azərbaycanın bu istiqamətdə yolu kifayət qədər aydındır və COP29-a start verilən andan dünya ictimaiyyətinin artan marağı isə göstərir ki, Prezident İlham Əliyev bu sahədə qarşıya qoyulan məqsədlərə uğurla nail olmaqdadır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

COP29 Baku Azerbaijan

# Dünya mediası COP29-dan yazır

# "Liderlərin iqlim zirvəsi"

**Bakıda davam edən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) beynəlxalq aləmdə böyük maraq var. Dünyanın aparıcı KİV-inin əsas xəbər başlıqlarını COP29-la bağlı ən son məlumatlar bəzəyir. Bəzi televiziyalar və agentliklər Bakıdan canlı bağlantı qururlar.**

İtaliyanın aparıcı medialarında Bakıda keçirilən COP29 Liderlər Sammitinin açılış mərasimi ilə bağlı məqalələr yayılıb. "La Reppublica" qəzeti, ANSA, "Rai" informasiya agentlikləri və "Qui Finanza", "3b Meteo", "Venezia Today", "Wired", "Avvenire" kimi portalların yaydığı materiallarda COP29-da iştirak edən müxtəlif ölkələrin dövlət və hökumət başçılarının diqqətinin iqlim dəyişikliyi ilə mübarizəyə yönəldiyini bildirirlər.

**"La Reppublica" qəzetinin** hazırladığı məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin Liderlər Sammitinin açılış mərasimindəki çıxışında COP29-a evsahibliyi edən ölkəmizə ünvanlanan tənqidlərə sərt cavab verdiyi vurğulanır: "Azərbaycan COP29-a ev sahibi seçildikdən dərhal sonra biz əlaqələndirilmiş və yaxşıca təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildik. Qərbin yalan xəbər mediası, dırnaqarası müstəqil QHT-ləri və bəzi siyasətçiləri sanki ölkəmiz haqqında dezinformasiya və səhv məlumatın yayılmasında yarışa çıxıblar. Neftimizin olmasında bizi ittiham etmək bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamağa bənzəyir".

**"Rai" İnformasiya Agentliyində** Azərbaycan Prezidentinin təbii sərvətlərin Tanrının bəxş etdiyi hədiyyə olduğunu vurğuladığı bildirilir: "Hər bir təbii sərvət - istər neft, qaz, külək, günəş, qızıl, gümüş və mis - bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmamalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər". Materiallarda Azərbaycan Prezidentinin bu fikirlərinə yer verilib: "Dünyada birnömrəli neft və qaz hasilatçısı olan, Azərbaycandan 30 qat artıq neft hasil edən ölkənin yalan xəbər mediası bizi neft dövləti adlandırır. Yaxşı olardı ki, ən azı onlar özlərinə və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar".

**"Venezia Today" nəşrinin** hazırladığı reportajda isə Prezident İlham Əliyevin 2022-ci il enerji böhranından sonra məhz Avropa İttifaqının Azərbaycandan daha çox təbii qaz tədarük etməsini xahiş etdiyini xatırlatdığı qeyd olunur. Yazıda BMT-nin Baş katibi Antonio Quterreşin və Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayevin fikirlərinə də yer verilib. İtki və Zərərlərə Cavab Fondunun 2025-ci ildə həssas ölkələrə maliyyə vəsaitləri ayıracağı bildirilib.

Böyük Britaniyanın məşhur **BBC televiziyası** da Bakıdan davamlı olaraq canlı yayımlar edir. Eləcə də, tədbirdə səslənən önəmli fikirləri paylaşır. Kanalın son paylaşımında qeyd edilir ki, Azərbaycan Prezidenti İlham Əliyev ölkəsinin "neft dövləti" kimi göstərilməsinə etiraz edir: "Çünki Azərbaycan dünya qazının cəmi 0,1 faizini istehsal edir".

BBC həmçinin xəbər verir ki, Böyük Britaniyanın Baş naziri Keir Starmerin dünya liderlərinin əksəriyyətinin Bakıda toplaşdığı bir vaxtda çıxış edəcəyi gözlənilir: "Sammitdə iştirak edən liderlər, həmçinin dövlətlərin 2015-ci ildə Paris Sazişində müəyyən edilmiş hədəf kimi uzunmüddətli qlobal temperatur artımını $1{,}5^0$C-yə qədər necə məhdudlaşdıracaqlarını müzakirə edəcəklər".

Türkiyənin **"Akşam" qəzeti** "Dünya liderlərinin iqlim zirvəsi" başlıqlı xəbəri manşetdə verib. Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin COP29-un Liderlər Sammitinin açılışındakı nitqi barədə ictimaiyyətə məlumat verilib, sammitin gündəliyindən və Türkiyə Respublikasının liderinin səfər proqramından danışılıb.

**"Haber Global" telekanalı** tamaşaçıların diqqətini COP29 ilə bağlı Azərbaycana qarşı aparılan dezinformasiya və yalan kampaniyasına cəlb edib. Telekanal Prezident İlham Əliyevin Azərbaycan iqlim sammitinin təşkilatçısı seçilən kimi respublikaya qarşı mütəşəkkil və razılaşdırılmış böhtan kampaniyasına başlanılması barədə fikirlərini efirə verib. Azərbaycanın dövlət başçısı deyib ki, özlərini müstəqil adlandıran bəzi QHT-lər və siyasətçilər sanki Azərbaycan haqqında daha çox yalan və dezinformasiya yaymaq üçün bir-biri ilə rəqabət aparırlar.

**"Takvim" qəzetində** yer alan "Bakıda zirvə var" adlı məqalədə isə Azərbaycanın erməni işğalından azad edilmiş ərazilərinin bərpası istiqamətində göstərdiyi səylərə, o cümlədən respublikanın bu hissəsində "yaşıl layihə"lərin həyata keçirilməsinə də diqqət yönəldilib. Oxuculara Azərbaycanın iştirakı ilə həyata keçirilən, Avrasiyada enerji və nəqliyyat marşrutlarını dəyişdirən meqalayihələr barədə məlumat verilib. Qlobal müzakirələrin davam etdiyi Bakı Olimpiya Stadionunun ərazisində Türkiyənin dövlət başçısının tədbirlərdə iştirakını əks etdirən şəkillər və videogörüntülər yayımlanıb.

Türkiyənin ekoloji sahədəki səylərinin uğurlu nümunəsi kimi Türkiyə liderinin xanımı Əminə Ərdoğanın təşəbbüsü ilə həyata keçirilən "Sıfır Tullantı" təşəbbüsündən də bəhs edilib.

Azərbaycanda keçirilən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası Səudiyyə Ərəbistanının media qurumlarının diqqət mərkəzindədir.

Krallığın Londonda nəşr olunan **"Əş-Şərq Əl-Ausət" qəzetində** "COP29-un müəyyən edilmiş Prezidenti: Biz ədalətli iqlim ambisiyaları və davamlı maliyyələşdirməni hədəfləyirik... və Səudiyyə Ərəbistanının səylərini yüksək qiymətləndiririk" başlıqlı məqalə dərc olunub. Məqalədə vurğulanıb ki, COP29-un prezidenti Muxtar Babayev ambisiyaları artırmaq, 1,5 dərəcə hədəfinə nail olmaq və iqlim dəyişmələrinə qarşı fəaliyyətə imkan yaratmaq üçün konfransın aydın baxışa malik olduğunu diqqətə çatdırıb. Bildirilib ki, Azərbaycan rəsmisi Səudiyyə Ərəbistanının kritik iqlim problemlərinin həllində səylərini yüksək qiymətləndirib. Qeyd olunub ki, Azərbaycan noyabrın 22-dək davam edəcək COP29 konfransına evsahibliyi edir və burada əsas prioritet iqlimin maliyyələşdirilməsi üçün yeni hədəfin razılaşdırılması olacaq.

Səudiyyə Ərəbistanının nüfuzlu **"Ər-Riyad" qəzeti** isə oxucularını Almaniyanın xarici işlər naziri Annalena Berbokun açıqlamaları ilə tanış edib. Qəzetin "Dünya liderləri COP29 konfransında toplanırlar" başlıqlı məqaləsində BMT-nin illik iqlim konfransının inkişaf etməkdə olan ölkələrə istixana qazlarının emissiyalarını azaltmaq və iqlim dəyişikliyinə uyğunlaşmaq üçün yeni maliyyə yardımının hədəflənməsi ilə yekunlaşmalı olduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, yeni hədəf 2009-cu ildə qarşıya qoyulan və 2022-ci ildə çətinliklə reallaşdırılan yüz milyard dollarlıq hədəfi əvəz edəcək.

Məqalədə Bakıda qəbul ediləcək qərarların iqlim dəyişikliyi ilə mübarizəyə və 1,5°C həddinə riayət olunmasına əhəmiyyətli dərəcədə təsir göstərə biləcəyi bildirilib. Qeyd olunub ki, Almaniyanın xarici işlər naziri Annalena Berbok qlobal istiləşmə nəticəsində yaranan ciddi təhlükələr barədə xəbərdarlıq edib.

COP29 Liderlər Sammitinin açılış mərasimi və Prezident Rəcəb Tayyib Ərdoğanın qlobal müzakirələrdə iştirakı Türkiyə mediasında mərkəzi mövzulardan biri olaraq qalır. Türkiyədəki telekanalların, qəzetlərin və xəbər qaynaqlarının gündəmi məhz bu məsələlərə həsr olunub.

Qazaxıstanın **"Akorda.kz" portalı** isə xəbər verir ki, ölkə Prezidenti Kasım-Jomart Tokayev Bakıda COP29 Dünya İqlim Sammiti çərçivəsində nümayəndə heyətlərinin rəhbərləri ilə qısa görüşlər keçirib: "O, Böyük Britaniyanın Baş naziri Kir Starmer, BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan, Moldova Prezidenti Maya Sandu, Monqolustan Prezidenti Uxnaaqiyn Xurelsux, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Tacikistan Prezidenti Emoməli Rəhmon və digər yüksəkvəzifəli şəxslərlə danışıb". Qeyd edilib ki, görüşlər zamanı müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri, qlobal iqlim gündəliyindəki məsələlər, o cümlədən beynəlxalq strukturlar çərçivəsində qarşılıqlı fəaliyyət müzakirə edilib.

Belarusun **"Belta" Agentliyi** xəbər verir ki, Bakıda keçirilən COP29 sammitində Belarus Prezidenti Aleksandr Lukaşenko iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal fəaliyyət təkliflərini səsləndirib. Prezident bəyan edib ki, iqlim dəyişib və bu, artıq faktdır: "Ona görə də əsas vəzifə milli iqtisadiyyatların, ilk növbədə, kənd təsərrüfatının dəyişmiş şərtləri nəzərə alaraq yenidən konfiqurasiya edilməsi, yeni şəraitə uyğunlaşdırılmasıdır".

Aleksandr Lukaşenko vurğulayıb ki, Belarus bu mövzuda fəal iştirak edir və öz təcrübəsini bölüşməyə hazırdır. Dövlət başçısı inkişaf etməkdə olan ölkələrin milli maraqlarına xələl gətirmədən "yaşıl texnologiya"lara bərabər çıxış əldə etmələrinə kömək göstərməyə çağırıb.

Tacikistanın məşhur **"Centralasia.news" portalında** yayımlanan məqalədə qeyd edilib ki, Azərbaycanın paytaxtında dünyanın 196 ölkəsinin nümayəndələrini bir araya gətirən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyası öz işinə başlayıb. COP29 qlobal iqlim siyasətinin müzakirəsi üçün ən nüfuzlu və genişmiqyaslı platformalardan biri kimi özünü təsdiq edib. Konfransda iqlim dəyişikliyinin təsirlərini minimuma endirmək və enerjiyə keçid prosesini sürətləndirmək üçün effektiv həllərin tapılmasına həsr olunmuş bir sıra müzakirələr aparılacaq.

Qeyd edilib ki, cari sessiyanın özəl xüsusiyyəti maliyyənin diqqət mərkəzində olmasıdır - təşkilatçılar tədbiri "maliyyə COP-u" adlandırırlar. Gündəliyin əsas məsələsi iqlim dəyişikliyi ilə mübarizəyə yönəlmiş fəaliyyətlərin maliyyələşdirilməsi üçün yeni qlobal məqsədin müəyyən edilməsi olacaq. Bu qərar beynəlxalq iqlim təşəbbüslərinə maliyyə dəstəyinin həcmini və mexanizmlərini müəyyən etmək üçün nəzərdə tutulub.




*Hazırladı:*
*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Bakıdan dünyaya ədalət çağırışı





## Qlobal ekoloji tədbirin Bakıda keçirilməsini həzm edə bilməyənlərin istəkləri baş tutmadı

### Birinci vitse-prezident Mehriban xanım ƏLİYEVA: "COP29 siyasi hücumlar arenası deyil, iqlim böhranı qarşısında hamımızın birləşdiyi məkandır"

**İstər siyasi, istərsə də iqtisadi beynəlxalq tədbirlər üçün bu gün ölkəmiz sınanmış ünvandır. Tarixi ədalətin təntənəsi olan 44 günlük Vətən müharibəsindən sonra da beynəlxalq hüquqa hörmətlə yanaşan dövlətlər üçün Azərbaycanın bu imici dəyişməmiş, əksinə, daha da möhkəmlənmişdir.**









Təəssüf ki, bunu həzm edə bilməyən, erməni lobbisinin təsiri altında olmaqla ikili standartlar nümayiş etdirən bəzi Qərb dairələri bunu qəbul etmək istəmirlər, əksinə, hər fürsətdə hibrid təhdidlər vasitəsilə Azərbaycana təzyiq göstərməyə çalışırlar. Xüsusən də Azərbaycanda keçirilən beynəlxalq tədbirlər öncəsi ölkəmizə qarşı böhtan dolu, ədalətsiz informasiya hücumları təşkil edirlər. Belə ucuz informasiya hücumlarının dəfələrlə şahidi olmuşuq. Bu, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) başlanmasına bir neçə ay qalmış daha intensiv xarakter almağa başladı. Bəzi Qərb dairələri mediada və sosial platformalarda ölkəmizin əleyhinə kampaniya aparmaqla qlobal tədbirə kölgə salmağa çalışdılar. Əsas məqsədləri COP29-un Bakıda keçirilməsinin qarşısını almaq, Azərbaycana siyasi təzyiq göstərmək, xüsusən də saxlanılan erməni hərbi cinayətkarların azad edilməsinə nail olmaq idi.

Aydındır ki, Azərbaycanın müstəqil siyasət aparması ABŞ-nin və Avropanın bəzi dairələrini qane etmir. Bu səbəbdən onlar birbaşa erməni lobbisinin dəstəyi ilə Bakının artan nüfuzunu boğmağa çalışırlar. Amma, necə deyərlər, "sən saydığını say, gör fələk nə sayır". Artıq dördüncü gündür COP29 fəaliyyət göstərir, dünyanın gözü Azərbaycandadır. Dünya liderlərinin COP29 çərçivəsində keçirilən yüksəksəviyyəli tədbirinin tribunasından Prezident İlham Əliyev arzusu ürəyində qalanlara sərt ismarışını göndərdi: "Mənim sonuncu mesajım o dairələrədir ki, onlar demək olar, artıq bir ildir boykotu təşviq edirlər. Onlar əllərində olan bütün vasitələrdən istifadə edirlər ki, Bakıdakı COP29-a qarşı boykot kampaniyası həyata keçirilsin. Onlara pis xəbərim var: bizim 196 ölkədən 72 min qeydiyyata alınmış iştirakçımız var. Onların arasında 80 prezident, vitse-prezident və baş nazir var. Beləliklə, dünya Bakıda toplaşıb və biz dünyaya deyirik ki, "Azərbaycana xoş gəlmisiniz!"

Yüksək səviyyədə keçən COP29-un "mavi" və "yaşıl zona"sında mühüm məsələlər müzakirə olunur, rəsmi və qeyri-rəsmi görüşlər baş tutur. Yalnız bir tədbirin adını çəkməklə qlobal sessiyanın nə qədər əhəmiyyətli olduğunu görmək olar. Konfransın ilk günündə Azərbaycan "Uşaqlar, Gənclər və İqlim Fəaliyyəti Bəyannaməsi"ni imzalayaraq iqlim siyasətində uşaqları ön plana çəkmək öhdəliyi götürüb. Bu bəyannamə inklüziv, uşaqlar və gəncləri rəhbər tutan iqlim siyasətlərini və fəaliyyətlərini sürətləndirmək üçün yerli və qlobal səviyyələrdə qəbul edilmiş ilk belə çərçivədir. İqlim dəyişmələri uşaqların sağlamlığına, inkişafına, təhlükəsizliyinə və əsas xidmətlərə çıxışına ciddi təsir göstərir. Bir milyarda yaxın uşaq, yəni dünya uşaqlarının yarısı iqlim dəyişmələri və çirklənmənin təsirlərindən son dərəcə yüksək risk altında olan ölkələrdə yaşayır.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Simon Stiell COP29-un açılışındakı çıxışında demişdir: "Bir COP bütün dünyanın ehtiyac duyduğu transformasiyanı edə bilməz. Əgər dünya dövlətlərinin ən azı üçdəikisi tullantıları tez bir zamanda azalda bilmirsə, o zaman bu, hər bir dövlətə baha başa gələcək. Əgər dövlətlər təchizat zəncirlərində möhkəmlik qura bilməsələr, bütün qlobal iqtisadiyyat çökəcək. Beləliklə, iqlimin maliyyələşdirilməsinin xeyriyyəçilik olduğuna dair hər hansı bir fikirdən daşınmalıyıq". Nə yazıq ki Qərbin bəzi inkişaf etmiş ölkələri cənab Stiellin söylədiklərini qulaqardına vurur, onu əhəmiyyətsiz sayırlar. Sanki dünyamızın çirklənməsində, ətraf mühitə vurulan zərərlərdə, iqlim pozuntularında günahları yoxdur, özlərini elə aparırlar ki, elə bil "süddən çıxmış ağ qaşıq"dırlar.

Noyabrın 12-də COP29 çərçivəsində "yaşıl zona"da "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsinə" mövzusunda keçirilən konfransda çıxış edən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva inkişaf etmiş ölkələrin bu cür davranışlarına etirazını bildirərək demişdir: "Əsrlər boyu çirklənmənin əsas mənbəyi və sərvətlərin məsuliyyətsiz istehlakçısı olmuş inkişaf etmiş ölkələr hazırda sərt hakim rolunda çıxış edir. Onlar hamı üçün sərt məhdudiyyətləri təşviq edir və eyni zamanda öz siyasətində iddialı məqsədlərini güdür, öz maraqları uğrunda işini davam etdirir. Onlar digər ölkələrdən transformasiyanı tələb edir, lakin bununla belə, maliyyə və ya texnoloji baxımdan yardım etməyə tələsmirlər".

Ölkəmizin COP29-a ev sahibi seçilməsi Azərbaycanın beynəlxalq nüfuzundan, səmərəli beynəlxalq münasibətlər sistemi qurmaq bacarığından, üstəlik, ekoloji problemlərin həllində iradə nümayiş etdirməsindən xəbər verir. Məhz bunu gözügötürməyənlər son yarım ildə qara piar kampaniyasını gücləndirmişlər. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva bu kampaniyaya da münasibətini bildirmişdir: "Yalan hekayətlər və riyakarlıq nəinki reallığı səhv göstərir, o cümlədən ədalət və düzgünlük, ləyaqət və məsuliyyət kimi fundamental konsepsiyaları sual altına qoyur. Səhv informasiyanın yayılmasında, ölkələrə qarşı qarayaxma kampaniyalarının aparılmasında mediadan istifadə həmin ölkələrə o qədər zərər vurmur, nəinki mənəvi dəyərlərin mahiyyətini dəyərsizləşdirir, etimadı zəiflədir və parçalanma yaradır. Onlar yadda saxlasınlar ki, COP29 siyasi hücumlar arenası deyil. O, iqlim böhranı qarşısında hamımızın birləşdiyi məkandır. Yalnız ədalətli əməkdaşlıq və real tədbirlərə hazırlıq bizi uğura aparacaq".

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

## "Euronews": "İlham Əliyev Qərbi "ikiüzlülükdə" ittiham etdi"


euronews. Latest Europe World EU Policy Business Euroviews Next Green Health Culture

Aliyev criticises Western nations' stance on fossil fuels at COP29 opening speech

**Azərbaycanda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) öz işini davam etdirir. Bu mötəbər konfransın Bakıda keçirilməsi Azərbaycan üçün çox mühüm hadisədir. Konfransın məqsədi iqlim dəyişmələri ilə mübarizə aparmaq, onun təsirlərini azaltmaq, iqlim dəyişmələrinə uyğunlaşmaq, maliyyə məsələlərini müzakirə etmək və ölkələrin üzərinə düşən öhdəliklərin yerinə yetirilməsini təmin etməkdir.**

Həmçinin konfransda bəzi həqiqətlər də səslənir və dünya bir daha reallıqlara şahidlik edir. Konfransda çıxış edən Prezident İlham Əliyevin Qərb ölkələrini ikiüzlülükdə günahlandırması da Avropa və dünya mətbuatının diqqətindən yayınmayıb. Bu barədə məlumat verən "Euronews" telekanalının müxbiri Corcia Orlandi bildirib ki, Azərbaycan Prezidenti COP29-da açılış nitqindən istifadə edərək Qərbin bəzi ölkələrinin hökumətlərini riyakar və ikiüzlü siyasətlərinə görə ciddi şəkildə ittiham edib: "Bu, Tanrının bəxş etdiyi hədiyyədir. Hər bir təbii sərvət - istər neft, qaz, külək, günəş, qızıl, gümüş və mis - bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər. İnsanlara onlar lazımdır. Bir sözlə, mesajım belədir. COP29-un sədri kimi, əlbəttə, biz "yaşıl keçid"in güclü carçısı olacağıq və bunu edirik, lakin, eyni zamanda biz realist olmalıyıq".

Digər ittiham məsələsinə gəldikdə, Azərbaycan Prezidenti bildirib ki, iki il əvvəl Azərbaycan və Avropa Komissiyası enerji sahəsində strateji tərəfdaşlıq bəyannaməsinə imza atdılar. "Lakin bu, bizim ideyamız deyildi. Bu, Avropa Komissiyasının təklifi idi. Avropa Komissiyasının sədri bu sənədi imzalamaq üçün iki il öncə Bakıya gəldi, çünki geosiyasi vəziyyətin dəyişməsi səbəbindən onlara bizim qaz lazım idi. Onlar bizdən yardım xahiş etdilər. Biz razılaşdıq. Əgər yardımımıza ehtiyac varsa, biz hər zaman kömək etməyə hazırıq. Dedik, yaxşı, biz enerji təhlükəsizliyində Avropaya kömək edəcəyik. İki il əvvəl həmin bəyannaməni imzalayanda qazımızı alan ölkələrin, yəni Avropa ölkələrinin sayı iki idi. İndi isə səkkiz ölkə alır.

Azərbaycan qazına çıxışı olan on ölkədən səkkizi Avropada yerləşir. Avropa Komissiyası, həmçinin bizdən xahiş edib ki, biz qaz təchizatını 2027-ci ilə qədər iki dəfə artıraq. Bu, Avropa Komissiyasının sədri və mənim tərəfimdən iki il öncə Bakıda imzalanmış bəyannamədə əks olunub. Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi Qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib".

Təxminən bir ildir ki, Bakıda COP29-un boykotunu təşviq edən dairələrə də Prezident İlham Əliyev mesaj ünvanlayıb: "Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz"!

Telekanal xəbər verir ki, Azərbaycan liderinin sözləri COP29 iştirakçıları arasında ajiotaja səbəb olub. Onlardan bəziləri "Euronews"a fikirlərini bildiriblər.

Kingbadanti Sabir (Global Shapers, Dhaka Hub, Dünya İqtisadi Forumu): "O, haqlıdır, çünki təbii ehtiyatların müəyyən ölkələrdə olması həqiqətən Allahın planıdır. Onun ikiüzlülüyə işarə etməsi həqiqətən də təqdir etməli olduğumuz bir şeydir. Bu doğrudur. Amma eyni zamanda mədən yanacaqların zərərli olduğunu biz inkar edə bilmərik. Buna cavab olaraq nə edə bilərik? "Yaşıl enerji"yə keçidi sürətləndirmək üçün bütün səylərdən istifadə etməliyik .

Əsəd Rəhman ("War on Want" QHT): "Hər kəsi hərəkətə gətirəcək yeganə yol, hər şeyi ədalətli etməkdir. Azərbaycan Prezidenti haqlıdır ki, siqnallar əlbəttə, çox böyük çirkləndiricilərdən gəlməlidir. Yüz ildən artıqdır ki, onlar torpağı və atmosferi çirkləndirənlər. ABŞ-nin nə etdiyi, Avropa İttifaqının nə etdiyi, Böyük Britaniyanın nə etdiyi önəmlidir, çünki bu, mesaj verir".

Reportajın sonunda qeyd olunur ki, İlham Əliyevin çıxışı yekun razılaşmanın təfərrüatları ilə bağlı mürəkkəb danışıqlar ərəfəsində toplaşan liderlər üçün ton təyin edib.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

## "İnterfax": "İlham Əliyev Qərb ölkələrini Azərbaycana böhtan atmaqda günahlandırıb"

***Rusiyanın məşhur "İnterfax" Agentliyi də Azərbaycan Prezidenti İlham Əliyevin COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışına geniş yer ayırıb.***


ИНТЕРФАКС

Алиев обвинил страны Запада в клевете на Азербайджан как место проведения COP29

Prezidentdən sitat gətirən agentlik dərc etdiyi məqalədə yazıb ki, özünü müstəqil QHT adlandıranlar və bəzi siyasətçilər ölkəmiz haqqında daha çox dezinformasiyanın yayılması üçün sanki bir-biri ilə yarışa giriblər. O da, xüsuilə vurğulanıb ki, Azərbaycan COP29-a evsahibliyi edən ölkə kimi seçildikdən sonra hədəfə çevrildi və bu, qarayaxma kampaniyası idi.

Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, COP29-un ev sahibi seçildikdən sonra ölkəyə qarşı böhtan kampaniyası bir sıra Qərb dövlətləri tərəfindən yaxşı təşkil olunmuş aksiyadır: "Təəssüf ki, ikili standartlar, digər ölkələrdə mühazirələr oxumaq vərdişi və siyasi riyakarlıq bəzi siyasətçilərin, dövlətin nəzarətində olan QHT-lərin və KİV-in bəzi Qərb ölkələrində saxta xəbərlər hazırlamaq üsuluna çevrilib".

COP29 Baku Azerbaijan

# Azərbaycanın nümunəvi evsahibliyi









## Panel müzakirələr, fərqli layihələr, maraqlı stendlər

### COP29-a maraq gündən-günə artır

**COP29 üçüncü gününü geridə qoydu.**

**Dünən həm "mavi", həm də "yaşıl zona"da daha çox qonağın səhərdən başlayaraq olduğunu müşahidə etdik. Səhərdən başlayaraq hər iki zonanın pavilyonlarında gündəlik proqrama uyğun müxtəlif mövzularda panel müzakirələr, sessiyalar keçirildi.**

Növbəti il BMT-nin İqlim Dəyişmələri Üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına, yəni COP30-a evsahibliyi edəcək Braziliya pavilyonunda təşkil olunan sessiyalar daha çox diqqəti cəlb etdi. "Yaşıla keçid"də sənayenin rolu, Enerjiyə keçid sektorunda sığortanın rolu, Karbon bazarı və Braziliyada meşələrin bərpası, minik avtomobillərinin dekarbonizasiyası, Dayanıqlı gələcək üçün bioiqtisadiyyat, Braziliya COP30 istiqamətində və digər mövzulara həsr edilən panel müzakirələrdə iştirak etdik.

Braziliyanın ətraf mühit və davamlılıq meneceri Davi Bomtempo dedi ki, ölkəsi sənayesinin imkanlarından istifadə edərək yeni əlaqələr yaratmaq və sənayenin karbon iqtisadiyyatından necə yararlandığını göstərmək üçün COP29-da iştirak edirlər. O qeyd etdi ki, COP28 və COP29-da qoyulan məsələlər eynidir, ancaq fərqli səviyyələrdədir. "Biz bu problemlərlə tam şəkildə məşğuluq. COP29-da maliyyələşmə əsas müzakirə mövzusudur. Çünki çoxlu maliyyə mənbələrinə ehtiyac var. Hazırda biz inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələri necə maliyyələşdirəcəyini müzakirə edirik. Azərbaycan, Braziliya və bütün digər bu kimi ölkələrin maliyyələşmə ilə bağlı dəstəyə sahib olması çox vacibdir", - deyə menecer əlavə etdi.

Noyabrın 13-də COP29 çərçivəsində "mavi zon"ada keçirilən mühüm tədbirlərdən biri də inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Sammiti oldu. Tədbirdə iştirak edən Prezident İlham Əliyev müstəmləkə keçmişi olan ölkələri kiçik ada dövlətlərinə yardım etməyə çağırdı. Dövlət başçısı qeyd etdi ki, COP29-a evsahibliyi edən ölkə olaraq, Azərbaycanın inkişaf edən kiçik ada ölkələri ilə əməkdaşlığı daha yüksək səviyyəyə qalxıb. "Onların səsi bu gün qlobal səhnədə eşidilməlidir. Həmin ölkələrin üzləşdiyi problemlərin aradan qaldırılması Azərbaycanın COP29-da göstərdiyi səylərin mərkəzindədir", - deyə dövlət başçısı bildirdi.

"Yaşıl" və "mavi zona"larda yaradılan "Ticarət və İnvestisiya Evi" stendlərində Azərbaycanın əlverişli işgüzar mühiti və investisiya layihələri barədə məlumat verilir, müxtəlif görüş və tədbirlər keçirilir. İqtisadiyyat Nazirliyi və strukturuna daxil olan qurumların təşkilatçılığı ilə müxtəlif tədbir və görüşlər təşkil edilir, Azərbaycanın işgüzar mühiti, investorlara göstərilən dəstək mexanizmləri, investisiya layihələri barədə məlumatlar verilir.

"Yaşıl zona"da yerləşən "Extreme Hangout" təlim otağında Okeandakı plastiklər və təmiz dizaynın gələcəyi, Təkcə karbon deyil: Nəyə görə dünya avia kondensasiya izinə qarşı iqlim hərəkatına qoşulmalıdır?, Okean iqlim dəyişikliyinin həlli kimi, Həyatımızı təmin edən suyun iqtisadiyyatı və digər mövzularda müzakirələr keçirildi. Sessiyalarda okeanları necə qorumaq, tullantılardan təmizləmək, iqlim dəyişikliklərinin okean suyuna təsirləri, buzlaqların əriməsi, təmiz su məsələləri ətrafında interaktiv müzakirələr aparıldı.

Yaşıl zonada pavilyonların bəzilərinə uşaqların da marağının yüksək olduğu diqqətimizi çəkdi. Heydər Əliyev Fondu və Türkiyənin Sıfır Tullantı Fondunun birgə pavilyonu - COP29-da Həmrəylik Mərkəzində məlumat lövhələri yerləşdirilib. Ərazidə videolar vasitəsilə tullantıların idarə olunması ilə bağlı məlumat verilir. Eyni zamanda uşaqlar üçün maarifləndirici oyun zonası ayrılıb ki, bu da balacaların diqqətini cəlb edir. Bununla kiçik ziyarətçilər həm öyrənir, həm də vaxtlarını əyləncəli keçirirlər.

Azərbaycanın uğurla evsahibliyi etdiyi COP29 bu gün dördüncü gününə start verir. Bakıya gələn xarici qonaqlar tədbirdə yüksəksəviyyəli təşkilatçılıqdan və qonaqpərvərlikdən məmnunluqlarını ifadə edirlər.

Ümumilikdə Bakının COP29-da irəli sürdüyü təşəbbüslər yüksək qiymətləndirilir və bu yöndə nəticələrin əldə olunacağına ümidlər böyükdür.

Qeyd edək ki, 5-11 noyabr tarixlərində konfrans öncəsi ilkin sessiyalar və konfransın ilk günləri ərzində tədbir məkanı və müxtəlif nəqliyyat qovşaqları arasında xüsusi marşrutlar üzrə fəaliyyət göstərən avtobuslar vasitəsilə 58000-dən çox iştirakçının hərəkəti təmin edilib. Qurumların operativ koordinasiyası və paytaxt yollarında nəqliyyat axınının peşəkar tənzimləmə nəticəsində COP29 iştirakçıları yüksəkkeyfiyyətli nəqliyyat xidmətləri ilə təmin edilib.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*






































## COP29-da hər sahəni təmsil edən dünyaşöhrətli şəxslər iştirak edirlər

**Tarix boyu yaxın, uzaq ölkələrdən gələnləri çox olub. Qonaqlar bu şəhərə heyran olublar. Onu heç zaman unutmayıblar. Əsrarəngiz gözəlliyindən, zəngin təbii sərvətlərindən, sakinlərinin qonaqpərvərliyindən, mehribanlığından, səmimiyyətindən dönə-dönə söz açıblar.**

Hər zaman qonaq-qaralı olsa da, bu günlər Bakı şəhəri üçün xüsusi günlərdir. Çünki dünyanın müxtəlif ölkələrindən gəlmiş on minlərlə qonağı var...

Azərbaycanın paytaxtında bütün dünya üçün olduqca əhəmiyyətli, ən mötəbər beynəlxalq tədbir keçirilir. Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) noyabrın 11-də Bakıda öz işinə başlayıb. Uğurla davam edən COP29-da 196 ölkədən 72 min iştirakçı qeydiyyatdan keçib. Onların arasında 80 prezident, vitse-prezident, baş nazir və digər rəsmilər var. Britaniya, İtaliya, İspaniya, Belçika, Danimarka, Finlandiya, Polşa, Yunanıstan, Çexiya, Xorvatiya, Serbiya və digər ölkələrin rəhbərləri, Avropa İttifaqı Şurasının prezidenti Azərbaycanda keçirilən dünyanın ən böyük iqlim tədbirində iştirak edirlər.

Qeyd edək ki, ölkəmizin COP29-a evsahibliyi etməsi ilə bağlı yekdil qərar COP28-in dekabrın 11-də keçirilən plenar iclasında verildi. Qısa müddət ərzində bu qədər böyük bir tədbirə yüksək səviyyədə hazırlıq görmək asan məsələ deyildi. Ancaq beynəlxalq tədbirlərə evsahibliyi etmək sahəsində böyük təcrübəyə malik olan Azərbaycan bu məsuliyyətli işin də öhdəsindən uğurla gəldi. Bunu COP29 tədbirlərinin davam etdiyi günlərdə respublikamızda səfərdə olan dünyanın fərqli ölkələrindən gəlmiş qonaqlar məmnuniyyətlə, hörmət və ehtiramla söylədikləri xoş sözlərlə ifadə edirlər.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iştirak etmək məqsədilə respublikamıza gələn qonaqlar arasında FIFA-nın prezidenti Canni İnfantino da var. Qeyd edək ki, noyabrın 12-də Prezident İlham Əliyev Canni İnfantino ilə görüşdü. FIFA-nın prezidenti xatirə hədiyyələrini və xüsusi olaraq hazırlanmış, üstündə Azərbaycan Prezidentinin adı və soyadı olan topu dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev COP29-da iştirak etdiyinə görə Canni İnfantinoya təşəkkürünü bildirdi. Qonaq da öz növbəsində COP29-a dəvətə və bu mötəbər tədbirin yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına minnətdarlıq etdi.

Görüş zamanı Azərbaycanda idmanın bütün növləri kimi, futbola da göstərilən dövlət qayğısı vurğulandı. FIFA-nın prezidenti ölkəmizdə futbolun inkişafına verdiyi dəstəyə minnətdarlığını ifadə etdi. Görüşdə Azərbaycan ilə FIFA arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi məmnunluqla qeyd olundu. Bu əməkdaşlığın gələcəkdə də davam edəcəyinə əminlik ifadə edildi. Azərbaycanda FIFA-nın təşkilatçılığı ilə tədbirlərin keçirilməsi məsələsi müzakirə olundu.

Məşhur braziliyalı futbolçu, Braziliya millisinin heyətində dünya çempionu olmuş Ronaldinyo Qauço isə noyabrın 12-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək məqsədilə ölkəmizə gəldi. Futbol əfsanəsi dünən COP29-un keçirildiyi məkanda oldu. Ronaldinyo Qauço Braziliya, Azərbaycan və digər ölkələrin pavilyonları ilə tanış oldu.

Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib COP29-da iştirak etmək üçün noyabrın 10-dan Azərbaycandadır.

Məşhur hindistanlı yoqin Sadhquru da noyabrın 10-dan ölkəmizdədir. İşa Xeyriyyə Fondunun təsisçisi, məşhur hindistanlı yoqin Sadhqurunin (Caqqi Vasudev) də gəlişinin məqsədi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iştirak etməkdir.

Hazırda ölkəmizdə olan çinli rejissor Yii Li olduqca zəngin təəssüratlarını dilə gətirdi. O, COP29-la bağlı sənədli film çəkəcəyini diqqətə çatdırdı: "Mənim bura gəlməkdə məqsədim COP29-la bağlı sənədli film hazırlamaqdır. Eyni zamanda dünyanın fərqli nöqtələrindən məhz iqlim məsələlərini müzakirə etmək üçün buraya gələn insanları görmək olduqca xoşdur. Biz burada planetimizi qorumaq yollarını ictimaiyyətə çatdırmaq üsulları barədə müzakirələr aparırıq". Qonaq ölkəmizdə gördüklərinin ona xoş təsir bağışladığını diqqətə çatdırdı. Çinli rejissor COP29-un keçirildiyi məkanın da çox gözəl hazırlandığını vurğuladı.

Azərbaycan uzun illərdir ki, haqq səsini dünyaya çatdırmaq üçün səy göstərir, əsl həqiqətləri bəyan edir. Vətən müharibəsində Qarabağ və Şərqi Zəngəzur ərazilərini Ermənistanın işğalından azad etdi. Lakin həmin ərazilərin bərpası zamanı Azərbaycan çox böyük problemlərlə üzləşir. Qəsbkar Ermənistan tərəfindən basdırılmış minalar əhalinin məskunlaşmasına mane olur və onların təhlükəsizliyinə təhdid yaradır. Azərbaycan hər zaman olduğu kimi, sülh tərəfdarıdır. Ermənistanla sülh müqaviləsinin imzalanmasına səy göstərir. Ölkəmizin qonaqları bu barədə də məlumatlar əldə edə bilir, əsl həqiqətlərdən xəbərdar olurlar. Bu baxımdan da, COP29-un Azərbaycanda keçirilməsi ölkəmiz üçün böyük əhəmiyyət daşıyır.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*










COP29 Baku Azerbaijan

# Azərbaycandan dünyaya "yaşıl çağırış"lar



## İqlim Dəyişmələri üzrə Bakı konfransı nümunəviliyi ilə tarixə düşdü

**Azərbaycan yeni tarixinin daha bir möhtəşəm hadisəsini reallaşdırır. Ölkəmiz artıq BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirə evsahibliyi edir.**

Belə bir möhtəşəm tədbirin Azərbaycanda keçirilməsi, beynəlxalq ictimaiyyətin bununla bağlı yekdil qərar qəbul etməsi ölkəmizə olan böyük hörmət və etimadın, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti sayəsində bu gün tarixinin ən qüdrətli mərhələsinə çatmış respublikamızın uğurlarına münasibətin, eləcə də milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfələrimizə verilən yüksək qiymətin ifadəsidir. Dünya bir daha bizim imkan və bacarıqlarımızın, dövlət və qeyri-hökumət sektorunun əməkdaşlığının, vətəndaşlarımızın intellektual səviyyəsinin, ümumilikdə isə insan potensialımızın gücünün və perspektivlərinin şahidi olur.

### Azərbaycana yüksək beynəlxalq rəğbət

Bakıda davam edən COP29-da dünyanın 196 ölkəsindən prezidentlər, vitse-prezidentlər və baş nazirlər iştirak edir. Onların əksəriyyətinin konfransın ilk günü çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə ayrıca görüşü gerçəkləşdi. Bu görüşlərdə konfransın gedişatı və müzakirə predmeti olacaq mövzularla yanaşı, ikitərəfli münasibətlər baxımından gündəmdə olan problemlər və tərəfləri maraqlandıran perspektivli layihələr barədə fikir mübadiləsi aparıldı. Bakı bu günlərdə təkcə iqlim dəyişmələri ilə bağlı nüfuzlu tədbirin keçirildiyi yer deyil, həmçinin müxtəlif dövlətlərin liderlərinin bir araya gəlib aktual məsələləri müzakirə edə bildikləri əlverişli məkandır. Bu, Azərbaycanın bir dövlət olaraq dünyanın gündəmində duran və həlli fövqəladə əhəmiyyət kəsb edən problemlərinin diskussiya obyektinə çevrildiyi etibarlı məkan olduğunun göstəricisidir.

COP29-da Avropanın əksər dövlətlərinin liderləri iştirak edirlər. Bunlardan təqribən 15-i Avropa İttifaqını təmsil edir. Onların bir qismi qurumun aparıcı və gündəmini müəyyən edən üzvləridir. COP29-da İspaniya və İtaliya hökumət rəhbərləri səviyyəsində təmsil olunurlar. Belçika belə COP29-da baş nazirlə təmsil olunur. Dünyanın fövqəlgüclərindən olan Böyük Britaniyanın baş naziri Bakıya 6 nazirlə birlikdə gəlib. Avropa qitəsinin aparıcı siyasi institutları da konfransı diqqətdən kənarda qoymayıblar.

### Siyasi iradə və aydın hədəflər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev COP29-un Liderlər Sammitinin açılış mərasimində çıxış etdi. Sammit iştirakçılarını salamladı və COP29-a aparan yolda Azərbaycana verdiyi dəstəyə görə BMT-nin Baş katibi Antonio Quterreşə və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinə təşəkkürünü bildirdi. Xüsusi vurğulandı ki, ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a evsahibliyi etmək şərəfi verildi: "Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük".

Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla əlaqələri və onlarda fəal iştirakı bizə müxtəlif qitələrin ölkələri arasında körpülər salmaq və ya onları gücləndirmək, eləcə də həmrəyliyini möhkəmləndirmək imkanını yaradır. Dövlətimizin başçısı Liderlər Samitindəki çıxışında bu məsələni də önə çəkərək dedi: "Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib".

Prezident İlham Əliyev çıxışında Azərbaycanın 120 ölkənin yekdil qərarı ilə dörd il ərzində, BMT-dən sonra ikinci beynəlxalq qurum olan Qoşulmama Hərəkatına uğurla sədrlik etdiyini vurğuladı. Ölkəmizin həmçinin təxminən 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü olduğunu, Avropa İttifaqının 10 üzvü ilə sazişlər imzaladığını və Strateji tərəfdaşlıq haqqında bəyannamələrin qəbul edildiyini bildirdi: "Bütün bunlar bizə düşünməyə imkan verir ki, biz iqlim dəyişmələri məsələsində fərqli mühüm iştirakçılar arasında körpülərin salınmasında çox faydalı və yardımçı ola bilərik. Azərbaycan çoxtərəfliliyin tərəfdarıdır. Eyni zamanda biz mədəniyyətlərarası dialoqda fəal rol oynayırıq".

Azərbaycanın "yaşıl gündəliy"inə gəldikdə isə, xüsusi vurğulanmalıdır ki, hazırda "yaşıl enerji"yə keçid artıq bütün dünyada labüd zərurətə çevrilmişdir. Bu, müasir dünyamızın çağırışıdır. IV sənaye inqilabı dövründə bir tərəfdən dayanıqlı inkişafı, insanların rifahını təmin etmək, digər tərəfdən isə planetimizin təbii resurslarını qorumaq, Yer kürəsini gələcək nəsillər üçün yaşamağa daha uyğun hala gətirməkdən ötrü "yaşıl enerji"yə keçid mütləqdir. Bəşəriyyət tarix boyu bir neçə dəfə belə proseslərdən keçib. Bu, həyatın inkişaf məntiqidir. İnsan zəkası inkişaf etdikcə, texnoloji tərəqqi irəlilədikcə, hər bir kəs ənənəvi təcrübəni irəli aparıb əvvəlkindən daha yaxşısını, yaşayış tərzi və ətraf mühit üçün daha yararlısını etməyə çalışır. Bu baxımdan, "yaşıl enerji"yə keçid prosesləri də getdikcə sürətlənəcək.

Belə proseslərdə, adətən, dəyişiklik meyillərini vaxtında dəyərləndirib ona çevik şəkildə uyğunlaşan dövlətlər, cəmiyyətlər böyük nailiyyətlər əldə edirlər. Sevindirici haldır ki, Azərbaycan bu prosesin önündə addımlayan ölkələrdəndir. Zəngin neft resursları ilə tarixən enerji ölkəsi kimi tanınmış respublikamız hazırda "yaşıl enerji"yə keçid sahəsində də nümunələr yaradaraq ənənələrini qoruyub inkişaf etdirir. Eyni zamanda qlobal miqyasda bu istiqamətdə təşəbbüslərə real layihələrlə böyük faydalar verir.

### Azərbaycanın sərvətləri və təşəbbüsləri

Ölkəmizin ərazilərinin dörddəbiri hazırda daha təmiz dünya naminə "yaşıl bölgə" elan olunub. Naxçıvan, Qarabağ və Şərqi Zəngəzurda müasir dünyanın başlıca trendi olan "yaşıl texnologiya"lar tətbiq edilir, bərpaolunan enerji mənbələrindən geniş istifadə yüksək səviyyədədir, 30 ilə yaxın öz ölkəsində məcburi köçkün həyatı sürən və bu gün doğma yurdlarına dönən əhali üçün yeni "ağıllı" yaşayış məskənləri salınır. Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın o ayrılmaz hissələridir ki, on illər boyu bizi indi ittiham edən dövlətlərin və dairələrin səssiz razılığı, müşahidəsi ilə bir müddət işğal altında qalıb, talan edilib, viran qoyulublar. Hazırda biz ölkəmizin bu dilbər guşələrində inşa etdiyimiz alternativ enerji mənbələrindən əldə edəcəyimiz elektrik enerjisini həmin Avropaya ixrac edəcəyik.

Dövlətimizin başçısı Liderlər Sammitindəki çıxışında malik olduğumuz "yaşıl enerji" ehtiyatlarını dünyaya bir daha elan etdi: "Bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə isə 157 giqavat təşkil edir. Ötən il BƏƏ-nin "Masdar" şirkəti bir regionumuzda 230 meqavatlıq günəş enerji stansiyasının açılışını etdi. Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir. COP29 çərçivəsində Birləşmiş Krallığın BP şirkəti ilə 240 meqavatlıq günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı saziş imzalanacaq. Bu layihə sayəsində dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcəkdir".

Prezident İlham Əliyev "yaşıl enerji" istehsalı ilə bağlı bu gün Azərbaycanın ciddi təşəbbüslərinin olduğunu da vurğuladı: "Biz 2030-cu ilə qədər təxminən altı giqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırırıq. Lakin bu, tam planlarımızın hamısı deyil, 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb. Biz, həmçinin ixrac bazarlarına diqqət yetirik və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq. Bu, bizə Avropaya "yaşıl enerji"ni ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı dörd giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır".

Azərbaycanın hasil etdiyi qaz və neft də günəş, külək enerjisi kimi bizim milli sərvətimizdir. Bu baxımdan, fəaliyyətimizə heç kim kölgə salmaq iqtidarında deyil, heç buna haqları da yoxdur. Birincisi, Xəzərin Azərbaycan sektorunda çalışan beynəlxalq transmilli şirkətlərin siyahısına, mənsub olduqları ölkələrə nəzər yetirsinlər. İkincisi isə, söhbət təbiətə və ətraf mühitə vurulan zərərdən gedirsə, statistikaya müraciət etsinlər. Azərbaycan Prezidenti COP29-un açılış mərasimindəki çıxışında dedi: "Bu gün Azərbaycan qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz paya malikdir. Amma dünyada birnömrəli neft və qaz hasilatçısı olan, Azərbaycandan 30 qat artıq neft hasil edən ölkənin yalan xəbər mediası bizi neft dövləti adlandırır. Yaxşı olardı ki, ən azı onlar özlərinə və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar. Azərbaycanın qlobal qaz atılmalarındakı payı cəmi 0,1 faizdir".

Bəzi siyasətçilər neftimizin olmasında bizi ittiham edirlər. Bu, bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi günahlandırmağa bənzəyir: "Bu, Tanrının bəxş etdiyi hədiyyədir", - deyə Azərbaycan Prezidenti bildirdi və əlavə etdi ki, biz "yaşıl keçid"in güclü carçısı olacağıq və bunu edirik.

Dövlətimizin başçısı Liderlər Sammitindəki çıxışında onu da bildirdi ki, ölkələrə qiymət başqa meyarlara görə verilməlidir. Məsələn, Azərbaycanda işsizliyin səviyyəsi 5,4 faiz, yoxsulluğun səviyyəsi 5,2 faizdir. Azərbaycanın xarici borcu ÜDM-in cəmi 7,5 faizini təşkil edir.

Bu gün COP29-da 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçı var. Onların sırasında 80 prezident, vitse-prezident və baş nazir təmsil olunur. Beləliklə, dünya Bakıya toplaşıb.

COP29-un uğurlu təşkili və keçirilməsi artıq bir sıra beynəlxalq media orqanları tərəfindən Azərbaycanın qələbəsi, nailiyyəti kimi qiymətləndirilir. İlk növbədə ona görə ki, total gözdənsalma, qərəz kampaniyasına baxmayaraq, konfrans dünya liderlərinin diqqətini cəlb edib. İkincisi isə ona görə ki, tədbirin gedişatında taleyüklü qərarlar qəbul olunur. İqlim dəyişmələri üzrə Bakı konfransının tarixə düşəcəyi isə heç kimdə şübhə doğurmur.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## Dünyanın inkişafına, tərəqqisinə yönələcək qərarlar Azərbaycanda qəbul olunacaq

**Noyabrın 11-də ölkəmizin paytaxtı Bakı şəhərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) açılış mərasimi keçirildi. Azərbaycanın son illər bir çox nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi etməsi ölkəmizin dünyada artan iqtisadi və siyasi nüfuzunun parlaq göstəricisi və nümunəsidir.**



Bu, həm də 44 günlük Vətən müharibəsində ərazi bütövlüyünü və suverenliyini hərbi gücü ilə təmin etmiş Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallığın beynəlxalq birlik tərəfindən qəbulu və etirafıdır. COP29-un ölkəmizdə keçirilməsi Azərbaycan Prezidenti İlham Əliyevin növbəti tarixi uğurudur. Bu tədbir tez-tez keçirilən adi bir konfrans deyil, dünyanın təhlükəsizliyini, gələcəyini müzakirə edəcək böyük nüfuza malik beynəlxalq platformadır.

Dövlət başçımızın dünyada qazandığı bu uğur, bu yüksəliş, bu ucalıq, bu zirvə hamımızı sevindirir. COP29-un Azərbaycanda keçirilməsi indi sadə insanlardan tutmuş ziyalılara qədər hamını qürurlandırır. Başqa cür ola da bilməz, çünki bu, ölkəmizin dünyada tanınmasına, sevilməsinə xidmət edən beynəlxalq əhəmiyyətli bir tədbirdir. Xalq şairi Vahid Əzizlə söhbətimiz də bu barədə oldu. Vahid Əziz dedi ki, bir ziyalı kimi COP29-un Azərbaycanda keçirilməsi məni çox sevindirir. Bu, Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı Zəfərdən sonra dünyada artan gücündən, qüdrətindən xəbər verən tarixi bir hadisədir. Deməli, dünya dövlətləri ölkəmizə böyük maraq və diqqət göstərir. Belə bir əhəmiyyətli tədbirin respublikamızda keçirilməsi həm də Azərbaycan Prezidenti İlham Əliyevin apardığı düzgün beynəlxalq siyasətin təntənəsi və qələbəsidir. Dövlət başçısının durmadan artan və bütün dünyada böyük hörmətlə qarşılanan siyasi nüfuzudur. Dünya dövlətləri görür ki, beynəlxalq tədbirlər keçirmək üçün Azərbaycan bu gün təhlükəsiz bir ölkədir. Azərbaycan İkinci Qarabağ müharibəsində qazandığı uğurları və zəfərləri ilə həm öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdi, həm də Qafqazda sülh yaratdı. Daim artan gücü, qüdrəti ilə dünyadakı siyasi iqlimi dəyişdi. Ölkəmizə gəlmiş xarici qonaqlar tariximizlə yaxından tanış olanda görəcəklər ki, Azərbaycan xalqı məğrur, yenilməz xalqdır. Azərbaycan güclü, qüdrətli bir dövlətdir.

COP28-dən sonra dünyada bir çox əlamətdar dəyişikliklər baş verib. Bu gün dünya tədricən günəş enerjisinə, eləcə də başqa alternativ enerjilərə keçmək uğrunda mübarizə aparır, yeni yollar axtarır. Bütün diqqətlər bu istiqamətə yönəldilir. Çin kimi iri dövlətlər öndə gedərək istehsalını, iqtisadiyyatını alternativ enerjilər üzərində qurmağa çalışır. Azərbaycan da bu məsələdə başqa ölkələrə nümunə olacaq uğurlu addımlar atır. İşğaldan azad olunmuş ərazilərdə də bu istiqamətdə qazanılan uğurlar çox ürəkaçandır. Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "yaşıl enerji" zonası elan etməsi dövlətin bu sahəyə göstərdiyi diqqət və qayğının təzahürüdür. Bu günə qədər dövlət başçımız işğaldan azad edilmiş ərazilərdə neçə-neçə su-elektrik stansiyalarının açılışını edib. Günəş enerjisinə keçidlə əlaqədar müvafiq layihələr uğurla icra olunur. Azərbaycanın həyata keçirdiyi bu layihələr dünya ölkələri üçün canlı nümunədir. Dünya gör-götür dünyasıdır. Harada, hansı ölkədə iqtisadi yüksəliş gətirən nə yenilik, nə dəyişiklik varsa, onlardan bəhrələnmək yalnız və yalnız işimizin xeyrinədir, Azərbaycanın uğurudur.

İnanırıq ki, COP29 çərçivəsində bütün bu aktual məsələlər qızğın müzakirə olunacaq və onların həlli istiqamətində müvafiq qərarlar qəbul ediləcək. Bizim üçün sevindirici odur ki, dünyamızın inkişafına, tərəqqisinə yönələcək qərarlar Azərbaycanda qəbul ediləcək. Bu gün Avropanın enerji təhlükəsizliyində əvəzsiz rola malik olan Azərbaycan COP29-un nüfuzlu platforması sayəsində beynəlxalq birliyə, tərəfdaşımız olan qardaş və dost ölkələrlə yanaşı, bədxahlarımıza da göstərəcək ki, "yaşıl enerji" ilə bağlı layihələr Azərbaycanın enerji siyasətində prioritet məsələlərdən biridir.

Xalq şairi Vahid Əziz onu da bildirdi ki, COP29-un davam etdiyi günlərdə Azərbaycan dünyanın diqqət mərkəzində olacaq. Dünyanın bütün aparıcı kütləvi informasiya vasitələrinin kameraları ölkəmizə dikiləcək. Dünyanın sabahı, gələcəyi paytaxt Bakıda müzakirə olunacaq. Azərbaycan bu gün dünyamızı narahat edən iqlim dəyişmələrinə qarşı səylərini səfərbər etməklə bu mübarizəyə yeni uğurlu töhfələr verəcək, yeni nailiyyətlər gətirəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*



COP29 Baku Azerbaijan

# Azərbaycanın "yaşıl təşəbbüsləri"nə qlobal dəstək




## Türk dövlətlərinin "yaşıl" həmrəyliyi

**Noyabrın 11-dən etibarən dünyanın siyasi, iqtisadi nəbzinin Azərbaycanda döyünməyə başladığını desək, heç də yanılmarıq.**

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) 29-cu sessiyasında iştirak etmək üçün çoxlu sayda Prezident və baş nazirlər, nazirlər və digər rəsmilər ölkəmizə səfər edərək planetimizin xilası üçün həll yolları axtarırlar.

Türk dövlətləri də Bakıda keçirilən COP29-da ən yüksək səviyyədə təmsil olunurlar. Qardaş ölkələrin - Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Macarıstan prezidentləri bu beynəlxalq miqyaslı tədbirdə iştirak edərək həm Azərbaycana tam dəstək olduqlarını göstərir, həm də ümumilikdə türk dünyasının birgəliyini, "yaşıl həmrəy"liyini nümayiş etdirirlər.

### Tarixi hadisə

Bu günlərdə on minlərlə əcnəbi qonağa evsahibliyi edən Azərbaycan COP29 kimi nüfuzlu tədbiri yüksək səviyyədə təşkil etməsi ilə elə ilk gündən etibarən diqqət mərkəzinə çevrilib. Bildirək ki, respublikamız ətraf mühitin mühafizəsinə və iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması məsələlərinə xüsusi önəm verir və bu istiqamətdə vacib işlər görür. Buna görədir ki, ötən il ölkəmiz 200-ə yaxın dövlət tərəfindən yekdilliklə COP29-a sədr seçildi. Bu həm də Azərbaycana qlobal səviyyədə verilən dəyərin, göstərilən hörmətin təzahürü idi.



COP29-a ev sahibi seçildiyi dönəmdən bəri respublikamız bu tədbiri layiqincə keçirmək üçün mühüm hazırlıq işləri həyata keçirib. Ötən müddətdə BMT-nin bu tədbirinin konkret nəticələrinin əldə edilməsində Azərbaycanın ardıcıl səylərini təqdir edən türkdilli ölkələr respublikamızla sıx əməkdaşlıq şəraitində dəstəklərini əsirgəməyiblər. Hələ bu ilin iyulunda Şuşada təşkil olunan Türk Dövlətləri Təşkilatına (TDT) daxil olan ölkələrin dövlət rəhbərlərinin qeyri-rəsmi Zirvə görüşündə də dövlət başçıları tərəfindən birmənalı olaraq vurğulandı ki, türkdilli dövlətlər COP29 konfransının işində fəal iştirak edəcəklər.

Sözügedən tədbirdəki çıxışında Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının türk dövlətləri üçün böyük tarixi hadisə olduğunu bildirmişdi: "İqlim dəyişikliyi məsələsində dünya liderlərinin uğurlu bir görüş keçirmələrini səmimi-qəlbdən diləyirik. Biz bu nüfuzlu tədbirə fəal şəkildə qatılmağa və bu məsələdə Azərbaycana mümkün olan hər cür yardımı göstərməyə hazırıq".

Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə imzalanan və türk dünyası üçün böyük əhəmiyyət kəsb edən Qarabağ Bəyannaməsində də COP29-a yekdil dəstək öz əksini tapıb: "2024-cü il noyabrın 11-22-də Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) 29-cu sessiyasına evsahibliyi etməkdə Azərbaycan Respublikası Hökumətinə uğurlar arzulayır və Konvensiyanın tərəflərinin gözləntiləri əsasında COP29-un konkret nəticələrinin əldə edilməsində Azərbaycanın ardıcıl səylərini dəstəkləyirik".

### Türk dünyasında ilk

Artıq bir neçə gündür ki, öz işinə başlayan COP29-da iştirak etmək üçün Bakıya gələn Türk Dövlətləri Təşkilatının (TDT) baş katibi Kubanıçbek Ömüralıyev də bildirib ki, COP29 kimi möhtəşəm bir tədbiri türk dünyasında ilk dəfə keçirilir və bu, hamımız üçün böyük önəm daşıyır. TDT-nin baş katibi qeyd edib ki, bu tədbir təkcə Azərbaycan üçün deyil, eyni zamanda türk dünyası üçün əhəmiyyətlidir: "Hazırda COP29-un əsas mövzularından biri "yaşıl dünya"dır. İqlim dəyişikliyi ilə mübarizə üçün bütün ölkələrin, liderlərin, ekspertlərin və beynəlxalq təşkilatların bir araya gələrək həll yolları tapması olduqca vacibdir".

Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iştirak etmək məqsədilə Azərbaycana səfərə gəlib.

Ötən gün isə Prezident İlham Əliyevin, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin üçtərəfli görüşü olub.

Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın dövlət başçıları "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində Strateji tərəfdaşlıq haqqında Saziş"i imzalayıblar.

Türk dövlətlərinin liderlərinin COP29 tədbirində fəal iştirakları da bir daha təsdiqlədi ki, qardaş ölkələr dünyanın gələcəyi naminə qərarların qəbul edildiyi Azərbaycanla birgəliklərini, həmrəyliklərini göstərirlər.

Tam əminliklə deyə bilərik ki, COP29 təkcə iqlim tədbiri deyil, bu qlobalmiqyaslı toplantı özündə siyasi dialoqları, sülh çağırışlarını da ehtiva edir. Eyni zamanda BMT-nin bu tədbiri türk dünyası ailəsinin yeni yol xəritəsinin müəyyənləşdirilməsi istiqamətində də mühüm rol oynayır. Qardaş ölkələrin gələcək hərtərəfli əməkdaşlıqları üçün müxtəlif və yeni sahələr açır.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## "Yaşıl enerji" layihələri bölgələrimizə də "addımlayır"

### COP29 çərçivəsində 4 il əvvəl işğaldan azad olunmuş Cəbrayıl rayonunda "Şəfəq" Günəş-Elektrik Stansiyasının təməli qoyuldu

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) gedişi bir çox olayları, yenilikləri ilə də ürəkaçandır.**

Bunlardan biri COP29 çərçivəsində Cəbrayıl rayonunda 240 MVt gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyasının təməlinin qoyulmasıdır. Bu stansiya işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən ilk sənaye miqyaslı günəş enerjisi və ən böyük birbaşa xarici investisiya layihəsidir.

Məlum olduğu kimi, 44 günlük Vətən müharibəsi qələbəmizlə başa çatandan az sonra Prezident İlham Əliyev işğaldan azad olunmuş əraziləri "yaşıl enerji" zonası elan etdi. Daha sonra Naxçıvan Muxtar Respublikasının da "yaşıl enerji" zonasına çevrilməsi qarşıya məqsəd qoyuldu. İndi bərpaolunan enerji layihələri artıq digər bölgələrimizə də "addımlayır". COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışında dövlətimizin başçısı Azərbaycanın "yaşıl gündəliyi" haqqında da məlumat verərək dedi: "Bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə isə 157 giqavat təşkil edir. Ötən il BƏƏ-nin "Masdar" şirkəti bir regionumuzda 230 meqavatlıq günəş enerji stansiyasının açılışını etdi. Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir. COP29 çərçivəsində Birləşmiş Krallığın BP şirkəti ilə 240 meqavatlıq günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı saziş imzalanacaq. Bu layihə sayəsində dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcəkdir. Biz 2030-cu ilə qədər təxminən altı giqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırırıq. Lakin bu, tam planlarımızın hamısı deyil, 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb".

Qeyd edək ki, elə indi də Naxçıvan MR-də istehsal olunan elektrik enerjisinin xeyli hissəsi alternativ və bərpaolunan enerji mənbələrindən yaranır. Muxtar respublikanın özünün "yaşıl enerji" mənbələri potensialı ilə enerjinin bu növünün ixracatçısına çevrilməsi də hədəflənib.

Külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal güclərinin yaradılması və onun ən azı 1000 MVt-nın ixrac edilməsi planları çərçivəsində beynəlxalq enerji şirkətləri ilə əməkdaşlıq Naxçıvanı "yaşıl enerji"nin istehsalçısı, ixracatçısı mənbəyinə və tranzit məkanına çevirəcək. Keçən il Bakı Enerji Həftəsinin Naxçıvanda keçirilən xüsusi sessiyasının gedişində Azərbaycanın Energetika Nazirliyi və "Total Energies" şirkəti arasında "250 MVt gücündə quruda külək, Naxçıvan Muxtar Respublikasında 250 MVt gücündə günəş-elektrik stansiyaları, habelə enerji saxlanc sistemləri layihələrinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu", eyni zamanda adıçəkilən nazirliklə "Nobel Energy Management" MMC arasında "Naxçıvan Muxtar Respublikasında 400 MVt gücündə günəş-elektrik stansiyasının tikintisi və istehsal ediləcək elektrik enerjisinin Türkiyə Respublikasına ixracı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalandı. Naxçıvanın "yaşıl enerji" potensialının müzakirə olunduğu həmin sessiyada bir sıra ölkələrin nümayəndələri də iştirak edirdi ki, bu da sözügedən istiqamətdə yeni addımların atılmasına zəmanət verir.










Bu il isə Bakıda Energetika Nazirliyi və "Azərenerji" ASC ilə "Masdar" şirkəti arasında 445 MVt gücündə Biləsuvar, 315 MVt gücündə Neftçala günəş-elektrik stansiyaları və 240 MVt gücündə Abşeron-Qaradağ külək-elektrik stansiyası layihələri üzrə "İnvestisiya müqaviləsinə Əlavə", "Enerji alqı-satqı müqaviləsi", "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" və "Torpaq icarə müqaviləsi" imzalandı.

İyunun 4-də "Bakı-Ekspo" Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz və 12-ci Xəzər Beynəlxalq Energetika və "Yaşıl Enerji" sərgilərinin açılışı zamanı Prezident İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və yüksək texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir Neftçala, Biləsuvar günəş-elektrik stansiyalarının və Abşeron-Qaradağ Külək-Elektrik Stansiyasının təməlini qoydular.

Qarabağda və Şərqi Zəngəzurda geniş vüsət alan bərpa-quruculuq işlərində də "yaşıl enerji" layihələrinə xüsusi önəm verilir. Qələbədən sonra görülən işlər deməyə imkan verir ki, bu sahədə də qarşıya qoyulan vəzifələr uğurla yerinə yetiriləcək. Belə ki, Qarabağ və Şərqi Zəngəzurda indiyədək ümumi gücü 270 MVt olan 32 su-elektrik stansiyası istismara verilib və 492 milyon kilovat-saat sıfır emissiyalı elektrik enerjisi istehsal edilib. Bununla da 110 milyon kubmetr təbii qaza qənaət olunub, 200 min ton karbon emissiyasının atmosferə atılmasının qarşısı alınıb.

"Şəfəq"in təməlinin qoyulması isə bu istiqamətdə işlərin daha geniş miqyas alması deməkdir. Layihə 2021-ci il iyunun 3-də Energetika Nazirliyi ilə BP arasında imzalanmış İcra Müqaviləsi əsasında həyata keçirilir. Təməlqoyma mərasimində layihə üzrə "Azərbaycan Respublikası Hökuməti ilə "Şəfəq (Cəbrayıl) Solar Limited" şirkəti arasında İnvestisiya Müqaviləsi və "Azərbaycan Respublikası Energetika Nazirliyi ilə "Şəfəq (Cəbrayıl) Solar Limited" şirkəti arasında Torpaq İcarəsi Müqaviləsi" imzalanıb.

Sonra isə simvolik olaraq stansiyanın ilk günəş paneli imzalanıb. İmzalama prosesinə SOCAR və Azərbaycan İnvestisiya Şirkəti də qoşulub. "Şəfəq" GES-də illik təxminən 500 milyon kilovat-saat elektrik enerjisi istehsalı gözlənilir. Bununla da ildə 120-150 milyon kubmetr təbii qaza qənaət ediləcək, 260-330 min ton karbon emissiyası azaldılacaq.

Virtual Enerji Ötürülməsi Mexanizmi (VPTA) çərçivəsində stansiyada istehsal olunan enerji Cəbrayılda mövcud elektrik şəbəkəsinə ötürüləcək və eyni miqdarda enerji Səngəçal terminalına veriləcək. Nəticədə terminalın enerji ehtiyaclarını qarşılamaq üçün bərpaolunan enerjidən istifadə ediləcək və bu, BP-nin Xəzər regionunda əməliyyat tullantılarının azaldılmasına dəstək olacaq. Beləliklə, layihənin icrası həm milli iqtisadiyyata, həm də konsorsium üzvlərinin, o cümlədən SOCAR-ın dekarbonizasiya səylərinə mühüm töhfə verəcək.

"Şəfəq" Günəş-Elektrik Stansiyasının səhmdarları BP, SOCAR və Azərbaycan İnvestisiya Şirkətidir. Layihəyə təxminən 200 milyon dollar məbləğində investisiya yatırılması nəzərdə tutulur.

Prezident İlham Əliyev COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışında həmçinin ixrac bazarlarına diqqət yetirildiyini də vürğulayıb: "Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq. Bu, bizə Avropaya "yaşıl enerji"ni ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı dörd giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır".

*Flora SADIQLI, "Azərbaycan"*

COP29 Baku Azerbaijan

# Dünya ekoloqlarının Bakı sammiti

## Təbiətdən alınanların geri qaytarılması zamanıdır

### İqlim dəyişmələrinin qarşısını almaq üçün külli miqdarda vəsait lazımdır

**İnsanın təbiəti amansızcasına istismar etməsi dünyanı fəlakət həddinə gətirib. Son dövrlər baş verən aşırı yağışlar, quraqlıq, güclü külək və fırtınalar təbiətin insandan qisas almasıdır. İndi insan ətraf mühitə qarşı törətdiyi fəsadların acı nəticələrini yaşayır.**



COP və bunun kimi tədbirlərin əsas məqsədi məhz yaranmış bu acınacaqlı vəziyyətin qarşısını almaqdır. Amma bunun üçün külli miqdarda vəsait lazımdır. Ölkəmizdə keçirilən COP29-un qarşısında duran əsas vəzifələrdən biri də dünya dövlətlərinin səylərini birləşdirərək həmin maliyyə mənbələrini yaratmaqdır. Dövlətlər unutmamalıdır ki, bu problem sözlə, siyasi çıxışlarla deyil, vəsaitlə həll oluna bilər.

Elə COP29 çərçivəsində "İqlim maliyyələşdirilməsi imkanları - dayanıqlı gələcək üçün həlledici məqam və dönüş nöqtəsi" mövzusunda yüksəksəviyyəli "dəyirmi masa"nın keçirilməsinin səbəbi də budur. COP29-un sədrliyi tərəfindən keçirilən tədbirdə əsas müzakirə mövzusu iqlim maliyyələşməsi və qlobal iqlim fəaliyyətinin gələcək perspektivləri, iqlim maliyyələşməsi üçün orta məxrəcin əldə olunması, həmçinin Paris Sazişinin məqsədlərinə çatmaqdan ötrü maliyyə razılaşmalarının əhəmiyyətli araşdırılması olmuşdur.

Tədbirdə çıxış edən Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev vurğulayıb ki, iqlim maliyyələşdirilməsi planetimiz üçün xüsusi əhəmiyyət daşıyır: "Hazırda 1,5 dərəcə hədəfinə nail olmaq üçün bütün maraqlı tərəflərlə müzakirə etmək imkanı yaranıb. Bununla bağlı COP29 sədrliyi müzakirələrin uğurla yekunlaşması üçün uzun müddətdən bəri bütün tərəflərlə iş aparıb, ortaq fikrə gəlməsi üçün uğurlu fürsət yaranıb". Nazir həmçinin deyib ki, hökumətlərdən tutmuş özəl sektora kimi, eləcə də beynəlxalq maliyyə institutları ədalətli və iddialı iqlim maliyyələşməsi üçün töhfə verməlidirlər.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi Saymon Stil isə çıxışında diqqətə çatdırıb ki, müasir dünyada hər il "yaşıl texnologiya"lara ayrılan vəsaitlər artsa da, bu, iqlim dəyişikliklərinə qarşı yetərli deyil: "Beynəlxalq ictimaiyyət dünyanın gələcəyini xilas etmək üçün kollektiv iqlim fəaliyyətlərini dəstəkləməli, "yaşıl iqlim" hədəfləri istiqamətində səyləri birləşdirməlidir. Bundan ötrü qlobal maliyyə arxitekturası yaradılmalı, iqlim maliyyələşməsinə yeni maliyyə resursları yönəldilməlidir".

Tədbirdə çıxış edən Dünya Bankının prezidenti Acay Banqa və Asiya İnkişaf Bankının prezidenti Masatsuqu Asakava çoxtərəfli inkişaf banklarının ətraf mühitin mühafizəsi üçün həyata keçirdikləri proqramlar, inkişaf etməkdə olan ölkələr üçün iqlim dəyişmələrinin yaratdığı fəsadlarla mübarizə üçün görülən işlərdən danışıblar. Onlar vurğulayıblar ki, bu istiqamətdə təkcə maliyyə ayırmaq kifayət deyil, eyni zamanda ölkələri iqlim böhranı ilə mübarizədə hərtərəfli dəstəkləmək lazımdır.

COP29-da Paris Sazişini imzalayan tərəflər qlobal maliyyə axınlarının sazişə daha da uyğun olmasını təmin etməli və İqlim sahəsində Maliyyə üzrə Yeni Kollektiv Kəmiyyətləşdirilmiş Məqsədin (NCQG) qəbulu vasitəsilə investisiyaların yatırılmasına imkan yaratmalıdırlar. Hazırda Aİ iqlim sahəsində ən böyük beynəlxalq maliyyə təminatçısıdır. Artıq keçən il 28,6 milyard avro dövlət maliyyə vəsaitinin ayrılmasına və tullantı qazların emissiyalarının azaldılmasında, həmçinin iqlim dəyişikliyinin təsirlərinə uyğunlaşmaqda inkişaf etməkdə olan ölkələri dəstəkləmək üçün əlavə 7,2 milyard avro qeyri-dövlət maliyyə vəsaitinin səfərbər edilməsinə töhfə vermişdir.

Hazırda aparılan danışıqlarda əsas məqsəd keçən il Dubayda razılaşdırılan və fosil yanacaq növlərindən bərpaolunan enerji mənbələrinə keçidi, bərpaolunan enerji mənbələrinin inkişafına ayrılan sərmayələrin üçqat artırılmasını və 2030-cu ilədək enerjinin səmərəliliyi üzrə tədbirlərin ikiqat artırılmasını nəzərdə tutan qlobal enerji məqsədlərini təsdiqləməkdir. Danışıqlarda Aİ-ni təmsil edən nümayəndələr gələn il bütün tərəflərdən təqdim olunacaq milli səviyyədə müəyyənləşdirilmiş töhfələr üzrə iddialı gözləntilər təyin etməyə çalışacaqlar. Bundan əlavə, Aİ-nin danışıqlar qrupu Paris Sazişinin 6-cı maddəsinə uyğun olaraq, beynəlxalq karbon bazarlarına dair danışıqları yekunlaşdırmaq üzərində işləyəcək.

"Mən bu tədbirə Uqandadan qatılıram. COP29-un maliyyə probleminin həllinə müsbət təsir edəcəyini düşünürəm. Maliyyə böhranının həllini səbirsizliklə gözləyirik, çünki nə qədər gecikdirsək, böhran Afrika ölkələrinə bir o qədər çox ziyan verəcək". Bunu Uqandada fəaliyyət göstərən "Yaxşı həyat" beynəlxalq təşkilatının icraçı direktoru Denise Akampurira Ayebare bildirib. O, qlobal istiləşmənin cənuba daha çox zərbə vurduğunu bildirərək deyib: "Afrikaya ayrılan qlobal maliyyənin yalnız çox az bir qismi, təxminən 1,6 faizi onlara çatır. Buna görə də biz iqlim dəyişikliyi ilə mübarizədə sürəti artırmağı səbirsizliklə gözləyirik ki, bu prosesdən əziyyət çəkən ölkələrin hər hansı bir müsbət istiqamətə doğru çıxışını təmin edə bilsin".

Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin (IRENA) baş direktoru Françesko La Camera isə COP29 çərçivəsində keçirilən "Nazirlər dialoqu: Bərpaolunan mənbələrin üçqat artırılması və enerji səmərəliliyinin ikiqat artırılması üçün investisiyaların genişləndirilməsi" mövzusunda çıxışı zamanı deyib: "İqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün yeni kəmiyyətli maliyyə qanunu ilə razılaşmaq lazımdır. Məbləğ vacib deyil, çünki biz bilirik ki, keçid üçün trilyonlara ehtiyacımız var. Təcrübəmizi nəzərə alaraq, biz bütün fəsillər üçün müəyyən nəticə yazmağa çalışacağıq ki, burada danışıqlar aparan şəxs həmin təklifin yekun sənədi üzrə son razılığa gəlmək üçün bu element təklifindən istifadə edə bilsin. Biz, əsasən, bərpaolunan mənbələrin üstünlük təşkil edəcəyi yeni enerji sisteminə doğru gedirik. Bunu heç kim dayandıra bilməz. Biz iqlim dəyişikliyi ilə mübarizə üçün nəzərdə tutduğumuz yerə vaxtında çatacağıq".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Bitki genetik müxtəlifliyi qlobal iqlim dəyişikliyinə uyğunlaşmalıdır

**COP29-un Azərbaycanda keçirilməsi ölkənin davamlı inkişafa və beynəlxalq əməkdaşlığa sadiqliyini vurğulamaqla bərabər, həmçinin dövlətimizin nüfuzunun daha da güclənməsinin göstəricisidir. COP29 istixana qazı emissiyalarını azaltmaq öhdəliklərinin yerinə yetirilməsinə kömək edəcək, bu isə atmosferin ekoloji vəziyyətini, havanın keyfiyyətini yaxşılaşdıracaq və nəticədə iqlim dəyişikliyini və onun təsirlərini azaltmağa kömək edəcəkdir.**



Azərbaycan istixana qazı emissiyalarını 2050-ci ilə qədər 40 faiz azaltmaqla Paris Sazişinə uyğun olaraq, qlobal iqlim məqsədlərinə töhfə verəcəkdir.

COP29 biomüxtəlifliyin itirilməsi kimi problemləri də ön plana çıxarır və onların həlli üçün əlavə resursların ayrılmasına imkan yaradacaqdır.

İqlim dəyişmələri qlobal bir proses olub, onun nəticələrini adi insanlar Azərbaycanda da hiss edirlər. Bəzən fəsillərin, ayların yerinin dəyişdiyini iddia edirik. Bütün bunlar qlobal səviyyədə atmosferin sərhədinin olmadığından iqlim dəyişmələrinin lokal təsirlərinin nəticəsidir. Məhz buna görə də iqlim dəyişmələrinin təsirlərinin yumşaldılması üçün tədbirlər həyata keçirilməli və ona uyğunlaşmaq məqsədilə zəruri addımlar atılmalıdır.

Qlobal iqlim dəyişikliklərinin intensiv xarakter aldığı müasir dövrdə aqrobiomüxtəliflik canlı həyatın mühafizəsində, insanların ərzaq və digər ehtiyaclarının ödənməsində və davamlı inkişafa nail olunmasında xüsusilə mühüm əhəmiyyətə malikdir.

Azərbaycan bir çox bitki növlərinin ilkin əmələgəlmə və mədəniləşdirmə mərkəzlərindəndir. Müsbət əlamətlərin, davamlılıq genlərinin daşıyıcısı kimi böyük əhəmiyyətə malik yabanı əcdad növlər və xalq seleksiyası nümunələrinin qiymətli müxtəlifliyi məlum səbəblərdən azalmış, bəzi növ və sortlar isə itmiş və ya itmək təhlükəsindədir.

Hazırda, yabanılarda və qədim xalq seleksiyası sortlarında mövcud olan qiymətli genlərin ənənəvi və biotexnoloji metodlarla köçürülməsi dəyişən mühitə uyğunlaşmağa kömək edən və yeni formaların yaradılmasında yeganə ehtiyat mənbəyidir. Onların təhlili, itmə təhlükəsinin vaxtında aşkara çıxarılması və toplama prioritetlərinin təmin olunması olduqca vacibdir. Ərzaq və kənd təsərrüfatı bitkilərinin biotik və abiotik stres amillərinə davamlılığının artırılması strategiyalarının əsasında da genetik müxtəlifliyin qorunub saxlanması və artırılması durur. Bu məqsədlə Milli Genbankda, genefond bağlarında, əsasən, yerli genetik müxtəlifliyin qiymətli nümunələri toplanaraq bərpa və mühafizə edilir.

Mühafizə strategiyalarının düzgün və elmi əsaslı tətbiqi mühüm əhəmiyyət daşısa da, başlıca məqsəd genefondun səmərəli istifadəsinə nail olmaqdan ibarətdir. Deməli, toplanmış genetik materialın qiymətli donorları seçilməli və seleksiya proqramlarına cəlb edilməli, ətraf mühitin dəyişikliklərinə daha adaptiv xüsusiyyətlərə malik sortların yaradılması ön plana çıxmalıdır. Bu mühüm vəzifələr nəzəri və praktiki tədqiqatlar, seleksiya və biotexnologiya proqramları və s. vasitəsilə həyata keçirilməlidir.

Qlobal iqlim dəyişmələri şəraitində yeni sortların yaradılmasına həm də ekosistem yanaşma olmalıdır. Bu sahədə uzun müddət ərzində toplanmış çoxillik təcrübi materiallar ətraf mühitin dəyişməsi baxımından ciddi təhlil edilməli və bunun əsasında aqroekoloji proqnozlaşdırma modelləri hazırlanmalıdır. Bu zaman iqlim dəyişikliklərinin bitkilərin becərmə şəraitinə təsiri də nəzərə alınmalıdır. İrəli sürülmüş və əsaslandırılmış proqnozlar əsasında bitkilərin müvafiq əlamətlərə malik yeni sortlarının yaradılması və istifadəsinə başlanılmalıdır. Bütün bunlar seleksiya proqramlarında bitki genetik ehtiyatlarından (BGE) istifadənin keyfiyyətcə daha yüksək səviyyəyə qaldırılmasını tələb edir.

Bu baxımdan BGE-nin etibarlı mühafizəsi və səmərəli istifadə olunması informasiya sistemlərindən asılıdır. Məlumat bazaları pasport, botaniki və ekoloji verilənlərlə yanaşı, səciyyələndirmə və qiymətləndirmə məlumatlarını da əhatə etməlidir. Bu, seleksiyaçıların bitki ehtiyatlarına müraciət və seçmə imkanlarının artırılmasına xidmət göstərməsi baxımından çox vacibdir.

İqlim dəyişilmələri reallıqdır və hətta bütün mənfi antropogen təsirləri gecikmədən dayandırmaqla belə, onu saxlamaq mümkün deyildir. Ona görə də biz mümkün dəyişilmələrin nəticələrinin yumşaldılmasına və onlara uyğunlaşmağa istiqamətlənmiş səylərimizi genişləndirməliyik.

Bu gün iqlim dəyişiklikləri tarixdə misli görünməmiş sürətlə baş verir. Ümumiyyətlə, bu dəyişikliklər nə qədər sürətlə gedirsə, insanlara və ekosistemlərə təsiri bir o qədər güclü olur. Nəticələrin yumşaldılması üzrə tədbirlərə əlavə olaraq, iqlim dəyişilməsinə qarşı təcili uyğunlaşma planlarının hazırlanması və reallaşdırılması vacibdir. Hesab edirəm ki, COP29 bu sahədə də tədqiqatlara təkan verəcəkdir.

*Zeynal ƏKPƏROV,*
*AMEA-nın müxbir üzvü,*
*AR ETN Genetik Ehtiyatlar İnstitutunun baş direktoru*

## İqlim dəyişikliyi ilə mübarizədə yeni mərhələ və iqtisadi gözləntilər

**"Dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən biri hesab edilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) yekdil qərarla ölkəmizin ev sahibi seçilməsi Azərbaycana qarşı dünya ölkələrinin böyük etimad və hörmətinin bariz nümunəsidir.**

Prezident İlham Əliyev COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı səsvermənin nəticələrini yüksək qiymətləndirərək bildirmişdi ki, COP29-a evsahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik"

Bu sözləri "Azərbaycan" qəzetinə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Strateji planlaşdırma şöbəsinin baş məsləhətçisi Aygün Əhmədova deyib. O bildirib ki, irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi ev sahibi olan ölkənin üzərinə böyük məsuliyyət qoyur. İrihəcmli və mükəmməl hazırlıq tələb edən tədbirlərdə yüksək təcrübəsi olan Azərbaycan üçün COP29 bu vaxta qədər keçirilmiş Beynəlxalq Astronavtika Konqresi, Avropa Oyunları, "Formula-1" - Azərbaycan Qran-prisi kimi tədbirlərin ən böyüyüdür. Ölkəmiz iştirakçı sayı ilə müqayisəyə gəlməyəcək dərəcədə əvvəlki tədbirlərdən fərqlənən COP29-da iki həftə ərzində xarici qonaqlara evsahibliyi edəcək. 70 mindən çox xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq.

A.Əhmədova qeyd edib ki, tədbirə hazırlıq prosesi yalnız ölkəyə gələcək qonaqların qarşılanması, yerləşdirilməsi, xidmətin təmin olunması kimi məsələləri əhatə etməmişdi: "Bu hazırlıq, ilk öncə Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə, dayanıqlı inkişaf, bərpaolunan enerji mənbələrinin artırılması və ekoloji siyasət sahəsindəki fəaliyyətlərini gücləndirməyi nəzərdə tutur. "Yaşıl enerji" növlərindən istifadənin genişləndirilməsi və dünya bazarına nəqli ölkəmizin enerji siyasətində prioritet kimi müəyyən edilib. 2 fevral 2021-ci ildə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritlər"dən biri də, məhz "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" kimi müəyyən olunub. Bu isə bir daha Azərbaycanın davamlı iqtisadi inkişaf hədəflərinə uyğunlaşmasını və iqlim dəyişikliyi ilə mübarizədə qlobal öhdəliklərə sadiqliyini nümayiş etdirir. Bu prioritet daxilində strateji dövrdə yüksəkkeyfiyyətli ekoloji mühit və "yaşıl enerji" məkanının formalaşdırılması məqsədlərinin effektiv reallaşdırılmasına nail olunması qarşıya hədəf olaraq qoyulub. Prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Bu qəbildən aparılan işlər çərçivəsində işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan olunub".

Mütəxəssis qeyd edib ki, seçilən prioritet və çağırışlar qismində Azərbaycan Prezidentinin 2023-cü il 25 dekabr tarixli sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması da ölkəmizin iqlim



dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verməklə böyük iradə nümayiş etdirdiyini göstərir. Daha öncə isə Prezident İlham Əliyevin 2010-cu ili ölkəmizdə "Ekologiya ili" elan etməsi ekoloji problemlərin həllinə böyük diqqət və həssaslıqla yanaşmağın uzun sürən bir dövlət siyasəti kimi davam etdiyini və bu istiqamətdə strateji prioritetlərin təməlində dayandığını göstərir.

Ölkədə bərpaolunan enerjiyə artan diqqətin və Azərbaycanın elan etdiyi enerji keçidi hədəfi - "yaşıl enerji"nin 2030-cu ildə payının 30 faizə çatdırılması öhdəliyi dünyanın ən nüfuzlu enerji şirkətləri olan "Masdar", "ACWA Power", "BP", "Fortescue Future Industries", "China Gezhouba Group","Total Energies", "Nobel Energy", "Czech Engineering", "Baltech" və digərlərini bərpaolunan enerji layihələrində əməkdaşlığa sövq edib.

A.Əhmədova bildirib ki, COP tədbirləri ev sahibi ölkələrə həm iqtisadi, həm də sosial sahədə müxtəlif imkanlar və gəlirlər gətirir. Bu, qısamüddətli iqtisadi gəlirlər uzunmüddətli dövr üçün ekoloji və iqtisadi inkişaf üçün bazis rolunu oynayır. "COP tədbirləri ümumilikdə ev sahibi ölkələrinin iqtisadiyyatına bir sıra müsbət təsirlərini göstərib. Bu təsirlər əsasən ekoloji layihələrə investisiyaların artırılması, turizm və xidmət sektorlarının genişlənməsi, eləcə də "yaşıl iqtisadiyyat"a keçid üçün yeni imkanların yaradılması ilə əlaqədar olub. Həmçinin ölkələrin infrastrukturuna yerli və xarici investorların yatırımlarının artmasına səbəb olur. Bu tədbirlər üçün lazımi səviyyədə infrastrukturun təmin edilməsi məqsədilə hotel, konfrans mərkəzləri, nəqliyyat şəbəkəsi və digər xidmətlər inkişaf etdirilir. Bu yenidənqurma layihələri təkcə tədbir dövrü üçün deyil, həm də uzunmüddətli perspektivdə iqtisadi inkişaf, ölkəyə turizm və investorların axını baxımından böyük töhfə verə, yeni imkanlar və dayanıqlı iqtisadi artım üçün stimul yarada bilər. COP tədbirləri texnologiya və bilik mübadiləsinə səbəb olur. Bu, ev sahibi ölkənin iqtisadiyyatına texnologiya transferi və innovativ layihələrin daxil olması üçün yeni imkanlar yaradır. Xüsusilə, inkişaf etməkdə olan ölkələr üçün bu, ekoloji cəhətdən davamlı texnologiyaların gətirilməsi və iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinin gücləndirilməsi baxımından əhəmiyyətlidir", - deyə o əlavə edib.

Mütəxəssis bildirib ki, COP tədbirləri çərçivəsində ölkələr iqlim dəyişikliyi ilə mübarizə üçün təmiz enerji, "yaşıl texnologiya"lar və dayanıqlı layihələrə investisiya yatırmağa təşviq olunur. Bu, enerji sektorunda "yaşıl keçid"i dəstəkləyərək yeni iş yerlərinin açılmasına şərait yaradır. Xüsusilə, külək və günəş enerjisi kimi bərpaolunan enerji sektorlarının genişlənməsi üçün iş imkanlarını artırır. Azərbaycanın COP29-a evsahibliyi etməsi, ölkənin iqlim dəyişikliyi ilə mübarizə səylərini beynəlxalq səviyyədə tanıtmaq və regionda lider rolunu gücləndirmək baxımından böyük əhəmiyyət kəsb edir. Bu, həm də Azərbaycanı iqlim dəyişikliyi mövzusunda beynəlxalq əməkdaşlığın genişləndirilməsi və qlobal tədbirlərdə daha fəal iştirak üçün bir platforma ilə təmin edəcək.

A.Əhmədova qeyd edib ki, hazırlıq dövründə ictimai iaşə obyektlərində aparılmış dayanıqlılıq standartlarına uyğunluğuna dair bir sıra yoxlamalar əsasında xüsusi nişanların təqdim olunması, otellərin kadr ehtiyatının müvafiq təlimlərə cəlb olunması, çoxsaylı qonaqların nəqliyyat seçimi ilə bağlı rahatlığını təmin etmək məqsədilə avtomobillərin icarəsi xidmətlərinə, eyni zamanda sürücü xidmətinə tələblər, logistika, ölkədaxili turizm paketlərinin formalaşması və s. kimi fəaliyyətlər həm ölkəyə gələn tədbir iştirakçılarına, həm də ölkə əhalisinə yüksəkkeyfiyyətli xidmətin təmin olunmasında mühüm rol oynayır. Formalaşan beynəlxalq rəqabətqabiliyyətli xidmət sektoru uzunmüddətli dövr üçün ölkəmizin gələcək turizm potensialının artımına müsbət təsiri olacaq, iqtisadi dayanıqlılıq üçün yeni perspektivlər yaradacaq və qlobal bazarda rəqabət gücünü daha da artıracaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

COP29 Baku Azerbaijan

# Azərbaycan qlobal tədbirlərin mükəmməl təşkilatçılıq modelini yaradıb

## "Gözəl bir sevgi şəhərində olduq"

**Qlobal iqlim dəyişikliyi ilə bağlı müzakirələrin ən yüksək platforması olan COP29-un evsahibliyinin Azərbaycana həvalə edilməsi ölkəmizə olan yüksək etimadın və inamın göstəricisi, Prezident İlham Əliyevin liderliyində beynəlxalq təşkilatlarla formalaşdırılmış uğurlu əməkdaşlığın nəticəsidir.**

Belə böyük bir tədbirə evsahibliyi etməsi Azərbaycanın dünyada artan nüfuzunun, möhkəmlənən yerinin və dünya siyasətində fəal iştirakının, eyni zamanda müxtəlif dövlətlərin və beynəlxalq təşkilatların Bakıya olan marağının parlaq ifadəsidir.

COP29-un keçirildiyi bu günlərdə bütün dünyanın diqqəti yenidən Azərbaycana yönəlib. Ölkəmizə misli görünməmiş xarici qonaq, turist gəlməkdə davam edir. Birmənalı olaraq qeyd edə bilərik ki, keçirilən bu möhtəşəm tədbir ölkəmizin beynəlxalq imicinin daha da artmasına mühüm töhfə verməklə yanaşı, Azərbaycanın bəşəri dəyərlərə malik olduğunu bir daha nümayiş etdirir.

Qəzetin əməkdaşları İçərişəhərdə ölkəmizə gələn qonaqlarla görüşüb, onların Azərbaycan haqqında fikirləri, təəssüratları ilə tanış olublar.

**Deepak Suami** Hindistandan gəldiyini deyir:



- Azərbaycan, Bakı haqqında çox da məlumatlı deyildim. COP29-un Bakıda keçiriləcəyini mətbuatdan xəbər tutdum. Fikirləşdim ki, dünyanın 190-dan çox ölkəsinin nümayəndələrinin üz tutduqları şəhərə getmək maraqlı olar. Ölkənizlə tanışlıqdan sonra indiyə kimi bu gözəl diyara gəlmədiyim üçün təəssüfləndim. Əvvəllər eşitmişdim ki, Azərbaycanda müharibə gedir. Açığını deyim ki, ölkəniz haqqında fikrim çox qarışıq idi. İnsanlarınızı, buradakı mehribançılığı, qonaqpərvərliyi görüb heyrətləndim. Anladım ki, 30 il haqsız olaraq müharibəyə cəlb edilmisiniz. Bu cür istiqanlı, mehriban insanlar başqalarına pislik edə bilməzlər. Fürsətdən istifadə edib, "Yanardağ"da və "Atəşgah"da da oldum. Yalnız özüm üçün yox, sizin xalqa da dualar etdim. Qədim İçərişəhər isə xalqınızın tarixi mədəniyyəti haqqında çox yaxşı təəssürat yaradır. Mən bu gözəl məkanı heyranlıqla seyr edirəm. Bakı xatirələri yaddaşıma öz möhürünü əbədi olaraq vurdu. Öz ölkəmə dönəndən sonra Azərbaycandan, onun gözəl təbiətindən, mehriban insanlarından söz açacağam.

Tatarıstandan gəlmiş **Lada Zakirova** isə deyir:



- Bir neçə gündür ki, rəfiqələrimlə Bakıdayam. Şəhərinizin gözəlliyi haqqında çox eşitmişdim. Amma belə gözəl ola biləcəyini ağlımdan keçirə bilməzdim. Çaşıb qalmışam. Bu möhtəşəmliyin rəsmini gözlərimə köçürmək istəyirəm. Bakı dünyanın ən gözəl şəhər modeli kimi yaddaşıma əbədi həkk olundu. Bilirsiniz, bu şəhəri gözəl edən nədir? Bu şəhərin insanları. Adamlara olan doğma münasibət, qonaqpərvərlik... Mən Bakı ilə tanışlığa Şəhidlər xiyabanından başladım. Müasir ölkənizin qurucusu Heydər Əliyevin məzarını ziyarət etməyi özüm üçün vacib sandım. Çox xoşbəxt xalqsınız ki, bəxtinizə belə bir dahi şəxsiyyət düşüb. İftixar edə bilərsiniz ki, onun cənab İlham Əliyev kimi davamçısı var və belə bir qüdrətli dövlət qurub. Çalışacağam ki, işğaldan azad olunmuş torpaqlara da gedim. Erməni vandallarının dağıtdığı, xaraba qoyduğu o şəhərləri, kəndləri görüm. Tatarıstana qayıdanda gözümlə gördüklərimin şahidi kimi danışacağam.

Azərbaycanın dünyada artan nüfuzu, iqtisadi gücü, hərbi qüdrəti ilə fəxr edə bilərsiniz. Ölkəniz dünyada sülhün, əmin-amanlığın əsl ünvanı kimi tanınmaqdadır. Bura gələndə eşitdim ki, COP29 sədrliyi rəsmi olaraq möhtəşəm bir təşəbbüslə, dünyaya sülh çağırışı ilə müraciət edib. COP29-un əsas mesajı budur ki, bütün bəşər siyasi fərqliliyi bir kənara qoyaraq birlik nümayiş etdirməlidir.

Münaqişələrin davamlı olaraq artması fonunda bu amal həmişə olduğundan daha vacibdir. Bu, fikir ayrılıqlarını aradan qaldırmaq və uzunmüddətli sülhün yollarını müəyyən etmək üçün unikal imkandır. Münaqişələr, istixana effekti yaradan qaz (İXQ) emissiyalarını artıraraq ətraf mühiti məhv etməklə yanaşı, torpaq, su və havanı da çirkləndirir. Münaqişələr nəticəsində ekosistemin məhv edilməsi və ətraf mühitin çirklənməsi iqlim dəyişməsini daha da gücləndirir və planeti qorumaq üçün göstərdiyimiz səyləri zəiflədir. Ölkənizin təşəbbüsünü alqışlayırıq. Hesab edirəm ki, iqlim danışıqları hamını bir araya gətirməlidir, hər kəsin tam diqqət və əməkdaşlığı çərçivəsində COP29-un keçirildiyi günlər ərzində dünyada münaqişə edən bütün tərəflər COP Atəşkəs Çağırışına riayət etməlidir.

Yunanıstanlı qonaq **Antonis Mihail** deyir ki, ölkəniz haqqında xoş təəssüratım elə hava limanından başladı.



Xalqınızın qonaqpərvərliyi, xoş münasibəti məni duyğulandırdı. Burada taksi sürücüsündən tutmuş restorandakı qarsona qədər hamıda nəzakət, yüksək mənəvi dəyər gördüm. Elə bil insanlar daha çox yaxşılıq etmək üçün bir-biriylə bəhsə giriblər. Bütün bunları görəndən sonra 2020-ci ilin Vətən müharibəsində qazandığınız qələbənin sirrini anladım. Belə birliyi olan xalq Tanrının ən yüksək mükafatına layiqdir.

Dövlətinizin başçısı ilə fəxr edə bilərsiniz. Mən 2020-ci ildə ölkənizdə müharibə gedəndə Azərbaycanda baş verən prosesi ciddi izləyirdim. Açığını deyim ki, cənab İlham Əliyevin fəaliyyətini görəndə sizə həsəd apardım. Ürəyimdən keçdi ki, kaş mənim ölkəmin də belə uzaqgörən, xalqı üçün gecə-gündüz çalışan bir lideri olaydı. İnanın ki, bu hiss mənim ölkəmin vətəndaşlarının çoxunun ürəyindən keçib. Ölkəmiz çətin durumdadır. Xarici borcu artıb. Gördüklərimdən belə qənaətə gəlmişəm ki, Azərbaycan nəinki regionun ən qüdrətli dövlətidir, dünyada iqtisadi gücü ilə fərqlənən bir respublikadır. Faktiki olaraq ölkəniz Avropanın enerji təhlükəsizliyinin təminatçısıdır.

COP29-un Azərbaycanda keçirilməsi ölkənizin nüfuzuna beynəlxalq miqyasda verilən ən doğru qiymətdir. Mən Azərbaycana gəlib bu gözəllikləri gözümlə gördüyüm üçün çox məmnunam. Sizin qüdrətli ölkənin vətəndaşı kimi fəxr etməyə tam haqqınız var.

Digər həmsöhbətimiz isə Dubaydan gəlmiş **Raşid Məcid** oldu. Raşid deyir:



- Mən dünyanın çox ölkəsində olmuşam. Azərbaycanda olan qonaqpərvərliklə, insanpərvərliklə dünyanın heç bir yerində rastlaşmamışam. Xidmət təşkilatlarının işi də nümunəvidir. Bakı gözəlliyi, rəngarəng gül-çiçəyi ilə məni valeh edib. İnsanların səmimi ünsiyyəti, mehriban davranışları, məni çox düşündürür. İnsanların bir məqsədi var - yaxşılıq etmək. Bəzi yerlərdə küçə musiqisi ilə məşğul olan insanlar qarşıma çıxdı. İnanın ki, musiqinin gözəlliyi, ifaçıların məharəti məni təəccübləndirdi. Saatlarla musiqiyə qulaq asmışam. Musiqinizi, mədəniyyətinizi sevməmək qeyri-mümkündür.

İçərişəhər qədimliyi və səliqə-sahmanı, təmizliyi ilə xoş təəssürat yaradır. Bura insanı tarixin keçmiş zamanına aparır. Qədim dövrə aid toxunma corablar, Azərbaycan kəlağayısı almışam. Qarşıma nə çıxırsa, xoşuma gəlir. Gördüklərimi almaq istəyirəm. Belə getsə, Dubaydakı mənzilim əsl Azərbaycan muzeyinə çevriləcək. Özümə söz vermişəm ki, Dubaya gedəndən sonra bu gözəl ölkənin təbliğatçısı olum. Qarşıma çıxan bütün insanlara azərbaycanlıların gözəl xüsusiyyətlərindən bəhs edəcəyəm.

Londondan gələn **Cen Orsen** deyir:



- Ölkənizin dünyanın qlobal problemlərinin çözüldüyü bir mərkəz olması ilə qürur duymaqda tam haqlısınız. Dünyanın harasına nəzər salsan təbii fəlakətlər, siyasi kataklizmlər müşahidə edilir. Dünya sanki fəlakət qarşısındadır. Mən belə düşünürəm ki, təbiət insanlara bu cür etiraz edir. Bir tərəfdə quraqlıqlar, qlobal istiləşmə, digər bir tərəfdə isə sel, tufan, sunami. Başqa bir yerdə insanlar bir-birinin başına göydən bomba tökür, raket atır...

Belə bir zamanda Azərbaycan dünyaya sülh çağırışı edir. Hər yerdə sülh olmasını istəyir. Bir baxın sizin ölkənin insanlarının üzündən nur tökülür. Ona görə ki, sülhpərvər, insansevərdirlər...

Azərbaycanda gördüklərim mənə çox xoş təsir bağışlayır. Hər yeri bəzəyən güllərin rayihəsi sanki insanların üzünə də təsir edib, onları gözəlləşdirib. Yaxud da düşünürəm ki, burada belə insanlar yaşadığı üçün Tanrı Azərbaycana belə imkanlar yaradıb. Fürsətdən istifadə edib bütün Azərbaycanı gəzmək istəyərdim. Nə qədər imkanım var, Bakının bütün görməli yerlərini gəzəcəyəm.

Ağ Şəhərdə də olmuşam. Öyrəndim ki, Ağ Şəhər Bakının ən çirkli yeri, neft tullantıları ilə çirklənmiş ərazisi olub. Ağ Şəhəri ölkənizin ağ günlərinin simvolu kimi də qəbul etmək olar. Çox möhtəşəmdir, heyran olmamaq mümkün deyil.

Bakı bulvarını isə reallıqdan çox gözəl bir tabloya bənzətdim. İnsanlarınız kimi buranın havası da gözəldir. Bu gündən özümü İngiltərədə Azərbaycanın xoşməramlı, könüllü səfiri elan edirəm. Londona qayıtdıqdan sonra insanlara ölkənizdə gördüyüm möcüzələrdən bəhs edəcəyəm. Deyəcəyəm ki, azərbaycanlılar yaşadığımız dünyanın mənəvi sərvətidirlər. İnsanlığın ən gözəl inciləridir.

Rastlaşdığım braziliyalı qonaq **Cilto Olevera** deyir:



- Bakı həyatımda ən çox xatırlayacağım ən gözəl şəhər kimi qalacaq. Bu şəhər doğmalığı ilə məni heyran etdi. Gördüyüm hər bir yer məni özünə bağlayır. İnsanların münasibəti isə tamam başqadır. Yalnız doğma adamın ilə belə səmimi davrana bilərsən. Qəti gəldiyim qənaət budur ki, insanları birləşdirən din, irq deyil, insanlıqdır. İnsanlıq ölkənizin çox qiymətli sərvətidir. Yəqin ki, bu möhtəşəm tədbirin, bəşəriyyət üçün çox önəmli məsələnin müzakirəsinin keçirilməsini Bakıya salanda bu faktoru nəzərə alıblar. Bakı COP konfransını keçirməklə yalnız təbiəti yox, dünyanı fəlakətdən, müharibələrdən xilas etmək üçün sülh çağırışı edib.

Bakının gündüzü kimi, gecələri də gözəldir. Binaların əlvan görünüşü, rəngbərəng işıqlar, sanki ulduzlara qarışıb gözəl bir harmoniya yaradır.

Braziliyaya qayıdanda insanlara deyəcəyəm ki, mən bir sevgi şəhərində oldum. Olduğum ölkənin vətəndaşları insanları sevmək üçün yaranıb.

Digər braziliyalı **Vera Luçia** söhbətə qoşulur:



- Belə bir tarixi gündə Azərbaycanda olmaq mənim üçün çox qürurvericidir. Özümü bəxtli insan hesab edirəm. Dünyanın üzləşdiyi çox qlobal bir məsələnin Bakı kimi gözəl bir şəhərdə müzakirəsi çox yerinə düşüb. Bu tədbirin iştirakçısı olmağım ömrümün ən yaddaqalan anları kimi xatirəmdə qalacaq. Dünyanın çox ölkəsində olmuşam. Belə mütəşəkkil tədbirin keçirildiyinə heç yerdə şahidlik etməmişəm. Hava limanından COP29-un keçirildiyi konfrans zalına kimi hər şey çox gözəldir. Bakının cazibədarlığı, xoşrəftarlı insanların münasibəti ruhumu oxşadı.

Ölkənizdə insanların bayrağa olan sevgisi məni təəccübləndirdi. Düşünürəm ki, Azərbaycan iqtisadi, sosial inkişafa sevgi ilə nail olub. Burada insanların hamısı sanki bir-birinin yanındadır. Azərbaycandan öyrəniləsi çox şey olduğu qənaətindəyəm.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

## Tullantılara "ikinci həyat"




**Dünyada əhalinin sayı sürətlə artmaqdadır. Bu da resursların azalmasına, tullantıların artmasına səbəb olur. Hazırda planetdə 2 milyard tondan artıq bərk məişət tullantıları formalaşıb. Tullantıların 35 faizi dünya əhalisinin, təxminən 16 faizinin yaşadığı inkişaf etmiş və gəlirləri yüksək olan ölkələrin payına düşür. 2050-ci ilə qədər bu rəqəmin 40-45 faizə qədər yüksələcəyi gözlənilir.**










### 2030-cu ilə qədər elektron tullantıların miqdarı 82 milyon tona çatacaq

Yeni texnoloji modellərin sürətli inkişafı və onların daim yenilənməsi nəticəsində hər il milyardlarla ton elektron tullantıları yaranır. Bu tullantıların ümumi miqdarının 2030-cu ilə qədər 30 faiz artaraq 82 milyon tona çatacağı gözlənilir. Tədqiqatçılar bu problemin öhdəsindən gəlməyin əsas yollarından biri kimi təkrar emalı tövsiyə edirlər.

Bu gün insanların sosial və iqtisadi fəaliyyəti nəticəsində istifadə müddətini doldurmuş və təbiətə zərər verən tullantıların idarə edilməsi, toplanması, təkrar emalı və utilizasiyası qlobal xarakter alıb. Tullantıların təkrar emalı və yenidən istehlak prosesinə daxil edilməsinin əsas məqsədi iqlim dəyişikliyinin, təbii ehtiyatların azalmasının və ətraf mühitin çirklənməsinin qarşısını almaqdır. Ekoloqlar da bildirirlər ki, təkrar emalın sıfırdan istehsaldan əsas fərqi sənaye proseslərinin sayının xeyli az olmasıdır. Bu da öz növbəsində böyük miqdarda enerji qənaətinə şərait yaradır.

### COP29-da Həmrəylik Mərkəzi

Ekoloji problemlər, ətraf mühitin qorunması məsələsi dövlətimizin əsas prioritet məsələlərindəndir. Hazırda dünyanın qlobal tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişmələri Üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına (COP) Azərbaycanın evsahibliyi etməsi də bunun əyani sübutudur.

Bir müddət öncə COP29 Könüllüləri "Təkrar emal fəalları" adlı təmizlik aksiyası da keçirmişdilər. Ekoloji aksiya çərçivəsində könüllülər Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsində yerləşən parkda istirahət edən sakinlərlə ictimai təmizliyə riayət olunması və şəhər parklarının ekoloji durumunun sağlamlaşdırılmasının əhəmiyyəti barədə maarifləndirici söhbət aparmışdılar. Toplanan 230 kilodan çox həcmdə müxtəlif növ bərk məişət tullantıları könüllülər tərəfindən Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavoduna növbəti təkrar emal üçün təhvil verilmişdi. Bu təşəbbüs COP29 könüllüləri tərəfindən iqlim dəyişmələri problemləri və onların həlli yolları, həmçinin bu istiqamətdə kollektiv və birgə fəaliyyətin rolu haqqında ictimaiyyətin məlumatlılığının artırılmasına yönəlmiş davamlı fəaliyyətin bir hissəsi idi.

Hazırda COP29 tədbirinin keçirildiyi ərazidə ümumilikdə 155 pavilyon fəaliyyət göstərir. Pavilyonlarda innovasiyalar, iqlim dəyişmələri ilə mübarizə üzrə potensial həll variantlarının təqdim edilməsinə dair müzakirələr, panellər keçirilir və sərgilər təşkil olunur. Bu pavilyonlardan biri də COP29-un "yaşıl zona"sında yerləşən Heydər Əliyev Fondu və Sıfır Atık Fondunun birgə yaratdıqları COP29-da Həmrəylik Mərkəzidir. Azərbaycan və Türkiyənin iki fondu qlobal tədbir zamanı davamlılıq və sosial inkişaf naminə səylərini birləşdirib.

COP29-dakı birgə layihə hər iki fondun ətraf mühit və sosial məsuliyyət sahələrində fəaliyyətlərini önə çəkir. Heydər Əliyev Fondunun təhsil, səhiyyə, sosial və mədəniyyət layihələri ilə yanaşı, ətraf mühitin qorunması üzrə təşəbbüsləri də öz səmərəsi ilə cəmiyyətdə rəğbətlə qarşılanır. Pavilyon çərçivəsində təhsil, səhiyyə və sosial sahələrdəki layihələrlə bağlı interaktiv zona yaradılıb. Sıfır Atık Fondu da resurs səmərəliliyi, tullantıların idarə olunması və təkrar emal sahəsindəki layihələrini, ətraf mühitin qorunması üzrə maarifləndirmə istiqamətindəki proqramlarını və innovativ həllərini təqdim edir.

### Qida tullantıları yenidən emal olunacaq

COP29 konfransının formatına uyğun olaraq burada istifadə olunan qida tullantıları yenidən emal olunacaq. Bunun üçün ərazidə 1200-dən çox əməkdaş çalışır. Bunu COP29 üzrə Ketrinq, Təmizlik və Tullantıların Təmizlənməsi Departamentinin şöbə müdiri Anar Zeynalov jurnalistlərə açıqlamasında bildirib. O deyib ki, buraya ümumi, qablaşdırma, şüşə və digər tullantılar çeşidlənərək, emal olunaraq aidiyyəti qurumlara təhvil veriləcək. Xüsusi avadanlıqlar vasitəsilə qida tullantılardan alınan gübrələri Bakı Abadlıq Xidmətinə göndəriləcək.

Dünyanın ən irimiqyaslı tədbirlərindən biri olan COP29 tullantıların təkrar emalı, çirklənmiş ərazilərin bərpası, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə sahəsinə öz töhfəsini verəcək.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

COP29 Baku Azerbaijan







# QLOBAL XƏBƏRİN NƏBZİ BAKIDA “DÖYÜNÜR”


















COP29 Baku Azerbaijan

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 30 aprel (Çərşənbə günü) tarixli 169-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Çaharənbə, 29 rəcəbül-mürəccəb sənə 1337.
30 nisan 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## İNGİLTƏRƏ-QAFQAZİYA BANKİR KANTORASI

*(Bakı, Velikoknyajeski küçədə, nömrə 1)*

Müamilat [əməliyyatlar] türk və rus dillərindədir.

İngiltərə-Qafqaziya Bankir Kantorası may ayının 3-ndən etibarən açılıb, bu aşağıdakı müamilatda bulunacaqdır:

Əcnəbi valyuta alıb-satmaq. Qiymətli kağızlar alıb-satmaq. Mal xərid və füruş [alıb-satmaq]. İldə 6 faizlə hesabi-cariyə tövdilər [cari hesaba əmanətlər] qəbulu. Təcili tövdilər qəbulu. Para bərat edilməsi [göndərilməsi]. Mal və mal sənədlərinə rəhn [girov] olaraq borc verilməsi. Bundan əlavə müxtəlif komisyon sifarişatı qəbul edilir. Tiflisdə, Batumda, İstanbulda və Londonda dəxi kantoralar açılır.

*8739*

## ELAN

Cümə günü, may ayının 2-də Spasski küçədə, 137 nömrəli evdə, 18 nömrəli odada Əlihüseyn Əliyevin mənzilində, saat 9-da Şəki Həmvətənlər Cəmiyyətinin ümumi iclası olacağından Bakıda müqim [yaşayan] bilümum [bütün] şəkililərin məzkur [deyilən] mənzilə təşrif gətirmələri rica olunur.

*Müvəqqəti Komissiya*

May ayının 2-də, cümə günü, saat 10-da Şəhər Dumasının salonunda Cəmiyyəti-Maarifi-İraniyan [İranlılar Maarif Cəmiyyəti] barəsində məlumat veriləcəkdir. Binaənileyh [ona görə], ümum iranlıların məzkur vaxtda təşrif gətirmələri rica olunur.

*Heyəti-müvəqqətə*
*8752*

## BEYNƏLMİLƏL İCTİMAİ MƏCMƏ [YIĞINCAQ]

Həmin aprel ayının 15-dən açılmışdır. Olqinski küçə, nömrə 5 (Kafe Parisin üstündə). İctima [yığıncaq] gündüz saat 12-dən və axşam isə saat 9-dan açılır. Rumınski orkestr məşhur skripkaçı N. Angeleskonun təhti-nəzarətində [rəhbərliyi altında] çalınır. Daxil olmaq ancaq üzvlərin müərrifliyi [tanışlığı, aşnalığı] ilə ola bilər.

*8747*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Azərbaycan Məclisi-Məbusan Rəisi həzrətlərinin əmrnamələri**

Əmrnamə nömrə 96

Azərbaycan Məclisi-Məbusan İdarəsinin təhrirat xidmətçisi [məktub xidmətçisi] Ağalar İskəndərli 1919 sənəsi aprel ayının 6-dan etibarən həmin idarədə mütərcim təyin edilir.

Əmrnamə nömrə 97

Birinci Tatar Alayı zabiti Hüseyn bəy Qasımzadə 1919 sənəsi mart ayının 20-dən etibarən Azərbaycan Parlaman qorucu bölüyü komandanı yavərliyinə təyin edilir.

Əmrnamə nömrə 98

Azərbaycan Məclisi-Məbusan İdarəsinin telefonçusu Fatma xanım Mustafazadə həmin aprel ayının 13-dən etibarən məzkur [deyilən] idarə təhrirat xidmətçisi təyin edilir.

Əmrnamə nömrə 99

Azərbaycan Məclisi-Məbusanının rus [məzbətə] mühərriri [protokol katibi] Polina İosibovna Qoldman 1919 sənəsi aprel ayının 1-dən etibarən məzuniyyətdən vaxtında qayıtmadığı üçün vəzifəsindən kənar edilir.

Əmrnamə nömrə 100

Azərbaycan Məclisi-Məbusan İdarəsinin təhrirat xidmətçisi Zeynalabdin Gözəlzadə 1919 sənəsi 22 apreldən etibarən Parlaman Torpaq və Fəhlə komisyonu kargüzarlığına təyin edilir.

Əmrnamə nömrə 101

Miralay [polkovnik] Daniil Seoyev 1919 sənəsi aprel ayının 24-dən etibarən Azərbaycan Məclisi-Məbusanının rus məzbətə mühərrirliyinə [protokol katibliyinə] təyin edilir.

Əmrnamə nömrə 102

Sabiq Bakı müəllimələrindən Şəfiqə xanım Əfəndizadə 1919 aprel ayının 27-dən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsi müdirinin müavinliyinə təyin edilir.

*Məclisi-Məbusan Rəisi naminə:*
*doktor Həsən bəy Ağayev.*
*Mətninə mütabiqdir.*
*Kargüzar: C. Paşazadə*

## MƏTBUATDAN ÖTRÜ RƏSMİ BƏYANAT

1918-ci il dekabrın 26-da general Tomson tərəfindən verilən intibahnaməyə [bəyannaməyə] və 1919-cu il martın 25-də rəsmi bəyanata istinadən İngiltərə komandanlığı tərəfindən edilən təbədüllatı [dəyişikliyi] xəbər verirəm. Yuxarıda söylənən intibahnamənin 3-cü və 4-cü maddələri ilə təmin edilən imtiyazat ləğv edilib, bu məsələlərin həlli Azərbaycan Hökumətinə vagüzar edilir [tapşırılır]. Bu maddələr ləğv edilmişdir:

3-cü maddə: Aşkarən davam edən təşkilat komitələrinin iclaslarına bilamü-maniət [maneəsiz] örtülü olaraq icazə veriləcəkdir.

4-cü maddə: Siyasi həbslər ancaq Müttəfiq dövlət polisi iştirakı və orderləri ilə olacaqdır, təqsirnamə də 24 saat müddətində elan ediləcəkdir.

*Bakı şəhərində Müttəfiq dövlət əsgəri komandanı:*
*General Şattlvort*
*Bakı, 28 aprel 1919*

## MÖHKƏM İDARƏ MÖHKƏM ƏXLAQLI İSTƏR

Fərdlərin, şəxslərin öz işlərində etibarları, müvəffəqiyyətləri, tərəqqiləri, şöhrətləri nasıl malik olduqları əxlaq və fəzilətləri ilə mütənasib isə, fərdlərdən vücuda gələn bir heyət, bir hökumətin də dərəceyi-ədl və etibarı [ədalətinin və etibarının dərəcəsi], mərtəbeyi-şərəf və qüvvəti də öylecə əxlaqi-mədəniyyə və mətinəsi [mədəni və sarsılmaz əxlaqı] ilə mütənasibdir.

Bu öylə bir lütfi-haqdır ki, ülüləzm [ən böyük] peyğəmbərlər, ən böyük hadilər, dahilər, həkimlər, qəhrəmani-hürriyyətlər belə bununla, bu müsbət qanuni-ictimaiyyə ilə insanları təbşir və tənzir [müjdələməyə yaxud qorxutmağa], sövq və idarə eyləməyə müvəffəq olmuş və vücuda gətirdikləri inqilabi-ictimailərlə həqiqəti-məzkurəni [deyilən həqiqəti] e'la [ucaltmış] və elan eyləmişlərdir. Bu öylə bir həqiqətdir ki, bundan məhrum olanlar, bu vasiteyi-etila və iqbalı [ucalma və səadətə nail olma vastəsini] anlamayanlar, elm ilə əxlaqı, tərbiyə ilə ədəbi bir-birinə qarışdıranlar daima zəlalətə düşəcək, daima zərər görəcəklərdir.

Elm ilə əxlaq, tərbiyə ilə ədəb başqa-başqa şeylərdir, dedik. Əvət, öylədir.

Hüsni-əxlaq [yaxşı əxlaq] və tərbiyə mütləq təlimi-elm və fəzilət ilə olarsa da, hər sahibi-elm sahibi-fəzilət və əxlaq olammaz.

Mətin əxlaq və tərbiyə, şəksiz ki, beşikdən başlanan elmi və əsri [müasir] tərbiyə, fəzilətə tədrici adət [etmək] və haqq və ədlə [ədalətə] alışmaq, onu təbiəti-saniyə edinməklədir [onu özünə ikinci bir təbiət etməklə mümkün olar]. Bu isə ictimai nöqsanlarımızın ən böyüyü, məktəblərimizin qara ləkəsidir.

Əxlaqsızlıq istibdad və qara fikirlərin, zülm və haqsızlıqların yeganə vasitəsi olduğu kimi, vicdansızlığın, tamahkarlığın, büxl [paxıllıq] və həsədin də anasıdır.

Əxlaqsızlıq hələ təzə idarələrdə, yeni hökumətlərdə birər bəla, birər taundur. Xayır, xayır, bəlkə bunlardan da betər, bunlardan da əşəddir [şiddətlidir]. Çünki bunlar görünür, anlaşılır. Lakin o, o qara üzlü şeytan kimi görünməz, nəfsi-əmmarə kimi qafatasının içində gizlənər, zəhərli mikrob kimi qan damarında cövlan edər, fürsəti gözlər, vücudun zə'fini [zəifliyini], böhranını, anarşiyasını qənimət bilər. O vaxt həman özünü, feilini aşkar edər, zəhərini, bəlasını göstərər.

* * *

Bilməm, nə vaxtda Bakıda Ərzaqmı, hansı idarədənsə xeyli pul qeyb (?) olur.

Bilməm hangi idarədən bədəfkarlar [cinayətkarlar], ah, o bəlli əfkarlar neçə min hökumət pulunu oğurlarlar.

Bir ay qabaq bədbəxt Naxçıvan mühacir və fəqirlərinə paylamaq üzrə bir möhtərəm, mükərrəm [səxavətli], vətənpərəst, aşiqi-həqiqət, füqərapərvər, xadimi-millət, sahibi-şəfqət, mötəməd [etimad edilən], müqtəsəd [qənaətcil, israf etməyən], müəllim, müsəllim [idarəçi], mübarək, eyni-mələk [mələk kimi], mötəbər, dilavər [ürəkli], "bayramda paşa", hər yerdə dilgüşa [könül açan], fəzilət-məab [fəzilət sahibi] və alicənab bir şəxsə bir neçə yüz min manat kağız pul verirlər. Bu cənabın da acından qırılan fəqirlərə yazığı gəlir. Onlara kağız pul əvəzinə qızıl pul vermək istər. Onu tapmaq üçün də Rəştə gedər, Batuma qaçar. Aradan xeyli vaxt çıxar, amma bu arada Naxçıvan aclarından bir qisminin də canı çıxar. Zərəri yox, çoxu yenə sağ. Möhtərəm cənab, kağızı qızıla dəyişdirmək üçün təbii rahat oturammaz. Oraya-buraya baş vurar. Lakin bunun ali zəhmətini bədəfkar sosialistlər anlamazlar. Qışqırıq salarlar, nəhayət, pulu geri verər.

Bu pulun üstünə bir az da qoyarlar, olar 900 min. Daha mötəbər, daha fəzilətpərvər bir heyətə verərlər ki, Tiflis yolu ilə Naxçıvana gətirsin. İki-üç aydan bəri ölməyib sağ qalan mühacirlərə versinlər.

Heyət kamali-izzü-ehtişamla [böyük bir izzət və ehtişamla] Tiflisə "Orient" qastinitsasına [mehmanxanasına] düşər, 900 min manatı da çamadanı ilə nömrə otağında saxlar. Lakin bir gün sonra, 17 apreldə pul qeyb olar. Həm büsbütün qeyb olar. Əvət, əvət, 900 min manat, həpsi birdən uçar.

Şübhə üzərinə, heyət əzasından [üzvlərindən] birini tutub həbsə salarlar.

* * *

Məqsədimə misal üçün yuxarıda nəql eylədiyim zərifanə [olduğu] qədər əlimanə [kədərli] olan xitabəni buraxalım. Yenə məqsədə keçəlim:

Cavan Azərbaycan Hökuməti idarələrinə bir çox məmurlar lazım.

Bunların pisini bulmaq, ayırmaq çətin. Çünkü xainlər, əxlaqsızlar hər kəsdən ziyadə şirin dilli, qeyrət və həmiyyətli, mötəbər və bacarıqlı, aqil və məlumatlı görünürlər. Ürəklərindəki qaranlığı, qanlarındakı zəhəri, qafalarındakı xəyanəti əsla bəlli etməzlər. Ağızlarından guya məhəbbət, gözlərindən mərhəmət, işlərindən bərəkət tökülər. Biçarə, safdil [sadəlövh] rəislər, məsul müdirlər birdən-birə anlamazlar. Nədən sonra, işlərin üstü açılanda, xəzinəyə milyonlarla zərər dəyəndə ayılarlar.

Bu halda nə etməli? Əldə bir vasitə yox ki, xainlər, əxlaqsızlıqlar anlaşılsın, əmniyyət [etibar] edilməsin, təmizlənsin.

Bunun üçün zahirən bir aləti-təfriq [ayırmaq üçün bir vasitə] yox deyiləcək. Lakin bu bəhanə doğrumu? Əcəba, daireyi-elmimizdə əhvali-ruhiyyəni, əsrari-qəlbiyyəni [qəlbin sirlərini] bildirəcək heç bir miqyas, ölçü yoxmu? Sanıram ki, vardır. Həm öylə bir ölçüdür ki, çox az şaşar. Bu da şəksiz "qəvanini-ruhiyyə"dir ["mənəvi qanunlar"dır]. Qəvanini-ruhiyyə bizim sandığımız kimi qəvanini-fərziyyə və ehtimaliyyələrdən [güman və ehtimala əsaslanan qanunlardan] deyildir. Riyazi hesab qəvanini kimi müsbət və layəzal [əbədi] qanunlardandır.

Bu qanuni-təbiəti, bu mənəvi ölçünü başınıza alınız, filan dairə müdirinin, filan qulluqçununmu nasıl olduğunu, onun dərəceyi-sədaqətinimi bilmək istəyirsiniz? Çox gözəl. Həman onun "tərcümeyi-halını" tədqiq ediniz. Keçmişini, adətini, xüsusi hallarını, xasiyyətlərini öyrəniniz. Vaxtilə hökuməti-müstəbidə zülmünə müavinət [kömək] etmişmi, xəfiyyəlikdə bulunmuşmu, milləti mənfəətinə satmışmı, cinsdaş [eyni soya, irqə mənsub olan] bir hökuməti para və məmuriyyət müqabilinə qəzetə sütunlarında qaralamışmı? Xüsusi borclarını verməmişmi, yaxın qövm və qonşularına mərhəmətsizlik etmişmi? Hırs və səfahətə [ehtirasa və əyləncəyə], moda və keyfə düşkünmü? Yalan söyləyib hər şeyə and içirmi? Məmuriyyət və istiqbalından [dövlət qulluğundakı işindən və öz gələcəyindən] ümidsizmi? Ev tərbiyəsindən, möhkəm bir iman və məfkurədən məhrummu? Xalq cəhalətini vasiteyi-şöhrət və mənfəəti bilmişmi? Bil ki, yenə öylədir. Nə isə, yenə odur. Adəti, öyrənişi təbiəti-saniyyəsidir [ikinci təbiətidir]. Bəlkə, validi-əf'alıdır [əməllərinin atasıdır], xaliqi-iradə və idarəsidir [iradə və idarəsinin yaradıcısıdır].

İştə, burasını nəzərə alaraq cavan Azərbaycanımızın təhkimi [möhkəmlənməsi] üçün məsuliyyətli dairələr, heyətlər başına mümkün mərtəbə möhkəm əxlaqlı insanlar qoymalı ki, istiqlalımıza rəxnə [ziyan], xəzinəmizə zərər, gəncliyə zəhər vurulmasın.

*Ümidvar*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

24 aprel 1919-cu il

İclas saat 11.40 dəqiqədə açılır.

**Sədr** - Həsən bəy Ağayev

**Katib** - Mehdi bəy Hacınski

**Sədr** - İclas açılır. Bugünkü ruznameyi-müzakirat [müzakirə gündəliyi] böylədir:

1) Etimadnamə komisyonunun məruzəsi;

2) Yevlax-Nuxa yolunu Kiş çayının daşqınından mühafizə etmək üçün Ziraət [Əkinçilik] və Əmlak Nəzarətinə iki yüz on bir min rublə buraxılması haqqında qanun layihəsi;

3) Beş yüz on milyon rublə dövlət pulu buraxılması haqqında hökumətə müsaidə verilməsi.

Etiraz yoxsa, yövmiyyeyi-müzakirat qəbul olunur. Növbədəki məsələ Etimadnamə komisyonunun məruzəsidir. Məruzəçi Şəfi bəy Rüstəmbəyli.

**Şəfi bəy [Rüstəmbəyli]** - Bakı Bələdiyyə idarəsi Əliağa Həsənov ilə Ağazeynal Tağıyevi Parlaman üzvü intixab etmişdi [seçmişdi]. Əliağa Həsənov Maliyyə naziri müavini və imdi də Maliyyə naziri olduğundan, Ağazeynal Tağıyev də üzvlükdən xaric olduğuna [görə], Parlaman üzvü hesab olunmayırlar. Bakı Bələdiyyə idarəsinin 45 müsəlman əzasından [üzvündən] 23-ü qanun üzrə əksəriyyət təşkil edir ki, əksəri iclasda varmış. Onlardan Əsədulla Əhmədov 24 səslə, Əsəd bəy Əmirov 15 səslə Parlaman üzvü intixab edilmişlərdir. Etimadnamə komisyonu onların seçki bəratülqövllərinə [protokollarına] baxıb, düz olduğunu qəbulla təsdiqini Parlamana təklif edir.

**Sədr** - Etimadnamə komisyonunun məruzəsi haqqında kim danışmaq istəyir? Söz istəyən yoxsa, səsə qoyacağam. Nakaz [Nizamnamə] üzrə Bələdiyyə İdarəsi tərəfindən seçilən üzvlərin əvvəlcə seçkilərinin düz olub-olmadığını, sonra da Etimadnamə komisyonunun qərarını səsə qoyacağam. Hər kəs Bakı Duması tərəfindən Əsədulla Əhmədov ilə Əsəd bəy Əmirovun seçkisini dürüst və qanuna müvafiq hesab edirsə, əlini qaldırsın. *(Əllər qalxır)* Əksəriyyətlə seçkinin dürüst olduğu qəbul olunur. Hər kəs Etimadnamə komisyonunun qərarını qəbul edirsə, əlini qaldırsın. *(Əllər qalxır)* Əksəriyyətlə qəbul olunur.

Növbədəki məsələ Yevlax-Nuxa yolunu Kiş çayının daşqınından mühafizə etmək üçün Ziraət və Əmlak Nəzarətinə iki yüz on bir min rublə buraxılması haqqında qanun layihəsidir. Məruzəçi Əbdüləli bəy Əmircanovdur.

**Əbdüləli bəy [Əmircanov]** - Nuxa-Yevlax şosesinin və Nuxa şəhərinin dağ çaylarından mühafizəsi üçün 1911-ci ildə bir sədd çəkilmişdi ki, çayın qabağını saxlasın. 1916-cı ildə bu səddin təmirinə bir çox şəhər və zemstvo [yerli özünüidarə qurumu] parası buraxılmışdı. Bütün bu sədd Şəki şəhərini və Yevlax-Şəki şosesini müdafiə edirdi. Bildir, 1918-ci ilin avqust ayında böyük bir sel gəlib bu səddin böyük bir parçasını xarab etmişdir. İki yüz əlli sajın ki, səddin boyudur, əlli sajını seldən bərbad olmuşdur. Bildir, şəhər və dövlət parası ilə 30 sajınını təmir etdilər. Qalanı təmir olunmadı. Çünki ləvazimat tapılmadı. Ona görə Gəncə valisi Ziraət nazirindən rica edir ki, dövlət meşəsindən çırpıntı almaqla və daşla səddin qalanı təmir olunsun və əvvəlki sədd alçaq olduğundan, bu dəfə bir az uca olsun. Bunun üçün də təqribən 211 min rublə təyin olunmuşdur.

Yevlax-Şəki şosesinin sel daşqınından xarab olması Şəki ticarətinə böyük zərər vurur. Gəncə qubernatoru burasını nəzərə alaraq, ona görə bu sədlərin təmirinə sərf olunacaq paranın hamısının dövlət xəzinəsindən verilməsini xahiş edir.

Bu barədə hökumət bunu qəbul eyləmiş ki, 211 min rublə əcələ [təcili] surətdə verilsin və bu sel may ayının axırında gəlməyə görə paranı əcələ olaraq vermişlər. İmdi hökumət rica edir ki, bu paranın verilməsini Parlaman qəbul etsin. Maliyyə-büdcə komisyonu bu qanuna baxıb qəbul eyləmiş. Maliyyə-büdcə komisyonunun arzusu bu olmuşdur ki, bu para sərf olunanda Bələdiyyə rəisi iştirak etsin ki, bu pul ancaq öz yerinə sərf olunsun.

**Əhməd Cövdət** – Mən əlbəttə bu qanunnamə barəsində danışmaq fikrində deyiləm. Çünki may yaxınlaşır və sel gəlir. Nuxa-Yevlax şose yolunu sel daşqınından müdafiə etmək üçün 211 min rublə istənilir. Verilməsi lazımdır. Lakin arzu edərdik ki, Nəzarət [Nazirlik] tərəfindən tədbirlər görülsün və diqqət olunsun ki, bu pullar yerinə xərc olsun ki, bir də bu sədlər xarab olmasın və yenidən bizdən pul istənilməsin. Ancaq mənim dediyim özgə şeydir. Neçə aydır ki, Parlaman açılmış və bura gələn qanunnamələri müzakirə edirik. Ziraət və Əmlak nazirindən bir-iki qanun gəlmiş. Biri bu, biri də Kür çayı sahillərində sədlərin inşası haqqında qanun layihəsi. Belə nəzərə gəlir ki, biz və Nəzarət böylə xırda qanunlara baxmaqdan başqa bir şey tapmayırıq. Guya bizim məmləkətimiz anarxiya keçirməmiş, kəndlər dağılmamış, evlər xarab olmamış. Bir çox yerdə bu saat əkinçilər kotansız və toxumsuz qalmışdır. Bu barədə Ziraət nazirinin köməyi lazımdır. Amma bu barədə indiyə qədər heç bir qanun layihəsi daxil edilməmişdir. Nəzarət iş görmür. Guya hər işimiz öz yolunda imiş və ya başqa böyük qanunlara ehtiyac yoxmuş, ancaq çay daşqınının qeydinə qalmalı imiş. Doğrudur, buna da baxmalı və pul buraxmaq lazımdır. Lakin Cümhuriyyət içərisində ümumiyyətlə ehtiyacı rəf etmək [aradan qaldırmaq] üçün evləri sökülənlərin evlərini təmir etməli, malı olmayanlara mal verməli, toxumu, kotanı olmayanlara toxum və kotan tədarük etməlidir. Bu barədə gərək Nəzarət bir qanunla bizim qabağımıza çıxsın və pul istəsin. Arzu edərdim ki, bundan sonra hökumət böylə xırda-xırda qanunlarla deyil, gələcəkdə böyük dərdlərimizi və ehtiyaclarımızı yazıb qabağımıza çıxsın.

**Sədr** - Daha söz istəyən varmı? Yoxsa, müzakirə bitmiş olur. Səsə qoyuram. Hər kəs qiraət olunmuş [oxunmuş] layihəni komisyonun rəyi ilə bərabər qəbul edirsə, əlini qaldırsın. *(Əllər qalxır)* Əksəriyyət qəbul edir. Növbədəki üçüncü məsələ 510 milyon dövlət pulu buraxılması haqqında hökumətə müsaidə verilməsidir. Məruzəçi Mustafa Vəkilov.

**[Mustafa] Vəkilov** - Hökumət tərəfindən təqdim olunmuş qanun layihəsi 510 milyon kağız pul buraxmaq üçün hökumətə müsaidə vermək xüsusundadır. Hökumət Parlamandan rica edir ki, yenidən kağız pul buraxılması üçün hökumətə müsaidə verilsin. Hökumət öz bəyannaməsində bu məsələnin tarixindən bəhs edib, bu paranın nasıl məsrəf olması haqqında məlumat verir. Böylə görünür ki, Bakı Bələdiyyə idarəsi tərəfindən "bon" adında kağız pullar buraxılıbdır. 1918-ci ildə Bakı şəhəri bir tərəfdən daxili Rusiya və digər tərəfdən Tiflis ilə münasibatı kəsildiyinə görə məhəlli [yerli] bazarda (rınokda) pula artıq ehtiyac olduğundan Bələdiyyə İdarəsi bon buraxmağa məcbur olmuşdu və bonun buraxılması, məsrəfi və təmin edilməsi xüsusunda Bələdiyyə İdarəsi bir qayda-qanun düzəltmişdi. O vaxt pul yerində bon idi. Bu, əsl pul mənasını verirdi. Lakin özləri və əhali ona pul kimi baxmırdı. Müvəqqəti pul yerini verib, veksel kimi işlənirdi. O vaxt şəhər idarəsi padşahlıq bank [Dövlət Bankı] vasitəsilə 62 milyon kağız pul buraxmışdı. Necə ki, məlumunuzdur, sonradan şəhər bolşeviklər ixtiyarına keçdikdə həman yenə o kağız pul bolşeviklər tərəfindən daha da şiddətlə buraxıldı. Hərçənd bu pul bələdiyyə adından hesab olunurdu, lakin bolşeviklər öz istədikləri kimi sərf edirlərdi. Bolşevik hökuməti elan eyləmişdi ki, bu kağız pulun əvəzini Rusiya öz varı ilə cavabdehdir. Hökumət bizim əlimizə keçənə qədər bolşeviklər zamanında 227 milyon manat kağız pul buraxılmışdır. Deməh hökumət bizim ixtiyarımıza keçənə kimi cəmi 300 milyona qədər kağız pul buraxılmışdır. Sonra ixtiyar bizim hökumətimizə keçdikdə, hökumət və Maliyyə Nəzarəti bu barədə dərin düşünüb istədi ki, camaata və məmləkətimizə xeyir olan bir üsul tapıb böylə müşkül haldan çıxsın. Məlum olduğu üzrə, Bakı alınmamışdan qabaq bizim hökumət Tiflisdə gürcülər və ermənilərlə pul buraxmışdı və bəzi şərt-şurut ilə bir hissəsinə iştirak edirdi. Bakı alınandan sonra hökumətimiz gördü ki, rınoka 300 milyon kağız pul buraxılıb. Hökumət bir istədi ki, bir növlə Bakı pullarını yığıb ondan xilas olsun və Zaqafqaziya pulundan istifadə etsin. Sonradan bu tədbir həm hökumət və həm əhali üçün müşkül göründü. Qərar qoyuldu ki, iki pul işlənsin. Biri Bakı, digəri iştirak etdiyimiz Zaqafqaziya bonu. Sonradan hökumət öz ehtiyacını ödəməkdən ötrü getdikcə kağız pul buraxmağa məcbur oldu. Parlamandan əvvəl hökumət ehtiyacı olduğundan 90 milyon öz qərarı ilə pul buraxıb, sonradan bəyannamənin deməyinə görə hökumətin xərci artdığından, yüz milyon rublə də bir buraxılmışdır. Dekabr və yanvar ayında olan qərarlara görə sonradan 200 milyon rublə də buraxmışdır. Hökumətin dediyinə görə, artıq əcələ olduğundan Parlamanın müsaidəsi olmadan bu pulları buraxmışdır. Lakin hökumət tərəfindən buraxılan bu pullar ehtiyacı təmin etməyir. Ona görə hökumət Parlamandan rica edir ki, həmi müsadiəsiz buraxdığı 300 milyon para təsdiq olunsun və mayın axırına qədər xərci təmin eyləməkdən ötrü 210 milyon rublə buraxmağa icazə verilsin. Hökumətin cəmi istədiyi 510 milyondur.

Hökumət öz bəyannaməsində xərclərini ümumi bir formada göstərmişdir. Mayın axırına qədər 210 milyon rublə istəyir. İndi görək bu pullar nə cür sərf olur və ehtiyac nədir? Hökumətin göstərdiyinə görə, ayda 60 milyon rublə neft mədənçilərinə verilir. Bundan əlavə, 35 milyon da ingilis ştabına verilir. 40 milyon da hökumətin öz işlərinə, məmurlara və qeyri ehtiyaclara xərclənir. Bu hesabla hökumət zənn edir ki, may ayının axırına qədər 210 milyon kifayət edər. Onun üçün də 510 milyonun müsaidəsini istəyir. Əlbəttə, bu layihə Maliyyə və büdcə komisyonunda ətraflı müzakirə oldu. Büdcə və maliyyə komisyonu buna əhəmiyyət verib düşünür ki, kağız pul nə qədər artıq buraxılarsa, qiyməti o qədər düşər. Bu bir aşkar məsələdir ki, finansist [maliyyəçi] olmayan əhali də bunu bilir. Məsələnin əsil qüsuru və əsil bədbəxtliyi budur ki, bu kağız pul ki, buraxılır, dava zamanı bizdən daha zəngin məmləkətlərdə bizdən artıq buraxılıb. Ancaq onların qızıl təminatı var ki, vaxtında kağız pul əvəzinə qızıl pul alınır. Ancaq bizim hökumətin qızıl təminatı olmadığından, nə ki istehsalatı və dövləti varsa, onunla da buraxılan kağız pulları təmin edə bilər. Bundan savayı biz görürüz ki, bu kağız pul ki, buraxılır, əhalinin ehtiyacı qədər buraxılsaydı qiymətdən düşməzdi. Dərd burasındadır ki, əhalidə ehtiyacından artıq pul vardır. Hətta ən kasıbda pul çoxdur. Rınokda da pul ehtiyacdan artıqdır. Hökumətin də bu pulları öz bankına yığmağa lazımi qədər qüvvəsi çatmayır. Əhalidə pul çoxdur, hökumətdə isə yoxdur. Buna görə, hökumət getdikcə pul buraxmağa məcbur olur. Çünki ehtiyac çoxdur. Büdcə-maliyyə komisyonu bunu nəzərə alıb bir neçə arzular eylədi. Bu arzuları da sizə məlum edir. Əvvəla, bunu nəzərə aldı ki, hökumətin ehtiyacını bir tək pul kəsən makina vasitəsilə ödəmək olmaz. Bu böylə gedərsə, axırda öylə olar ki, bazara çıxıb bir şey almaq olmaz. Ona görə hökumət gərək naloqun (vergilərin) tezliklə yığılmağına böyük əhəmiyyət versin, tainki əhalidə olan pul xəzinəyə gəlsin və xəzinəyə əl uzadanda o pullardan istifadə etmək mümkün olsun. Yanvar ayında hökumətin mədaxili 5 milyon, məxarici 25 milyon olmuşdur. Fevral ayında isə mədaxili 8 milyon, məxarici 32 milyon olmuşdur. Əlbəttə, böylə davam etsə, nə qədər pul buraxılmasına müsaidə etsək, yenə də hökumətin ehtiyacı təmin edilmiş olmaz. Ona görə Maliyyə-büdcə komisyonu mədaxilin artmasına diqqət verdi və gəlir vergisinə (podoxodnı naloq) ki, artıq mədaxil verir, Nəzarət tərəfindən əhəmiyyət verilməsini arzu edir, bu bir.

İkinci, nəzərə aldıq ki, gərək istiqraz müəssisələri, banklar nizama salınsın. Bunların indiki halda əvvəlki kimi müamilatda bulunmadıqları [əməliyyat aparmadıqları] məlumdur. Əvvəllər pul bankda müamilədə olurdu. Əhali və hökumət ondan istifadə edirdi. İndi bunlar zəif işləyirlər və bəlkə də heç işləməyirlər. Bunları qaydaya və nizama salmaq lazımdır. Ona görə mərkəzi hökumət bankı olmalıdır ki, qeyri müəssisələr də oradan kömək alıb işləsinlər. Hökumətdən işə başlamağı və qeyri müəssisələrə əhəmiyyət verib mərkəzi bank açılmasını arzu edirik. İkinci arzumuz budur.

Üçüncü, biz gördük ki, bir məmləkətdə iki cür pul işlətmək, işləri çətinləşdirir. Bir Bakı pulu, bir Tiflis pulu. Diqqət etsəniz görərsiniz ki, bizim pulumuz Tiflisdə az qiymətə gedir, amma Tiflis pulu Bakıda artıq qiymətə gedir və xalq arasında yaxşı pul hesab olunur. Bazarda satılır. Bizim pul ilə Tiflis pulu bir qiymətdə deyildir. Bizim orada hissəmiz olduğuna görə, iki tərəfə baxdığımızdan bu məsələdə bir növ şaşqınlıq və çaşlıq əmələ gəlir. Bizim zənnimizə görə, pul sistemi bir olmalıdır. Zaqafqaziyanın ümumi pulu olacaqmı yaxud məxsusi Azərbaycan pulu olacaqmı? Onu Maliyyə Nəzarətində olan mütəxəssislər eyi bilirlər. Ancaq bizcə hansı biri olursa-olsun, pul sisteminin bir olmasını indiki halda xeyirli bilirik.

Əlbəttə, aşkar məsələdir ki, hökumətin ehtiyacı da olsa, əcələ də olsa yenə Parlamanın müsaidəsi olmaya-olmaya izinsiz pul kəsilməsi Büdcə komisyonunun nəzəriylə mümkün və düz deyildir. Hərgah hökumət ancaq pul kəsmək təriqi [yolu] ilə ehtiyacını təmin üçün asanca pul əldə edə bilərsə, o zaman qeyri mənbələrə və mədaxil verici müəssisələrə bittəb [təbii olaraq] əhəmiyyət verməz. Əgər hökumət görsə ki, pul buraxmaq çətindir, onda qeyri vasitələr və başqa çarələrlə pul əldə etməyə çalışacaqdır. O vaxt bankların yaxşı müamilatda bulunmasına, vergilərin nizamla toplanmasına daha ciddi surətdə baxıb ehtiyacını təmin edər. Buna da hökumətin nəzəri-diqqətini cəlb edirik. Parlamandan izinsiz pul buraxmaq düz deyildir. Bu məlumatda[n] sonra hökumətin qanun layihəsini oxuyuram. Həqiqətdə bu cür pul buraxmaq böyük müşkülat çıxarır. Maliyyə-büdcə komisyonu düşünür və ətraflıca söylədiyi arzuları ilə bərabər görür ki, bu saat pul lazımdır, lakin əldə yoxdur. Ona görə komisyon təklif edir ki, hökumətin bu layihəsi qəbul edilsin. Hökumət də büdcə komisyonunun arzularını nəzərə alsın və gələcəkdə doğru yol ilə pul tapmağa çalışsın. Büdcə komisyonu təklif edir ki, layihəni qəbul edəsiniz.

**Sədr** - Kim danışmaq istəyir? Danışmaq istəyən varsa vərəqə ilə bildirsin. Söz Yusif Əhmədovundur.

**Yusif Əhmədov** (bitərəf) - Möhtərəm məbuslar! Bu qanun layihəsi Maliyyə Nəzarəti tərəfindən təklif olunur. Məncə bu məsələnin çox böyük məna və əhəmiyyəti vardır. Özüm də tüccar sinifinə mənsub olduğum üçün bu barədə bir qədər izahat verməyi lazım bilirəm. Keçmişdə Bakı Bələdiyyə İdarəsi tərəfindən 62 milyon, ittilaatıma [məlumatıma] görə Seym tərəfindən 80 milyon, *(Səslər: 160 milyon)* 160 milyon və sonradan Parlamanın icazəsi olmadan Azərbaycan Hökuməti tərəfindən 300 milyon manat para buraxılıbdır. İndi isə həman 300 milyon və təzədən buraxmaq istədikləri 210 milyon ki, hamısı bir yerdə 510 milyon edir, təsdiq etdirmək istəyirlər. Eybi yoxdur, pulu makina kəsir. Lakin təfavütü budur ki, o vaxt kəsən kim olub? Mən bir neçə gün əqdəm [qabaq] Tiflisdə idim. Doğrudan da adama çox ağır gəlir. Bir pul ki, hər şəhərdə makina vasitəsilə kəsilir və buna müvəqqəti bon deyilir, təzə təşkil olunmuş cümhuriyyətlərdən heç birinin bu pullar əvəzində Azərbaycan məmləkəti qədər qüvvəsi və etibarı yoxdur. Fəqət heyiflər olsun ki, bizim pulumuz Tiflisdə, Batumda, Potidə, Ermənistanda heç bir şey deyil vəhalonki [halbuki] Batum və Potidə olan ingilislərlə əlaqəmiz yaxşıdır. Ancaq nədənsə bu barədə bu vaxta qədər bir tədbir və sərəncam olmayıbdır. Qəsdim heç bir kəsi şəxsən nəzərdə tutmaq deyil. Mən ümumi dairədə Parlamana bildirməyi lazım görürəm.

Mən istərdim o pullar ki, bir dövlət tərəfindən buraxılır, etibarı nəzərdə tutulaydı və bu barədə Gürcüstan və Ermənistanla əlaqəmiz məlum olaydı. Zaqafqaziya pullarının dərəceyi-etibarı bizimkindən 99 faiz artıq hesab olunur. Təəssüflər olsun ki, o pullar hər yerdə işləndiyi halda biz tacirlər çətinliklə 5-6 faiz pula alıb Tiflisdən mal almağa gediriz. Bu barədə lazım idi sərəncam olsun. Güman edirəm ki, olacaq. Lakin bir qədər tez olsaydı yaxşı olardı. İkinci, İran ilə əlaqəmiz və ticarətimiz vardır. Bizim pulumuz orada bir dərəcəyə çatıbdır ki, min manatımız 11 tümənə gedir. Sülh vaxtı hesabı ilə min manatımızın qiyməti 18 manat 70 qəpik eyləyir. Bununla da belə olur ki, oradan arşın malı gətirmək lazım olduqda 3 manatlıq şeyə 15 manat verilir. Burada da əhali şeyləri birə 8, birə 10 artıq qiymətə almağa məcbur olur. Mən deyirəm ki, bunlara necə çarə vardır. Məncə mürur ilə [vaxt keçdikcə] bu pullar kəsilib çoxaldıqca və ticarət dairəsinə buraxıldıqca, iş bir yerə çatar ki, indiki kimi qiyməti olmaz və bəlkə də heç olmaz dərəcə etibarı az olar. Onsuz da indi manatımız bir qəpiyə gedir. Bunun çarəsi vardır. Ola bilər ki, bu dediyim söz fəhlə sinfinə dair olsun, qərəzli görünsün. Lakin xəyalım o deyil. Biqərəz deyirəm: bir yerdə istəsələr pulun qiyməti artsın, gərək o məmləkətdə iş (trud) çoxalsın. Çünki zəhmət çox olanda pulun qiyməti artar. Amma indiki halət bir dərəcəyə çatıb ki, zəhmətdən hasil olan iş məvacib müqabilində heç dərəcəsindədir. Sülh vaxtındakı səkkiz saatlıq işin məhsulu indikinə nisbətən 100 faiz çox olurdu. Güman edirəm nəinki [fəhlə], başqa xidmətlər də böylədir. Asayiş vaxtında bir saatda işlənən iş, indi 6-8-10 saatda işlənməyir. Odur ki, zəhmət məhsulu az olub, pul da mürur ilə çoxalır. Bunun intəhası [axırı] yoxdur. Parlaman izin verəcək, pul kəsiləcək. Mən özüm də tacirəm. O şeyi ki, mən özüm almışam, onun əvəzində verdiyim pulu heç kəs mənə verməyir. Ona görə məsləhət bilərdim ki, Maliyyə naziri cənabları bu yolda səy etsin ki, mümkün qədər zəhmətdən əmələ gələn məhsulat çoxalsın. Bunun nəticəsi də o olar ki, mal çoxaldıqca hər kəs özününkünü tez satmağına tələsər və ortada bir rəqabət olar ki, bununla pulun qiyməti artar. Bu bir çarə. İkinci çarə, məruzəçi dedi ki, Gürcüstan və Ermənistan ilə əlaqəmiz olsun. O[n]ların pulu ki, burada artığına işlənir, heç olmazsa bizim pulumuz orada manatı manata işlənsin. Üçüncü çarə olmaq üzrə İran ilə əlaqəmizi düzəltməliyiz. Rusiya ilə əlaqəmiz yoxdur. Ora bizim üçün ticarət tərəfindən əhəmiyyətli idi. Ukrayna ki, Rusiyanın bir parçası hesab olunurdu, əvvəlcə ora ilə böyük əlaqədə idik. Sonradan nə olacaq bilinməyir. Hələlik bizimlə yaxşı əlaqədə olan təzə hökumətlərlə əlaqəmizi öylə düzəldək ki, pulumuz sərbəst öz qiymətinə işlənsin. Bu asan bir şeydir. Çünki Gürcüstan Hökuməti ticarət barəsində bizdən asılı olduğundan, bizə tabedir. Biz onlara əmr edə bilərik. Onlarda alış-veriş yoxdur. Orada pul da yoxdur. Mən Gürcüstan ticarət təşkilatları ilə görüşüb aldığım təcrübəyə görə bilirəm ki, bir adam əlində çek 3-4 ay pul almaq üçün qapı-qapı gəzir. [Pul] tapılmayır ki, onlara verilsin. Və o pulu alınca çekin yarıdan çoxunu sərf edir. İranın sərfi kimi. İş ki belədir, Gürcüstan ilə pul məsələsində ciddi danışılsa bizim pulumuz onların pulu ilə bir dərəcədə olardı və özümüzə görə geniş varidatımız olduğundan bizim pulumuz onlarınkından artıq da gedə bilər. Ticarət əhli o biri kağızı alanda manata 50-60 qəpik artıq verir. Mən sözümü bitirərkən deyirəm ki, pul kəsilsin. 300 milyon da ki var, təsdiq edək, ancaq pul kəsilməsi barəsində bir az ehtiyatlı olmalı və diqqət edilməlidir. Denilməsin ki, bu hal müvəqqətidir.

Keçənlərdə Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] tərəfindən idxal edilmiş layihənin qəbul olunmasına tərəfdar idim. Çünki müvəqqəti denilirdi. İndi görürüz ki, işlərimiz bir növ yaxşılaşmış və halımız bir ay bundan əvvəlkindən möhkəmdir. Müttəfiqlər nümayəndələri ilə əlaqəmiz yaxşılaşıb və qonşularımızla da əlaqəmiz yaxşıdır. Mən deyərdim ki, bu makinaya bir qədər diqqət və ehtiyatla rəftar edilsin. Hərgah pul kəsmək məsələsi asanlıqla mümkün olmasa və çətinliklə qəbul olunsa, nazir cənabları başqa yol və mənbeyi-varidat tapmağa məcbur olacaqdır. Hər halda pulun çox olması ticarətə zərərdir.

## TELEQRAF XƏBƏRLƏRİ

**İşə dəvət**

Avam Kamerasında Robert Sesil demişdir: Avropanın iqtisadi halı çox xətrəlidir [təhlükəlidir]. Ən qısa müddətdə dəniz mühasirəsi ləğv edilməlidir. Zamanı ki, ticarət yolları azad oldu, hamı millətlər ticarətin təcdidinə [bərpasına] var qüvvələri ilə çalışmalıdırlar. Bütün Müttəfiq dövlətlərin müttəhid [birləşmiş] qüvvəsi ilə Avropanı xətrədən qurtarmaq olar. O, bütün ingilis millətinə müraciətlə təvəqqe edir ki, onun dəvətinə icabət etsinlər [müsbət cavab versinlər]. Hərgah, Avropa ciddi surətdə çalışmazsa, mədəniyyəti xətrə təhdid edəcəkdir.

- Peştədən xəbər verilir ki, orada 30 min nəfərdən ibarət bir Qırmızı ordu təşkil edilmişdir.

- Helsinqfors [Helsinki] – Moskvada elektrik, qaz və su yolu dayanmışdır. Tramvay işləməyir.

- Roytera xəbər verilir ki, bu axırıncı günlərdə Orenburq cəbhəsində bolşviklər təcilən ricət edirlər [geri çəkilirlər]. Ufanın cənubunda mükəmməl bir bolşevik alayı əsgərlikdən üdul [imtina] etmişdir. Bunlar dərhal əvvəlki yoldaşlarının əleyhinə hərb açmışlardır.

- Almaniyanın müxtəlif yerlərində olan nümayişlərdən görünür ki, almanlarla məskun olan yerlərin təqsiminə [bölünməsinə] qarşı etiraz hərəkətləri artır. Dansiq sosialistləri bütün cahan sosialistlərinə müraciətən Almaniyaya heç bir təcavüzə müsaidə etməmələrini tələb eyləmişlərdir.

- Qahirə - Rəsmi surətdə bildirilir ki, istilanın vüsətlənməsi [genişlənməsi] ilə nizam və asayiş təcilən bərpa edilir. Royter ajansına xəbər verildiyinə görə, Misir qitəsi [bölgəsi] hal-hazırda kontrol altındadır. İttixaz edilmiş tədabiri-hərbiyyə ilə [görülən hərbi tədbirlərlə] hər növ üsyan hərəkətləri bərtərəf edilmişdir [aradan qaldırılmışdır]. Avam Kamerasında Pinkerton varid olan [daxil olan] suala cavabən demişdir ki, Misirdə mükəmməl nizam və asayiş bərpası və orada qanun və müsalimət təcdidi [əmin-amanlığın bərpası] məsələsi yaxın günlərdə qurtarar.

- Berlin - Rurski dairədə başlanmış olan tətil Krupp zavoduna da sirayət eyləmişdir [yayılmışdır]. Hal-hazırda 120 min əmələ [fəhlə] tətil edir. Hamburq oblastının mədən əmələləri də tətilçilərə qoşulmuşlardır.

## SÜLH ƏTRAFINDA

- Paris - "Exo de Pari" qəzetəsi yazır ki, hərgah, Almaniya sülh əhdnaməsini [sazişini] imza etməkdən çəkinərsə, dərhal Almaniyaya qarşı bərri, bəhri tədbirlər ittixaz ediləcəkdir [quruda və dənizdə tədbirlər görüləcəkdir]. Bu barədə Müttəfiqlərin bəhri [dənizçilik] məmurları tərəfindən plan tərtib verilmişdir.

- Berlin - Münxen qəzetələri xəbər verirlər ki, Bavariya Hökuməti bolşeviklərlə ittifaq bağlamaq üçün bolşevik hökuməti ilə danışığa girişmişdir.

- Fransa diplomatik dairəsində deyirlər ki, Reyn nəhrinin sol kənarı bitərəf bir məntəqə elan ediləcəkdir. Almaniya zərərləri ödəyənədək bu məntəqə fransız və Belçika qoşunları tərəfindən işğal ediləcəkdir.

- Paris - İspaniya Hökuməti Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] daxil olmaq arzusunda olduğunu bildirmişdir.

## QƏZETƏLƏRDƏN

**Riqada**

Riqada dəhşətli surətdə aclıq hökm-fərma olduğundan [hökm sürdüyündən], orada şiddətli anarşi davam edir. Vəhşiləşmiş qaragüruh özlərini ağa hesab edirlər. Aclıqdan hissdən [taqətdən] düşmüş müstəhəqlər [möhtaclar] küçələrdə düşüb ölürlər. Fəqirləri təmin etmək üçün qəsdən burjuylara çörək verilməyir. Onlar da acından qırılırlar. Orada olan məmurların əmri ilə dövlətlilər öz evlərindən çıxarılırlar və buna da heç bir səbəb göstərilməyir. Bunları şəhərin kənarına aparıb təqdiri-qəzaya [taleyin hökmünə] tapşırırlar.

- Bolşevik ştabının dünənki məlumatında Mariupolun qərbi cəhətində müharibə davam etdiyi bildirildi. Bu xəbərdən görülür ki, bolşeviklər oranı tərk etmişlərdir. Yekaterinodarda nəşr olunan "Utro" qəzetəsinin məlumatından anlaşılır ki, general Şkuro Mariupolu işğal eyləmişdir.

**Bolşeviklərin hərbi məlumatı**

Şimal cəbhəsində Şenkursk səmtində – Vaqanın 25 verstliyində bizim qoşunlar Qrişinskayanı işğal etdilər. Cənub cəbhəsində Mariupolun qərb cəhətində biz Manquş və Temirovkanı işğal etdik. Yozovka mövqifinin [stansiyasının] 10 verstliyində bir neçə kəndləri işğal eylədik. Luqanskoyenin cənub-şərq tərəfində biz on verst irəliləyib Kamenka-Krepeştina cəbhəsində bir çox kəndləri işğal etdik.

Ural cəbhəsində düşmənlər böyük dəstələrlə hücuma keçib Şipok dairəsində bir neçə kəndləri işğal etmişlərdir. Bu yerlər Uralskın 75 verstliyindədir. Uralskın 50 verstliyində vaqe Skuverşin tabyasının [istehkamının] işğalı üçün müharibə davam edir.

Pokrovskoye və Prigorodnoye cəbhəsində müharibə bizim üçün müvəffəqiyyətli gedir.

Çistopol səmtində bizim qoşunlarımız özündən çox olan düşmənlərin təzyiqinə baxmayaraq Çistopolun şərqi və cənub-şərqi hissələrindəki səngərlərini müdafiə edirlər.

Latış şura qoşunlarının məlumatı: Oryol və Kozlov şəhərləri tərəfimizdən işğal edildi. Marienburq dairəsində qızğın müharibə davam edir.

Litva və Belorus şura qoşunlarının məlumatı: Baranoviç səmtində və Baranoviçin şimal-şərq tərəfində Çernixovo və Yoşkoviçiyə qarşı edilən hücumda düşmənlər müvəffəq olmamışlardır.

**Münxendə**

Berlindən alınan teleqraflarda Münxendə nəzarətsizlik şiddət etdiyi xəbər verilir. Burada sosialist və kommunist hökuməti silah əldə bir-birləri ilə mübarizədə bulunub hökuməti ələ keçirmək istəyirlər. Düsseldorfda və Drezdendə də həmçinin əhval böylədir. Drezdendə üsyançılar tərəfindən vəzirlərdən [nazirlərdən] biri qətlə yetirilmişdir.

# Şirvanda Vətən müharibəsi şəhidinin xatirəsi anılıb

**Şirvan şəhərindəki Şəhidlər xiyabanında şəhid Şəhriyar Əkbər oğlu İsmayılzadənin anım günü ilə bağlı tədbir keçirilib. Tədbirdə şəhər rəhbərliyi, hüquq-mühafizə orqanlarının, ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri, müharibə iştirakçıları iştirak ediblər.**




Çıxış edən şəhər icra hakimiyyətinin başçısı İ.Abbasov Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qüdrətindən söz açıb, tarixi qələbənin əldə olunmasında canından keçən bütün qəhrəman oğullarımızın xatirəsinin əbədi yaşayacağını qeyd edib. Şəhidlərin şərəfli döyüş yolunun gələcək nəsillərə nümunə olduğunu, xalqımızın mərd, vətənpərvər və qəhrəman oğulları ilə fəxr etdiyini vurğulayan ŞİH-in başçısı şəhid və qazi ailələrinə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışıb, Şirvan şəhərində də hər bir şəhid ailəsinin və müharibə iştirakçısının probleminə həssaslıqla yanaşıldığını söyləyib.

Digər çıxış edənlər də 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfərdən, şəhidlərimizin qəhrəmanlıq nümunələrindən, şəhid ailələri və qazilərə dövlət qayğısından söz açıblar.

Qeyd edək ki, şəhid Şəhriyar İsmayılzadə 1994-cü il iyulun 7-də Şirvan şəhərində anadan olub. Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa istiqamətlərində gedən döyüşlərdə iştirak edib, Zəfər Günü - noyabrın 8-də şəhidlik zirvəsinə ucalıb. Şirvan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ölümündən sonra Prezident İlham Əliyevin sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Hərbi xidmətdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*


OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
DÜNYA BAKIDA BİRLƏŞİB
196 ölkə, 80 prezident, vitse-prezident, baş nazir və 72 min iştirakçı


**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Havanın dəyişkən buludlu, əsasən yağmursuz olacağı gözlənilir



**Noyabrın 14-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a bildirilib ki, səhər bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var.**

Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 8-10° isti, gündüz 12-15° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 771 mm civə sütunundan 767 mm civə sütununa enəcək. Nisbi rütubət gecə və gündüz 65-75 % olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında çiskinli yağış yağacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-7° isti, gündüz 11-16° isti, dağlarda gecə 1-5° şaxta, gündüz 0-5° isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz olacaq. Arabir duman olacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-5° isti, dağlıq ərazilərdə 2° şaxta, gündüz 8-13° isti olacaq.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz olacaq. Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli çiskinli yağış yağacağı ehtimalı var. Arabir duman olacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-6° isti, gündüz 6-11° isti olacaq.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında əsasən yağmursuz hava proqnozlaşdırılır. Lakin gecə bəzi yerlərdə qısamüddətli çiskinli yağış yağacağı ehtimalı var. Arabir duman olacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-5° isti, dağlıq ərazilərdə 4°-dək şaxta, gündüz 6-11° isti olacaq.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Arabir duman olacağı gözlənilir. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-7° isti, gündüz 10-15° isti olacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında əsasən yağmursuz hava proqnozlaşdırılır. Lakin gecə və səhər bəzi yerlərdə çiskinli yağış yağacağı gözlənilir. Arabir duman olacağı gözlənilir. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-7° isti, gündüz 10-15° isti, dağlarda gecə 2-7° şaxta, gündüz 5-10° isti olacaq.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Arabir duman olacağı gözlənilir. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-7° isti, gündüz 11-16° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz olacaq. Lakin gecə və səhər bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı ehtimalı var. Arabir duman olacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-9° isti, gündüz 10-15° isti, dağlarda gecə 1-4° isti, gündüz 5-10° isti olacaq.

# Yardımlı rayon mərkəzi 24 saat içməli su ilə təmin olunur

**İçməli su təchizatının yaxşılaşdırılması üçün görülən tədbirlər sayəsində Yardımlı rayon mərkəzinin su və kanalizasiya problemi həll edilmişdir.**

Rayon Statistika İdarəsindən aldığımız məlumata görə, cari ilin əvvəlinə Yardımlı şəhərində mərkəzləşdirilmiş su təchizatına qoşulan ev təsərrüfatlarının sayı 2478, kanalizasiya sisteminə qoşulan ev təsərrüfatlarının sayı 343 olmuşdur. Suyun saxlanıldığı rezervuarların sayı 10, magistral boru və küçə su kəmərlərinin, məhəllə və həyətdaxili şəbəkələrin uzunluğu 74,2 kilometr, o cümlədən magistral boru kəmərlərinin uzunluğu 4,8, küçə su kəmərləri, məhəllə və həyətdaxili şəbəkələr üzrə kəmərlərin uzunluğu isə 69,4 kilometrdir.

Məlumatda daha sonra bildirilir ki, təmizləyici qurğuların müəyyən edilmiş istehsal gücü sutkada 1,2 min kubmetrdir. Ötən il təbii su mənbələrindən şəhər mərkəzləşdirilmiş su təchizatı sistemlərinə öz axını ilə 326,5 min kubmetr su verilib. Bütün istehlakçılara verilmiş 278 min kubmetr sudan 257,4 min kubmetri əhalinin, 20,6 min kubmetr digər istehlakçıların təminatına sərf edilib.

Hazırda rayon mərkəzində istehlakçılar gün ərzində 24 saat yüksəkkeyfiyyətli içməli su ilə təmin olunurlar.

*S.CAVADOV,*
*"Azərbaycan"*

# "Günəş vitamini" qəbul etməsək...

**İnsan orqanizminin ən çox tələb etdiyi vitaminlərdən biri D vitaminidir. Dünyada təxminən 1 milyard insan D vitamini çatışmazlığından əziyyət çəkir. Onun əskikliyi həm uşaqlarda, həm də böyüklərdə ciddi xəstəliklərə səbəb olur. Əzələ və sümük sağlamlığının qorunmasında mühüm rol oynayan "Günəş vitamini" immunitet sisteminə də təsir edərək dağınıq sklerozdan ürək-damar xəstəliklərinə qədər müxtəlif xəstəliklərə yol açır.**



Amerikalı alimlərin apardığı tədqiqata əsasən, insan orqanizmində D vitamini səviyyəsinin ölüm riskinə birbaşa təsir etdiyi məlum olub. Belə ki, orqanizmdə D vitamini normal səviyyədə olan insanların ölüm riski bu vitamin çatışmazlığı olanlara nisbətən 57 faiz aşağı olduğu sübut edilib. Tədqiqatda 50 və yuxarı yaşlı xroniki xəstəlikləri olan insanlar iştirak ediblər.

## D vitamini əskikliyi tünd dərili insanlar üçün təhlükəlidir

D vitamini orqanizmin immun sistemi, sümük sağlamlığı və hüceyrə böyüməsi üçün həyati əhəmiyyət kəsb edən vitamindir. D vitamini bədəndə kalsium və fosforun mənimsənilməsində əsas rol oynayır ki, bu da sümüklərin və dişlərin möhkəmlənməsinə kömək edir. Bununla bağlı qəzetimizə açıqlama verən həkim-infeksionist Aişə Kərimovanın sözlərinə görə, bu vitamini Günəş işığı, qida və dərmanlar vasitəsilə əldə etmək mümkündür: "Dərinin Günəş şüalarına (ultrabənövşəyi B şüalarına) məruz qalması nəticəsində orqanizm özü D vitamini sintez edir. Buna görə də vitaminin digər adı "Günəş vitamini"dir. Həftədə bir neçə dəfə 15-30 dəqiqə günəşdə qalmaq D vitamini qəbulu üçün kifayət edir. Qida rasionuna D vitamini ilə zəngin ərzaqlar əlavə etmək olduqca vacibdir. Somon, tuna və sardina balıqları, yumurta sarısı, mal qaraciyəri və südlü məhsullar bu vitaminlə zəngindir. Günəş vannası və qida məhsulları ilə D vitamini əskikliyi bərpa edilmədikdə isə həkim məsləhəti ilə dərmanlar qəbul edilməlidir".

D vitamini əskikliyinin bəzi əlamətləri olduğunu söyləyən A.Kərimova deyib ki, bunlara sümük və əzələ ağrısı, yorğunluq, sümüklərin kövrək olması, depressiya və immunitetin zəifləməsi aid edilir. D vitamini çatışmazlığı uşaqlarda raxit xəstəliyinə, sümüklərin düzgün inkişaf etməməsinə və deformasiyalara səbəb olur. Böyüklərdə isə bu hal sümüklərin zəifləməsi, kövrəkləşməsi, infeksiyalara tez-tez yoluxması şəklində özünü büruzə verir.

"D vitamini çatışmazlığı tünd dəri tonuna malik insanlar üçün daha təhlükəlidir. Çünki bu tip dəridə melanin daha çox olduğu üçün Günəşdən D vitamini sintezi azalır. Həmçinin qapalı mühitlərdə işləyənlər və ya coğrafi nöqteyi nəzərən Günəş şüalarından kənar yaşayanlar da orqanizmlərindəki bu vitaminin miqdarını nəzarətdə saxlamalıdırlar. İmmunitet sistemi zəif olub immunosupressiv dərmanlar qəbul edənlər və ya immun xəstəlikləri olanlar üçün D vitamini çatışmazlığı riski artır", - deyə mütəxəssis qeyd edib.

## Ozon qatının incəlməsi vitamin sintezinə təsir göstərir

"Günəş vitamini"nin qidadan alınan miqdarının gündəlik tələbatın yüzdə 10-20 faizini təşkil etdiyini bildirən A.Kərimova onu kənardan gücləndirməyin vacibliyini vurğulayıb: "Yaş, cins, coğrafiya, müşayiət olunan xəstəliklər, hamiləlik vəziyyəti və hətta dəri rəngi gündəlik D vitamini ehtiyacını təyin edən amillərdir. Ona görə də D vitamininə ehtiyac insandan insana dəyişir. Buna görə də dərman əlavələrini həkim nəzarətində düzgün dozada qəbul etmək vacibdir. Çünki vitaminin yüksək dozası toksik təsir göstərə bilər. Bu zaman qanda kalsium səviyyəsi yüksəlir, kilo itkisi, nizamsız ürək döyüntüsü, sümük sınıqları riskinin artması, damarlarda və toxumalarda kalsiumlaşma, ürək və böyrəklərin zədələnməsi kimi hallar müşahidə edilir".

Həkim-infeksionist onu da bildirib ki, planetimizin qlobal problemlərindən biri olan iqlim dəyişikliyi və ozon qatının incəlməsi D vitamini sintezinə təsir göstərə bilər. Belə ki, ozon qatının nazilməsi nəticəsində bu vitaminin sintezi üçün lazım olan UVB şüalarının miqdarı azalır. Bu dəyişikliklər insanları Günəşdən daha çox qorunmağa məcbur edir. Digər tərəfdən, iqlim dəyişikliyi hava şəraitinə də təsir edir və nəticədə bəzi bölgələrdə insanlar öncəki illərdən fərqli olaraq, Günəş işığından daha az yararlanırlar. Bu da nəticədə D vitamini çatışmazlığına səbəb olur.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi prokurorluğun veteranı

**SEYFƏDDİN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4218
Sifariş 2609

Qiyməti 60 qəpik